RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 134 (10154) 30 iyul 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# ZƏFƏR

## VƏ YA SON 80 İLİN ƏN MÜKƏMMƏL SİYASİ-HƏRBİ-DİPLOMATİK QƏLƏBƏSİ

Başda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev olmaqla Azərbaycan Ordusu, Azərbaycan xalqı əvvəldən axıradək Ermənistana və onun havadarlarına qarşı cəsarətlə, mərdliklə, qəhrəmanlıqla döyüşdü, 44 gün ərzində heç kəsə nəsib olmayan Zəfərə sahib çıxdı!

Hərbi əməliyyatlar bir neçə dəfə, fasilələrlə davam etdi.

Azərbaycan işğal olunmuş ərazisinin 40 faizini müharibə yolu ilə, 30 faizini (Ağdam, Laçın və Kəlbəcər rayonlarını) diplomatiya vasitəsilə, 30 faizini isə antiterror tədbirləri yolu ilə azad etdi.

Ən maraqlı məqamlardan biri bu oldu ki, Qarabağı azad edən döyüşçülərin əksəriyyəti oranı görməyən gənclər idilər.

Cənab İlham Əliyev bu məqama xüsusi diqqət çəkmişdi:

"Qarabağı işğalçılardan azad edənlərin mütləq əksəriyyəti bu torpaqları heç vaxt görməmişdi. Dünyaya gözlərini açanda artıq bu torpaqlar işğal altında idi. Ancaq cəmiyyətdə və xalqımızda Qarabağ ağrısı o qədər ağır idi, bu yaramız o qədər bizi incidirdi ki, hər bir vətənpərvər insan bir amalla yaşayırdı, bizim Qələbəmizə öz töhfəsini versin".

Azərbaycan işğalla barışmasa da, 30 il dözdü, gözlədi.

Amma heç zaman düşmənə torpaq güzəştə gedəcəyini ağlına belə gətirmədi!

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 gündə son 80 ildə kimsəyə nəsib olmayan Zəfər qazandı!

Hər bir qələbədən daha uca olan Zəfər!

Zəfər, əslində, təmiz, şəriksiz, mübahisəsiz, tam, qəti və mütləq qələbə deməkdir!

4

## İdmanın güləş növü ölkəmizdə zəngin ənənələrə malikdir

### Prezident İlham Əliyev Dünya Güləş Birliyinin prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Nenad Laloviçlə əvvəlki görüşü məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti ilə görüşdən şərəf hissi duyduğunu deyən qonaq 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil edildiyini vurğuladı, buna və ümumilikdə Dünya Güləş Birliyinin fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

2






## Qlobal siyasi nizamda etibarlı tərəfdaşlıq modeli

### Prezident İlham Əliyevin çoxqütblü diplomatiyası

Azərbaycanın çoxqütblü xarici siyasətinin mühüm istiqamətlərindən biri də Yaxın Şərq ölkələri ilə dinamik inkişaf edən əlaqələrdir. Ölkəmiz Yaxın Şərq regionunun aparıcı dövlətləri ilə qarşılıqlı hörmət və etimada söykənən dostluq münasibətlərini qoruyub saxlayır, regionda sülhün, sabitliyin və iqtisadi əməkdaşlığın tərəfdarı kimi çıxış edir.

Eyni zamanda Azərbaycanın Afrika ölkələrinə göstərdiyi ardıcıl dəstək dövlətimizin humanist xarici siyasətinin bariz nümunəsidir. Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə Bakının təşəbbüsü ilə Afrika qitəsinin bir çox ölkəsinə humanitar, tibbi və təhsil yardımlarının göstərilməsi, humanitar aksiyaların təşkili Azərbaycanın qlobal miqyasda həmrəylik və ədalət tərəfdarı olduğunu sübut edir. Bu gün Azərbaycan yalnız iqtisadi və enerji layihələri ilə deyil, həm də ehtiyacı olan regionlara uzatdığı dostluq və yardım əli ilə dünyada humanist liderlik imicini möhkəmləndirir.

5

## Zəngin irsdən texnoloji gələcəyə

### Müasirlik və tarixi yaddaş Azərbaycan memarlığının təməl prinsipidir

2026-cı il Azərbaycanın şəhərsalma tarixində yeni bir dövrün başlanğıcıdır. Məlumdur ki, Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə Azərbaycanda 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Bu qərar ölkənin çoxəsrlik memarlıq irsinin qorunması, müasir urbanizm standartlarının tətbiqi və işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işlərinin beynəlxalq miqyasda tanıdılması məqsədini daşıyır. Sərəncamda oxuyuruq: "Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir". UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və Orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlardır.

8





## Mərakeş-Azərbaycan tərəfdaşlığı Afrika ölkələri üçün nümunədir

Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında münasibətlərin qurulduğu dövrdən etibarən siyasi, iqtisadi, mədəni, sosial və digər sahələrdə əməkdaşlığı tənzimləyən 100-dən çox sənəd imzalanmışdır. Bu sənədlər sırasına ikiqat vergitutmanın aradan qaldırılması, təhlükəsizlik və cinayətkarlığa qarşı mübarizə, dəmir yolları və dənizçilik sahəsində əməkdaşlıq, eləcə də ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında sazişlər daxildir.

Siyasi dialoq iki ölkənin dövlət başçılarının qarşılıqlı hörmətə və bir-birinin suverenliyi ilə ərazi bütövlüyünə verdiyi prinsipial dəstəyə əsaslanır. İkitərəfli əlaqələr xüsusilə siyasi sahədə uğurla inkişaf edir. Bu əlaqələr Azərbaycan Prezidenti İlham Əliyevin və Mərakeş Kralı VI Məhəmmədin əməkdaşlığa dair aydın strateji baxışlarına, qarşılıqlı hörmətə, etimada və bir-birinin suverenliyinə və ərazi bütövlüyünə prinsipial dəstəyə əsaslanır.

6

## "Xeyriyyəçi" maskası altında törədilən transmilli cinayətlər

### Ruben Vardanyanın qanunsuz fəaliyyətini və qaranlıq maliyyə şəbəkəsini ifşa edən yeni faktlar üzə çıxır

Vardanyan Azərbaycana məxsus ərazilərin təbii sərvətlərinin, xüsusilə faydalı qazıntı yataqlarının qanunsuz istismarını təşkil edərək dövlətə böyük iqtisadi zərərlər vurub və bölgədə ekoloji fəlakət riskini artırıb. Xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının talan edilməsi, sərvətlərin qanunsuz yollarla xaricə daşınması məhz Vardanyanın nəzarəti altında həyata keçirilib. Bölgənin flora və faunasına bərpaolunmaz zərər vuran bu ekoloji terror və talançılıq Azərbaycan ictimaiyyətinin haqlı etirazına səbəb olub. 2022-ci ilin dekabrında qeyri-hökumət təşkilatlarının nümayəndələri Xankəndi-Laçın yolunda aksiya təşkil ediblər. Bununla yanaşı, Vardanyan informasiya manipulyasiyası vasitəsilə etnik qarşıdurmanı qızışdıran bəyanatlar verərək, azərbaycanlıların doğma torpaqlarına qayıdış prosesini əngəlləməyə çalışıb.

7



# İdmanın güləş növü ölkəmizdə zəngin ənənələrə malikdir

## Prezident İlham Əliyev Dünya Güləş Birliyinin prezidentini qəbul edib

*Əvvəli 1-ci səh.*



Ölkəmizdə idmanın güləş növünün inkişafını vurğulayan Nenad Laloviç Azərbaycanda güləş üzrə müxtəlif beynəlxalq səviyyəli yarışların keçirildiyini xatırladı, Azərbaycan Güləş Federasiyası ilə uğurlu əməkdaşlıq etdiklərini dedi.

Prezident İlham Əliyev gənc idmançıların gələcəkdə uğur qazanması baxımından 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının əhəmiyyətinə toxundu və bundan sonra da ölkəmizdə bu cür idman tədbirlərinin təşkilinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan güləşçilərinin indiyədək çox mühüm qələbələr qazandıqlarını vurğuladı.

Görüşdə idmanın güləş növünün ölkəmizdə zəngin ənənələrə malik olduğu qeyd edildi, onun inkişafı üçün dövlət səviyyəsində görülən işlərə toxunuldu.

Azərbaycanla Dünya Güləş Birliyi arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486, № 12 (II kitab), maddə 1329; 2025, № 6, maddə 529; 2026, № 1, maddə 7) 94-cü maddəsinin dördüncü hissəsi ləğv edilsin.

**Maddə 2.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210; Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1.2.2-ci maddədən "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana)," sözləri çıxarılsın;

2.2.8.1.3-cü maddədən "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı," sözləri çıxarılsın.

**Maddə 3.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208 (Cild I); 2024, № 2, maddə 137, № 5 (I kitab), maddələr 489, 491, № 6 (I kitab), maddə 644; 2025, № 1, maddə 16, № 2, maddələr 96, 105, № 4 (I kitab), maddə 322, № 6, maddə 528; 2026, № 1, maddə 8, № 3, maddə 209) aşağıdakı dəyişikliklər edilsin:

3.1.20-ci maddə üzrə:

3.1.1.20.1.6-cı maddədən hər iki halda "və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)" sözləri çıxarılsın;

3.1.2.20.1.6-1-ci maddədən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili (ombudsman)" sözləri çıxarılsın;

3.1.3. 20.9-cu maddədə "şəxslərin" sözü "şəxsin" sözü ilə əvəz edilsin;

3.1.4. 20.9-1-ci maddədən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın)" sözləri çıxarılsın;

3.2. 37.3.4-cü maddədə beşinci halda "şəxslər həmin maddədə sadalanan vəzifələrdə" sözləri "şəxs həmin maddədə qeyd edilən vəzifədə" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Keçid müddəa

Bu Qanun qüvvəyə minənədək Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan şəxslərə və onların ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun həmin tarixədək qüvvədə olan normaları tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1."Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); 2024, № 5 (I kitab), maddə 526, № 7, maddə 805; 2025, № 2, maddə 124, № 7, maddə 632, № 9, maddə 817, № 12 (I kitab), maddə 1147; 2026, № 3, maddə 228) 3.25.4-cü yarımbəndində "Respublikası Ali Məclisinin sədri" sözləri "Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi"sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; 2026, № 3, maddə 228, № 4, maddə 315; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd üzrə:

2.1.1. 2.1.3.14-cü abzasdan ", Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman)" sözləri çıxarılsın;

2.1.2. 2.1.4.23-cü və 2.1.5.7-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.4.23. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatı rəhbərinin müavini və həmin Aparatda şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda şöbə müdiri;";

"2.1.5.7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdirinin müavini;";

2.1.3. 2.1.6.2-ci abzasdan "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın)," sözləri çıxarılsın;

2.1.4. 2.1.6.4-cü abzasda "və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçiləri" sözləri "köməkçisi" sözü ilə əvəz edilsin;

2.2. 2.3.3-cü yarımbəndin1-ci abzasından "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın)," sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 614 (Cild I) ilə təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"nin 1.3-cü bəndindən "və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172 (Cild I); 2024, № 4, maddələr 374, 397; 2025, № 9, maddə 817; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 2.8-ci bəndi ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 788 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) Siyahısı"nın 3-cü hissəsində "Respublikası Ali Məclisinin sədri" sözləri "Respublikasının Nazirlər Kabineti (dövlət qulluğu vəzifələri istisna olmaqla)" sözləri ilə əvəz edilsin.

6. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I); 2024, № 7, maddələr 788, 806, № 8, maddə 950; 2025, № 5, maddə 450, № 7, maddə 659) 2.5-ci bəndində "ali vəzifəli şəxsi" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

7.Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123,№ 3, maddə 226, № 4, maddə 307; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 2 iyun tarixli 676 nömrəli, 19 iyun tarixli 686 nömrəli və 15 iyul tarixli 722 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 27-ci hissəsindən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini" sözləri çıxarılsın.

8. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 7, maddə 658, № 9, maddə 817, № 11, maddə 1018, № 12 (I kitab), maddə 1151; 2026, №2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 673 nömrəli və 15 iyul tarixli 723 nömrəli fərmanları) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 9.6-cı bəndi ləğv edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 230; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1-ci hissə üzrə:

9.1.1. 1.7.13-cü, 1.9.7-ci, 1.11.12-ci, 1.15.5-ci və 1.19.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.7.13. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri;";

"1.9.7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatı rəhbərinin müavini;";

"1.11.12. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdiri;";

"1.15.5. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdirinin müavini;";

"1.19.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib;";

9.1.2. 1.19.9-cu yarımbənd ləğv edilsin;

9.1.3. 1.20.4-cü, 1.21.4-cü və 1.22.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.20.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında baş məsləhətçi;";

"1.21.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında böyük məsləhətçi;";

"1.22.3. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında aparıcı məsləhətçi;";

9.1.4. 1.23.3-cü yarımbənd ləğv edilsin;

9.2. 2.10.1-ci, 2.11.1-ci, 2.12.1-ci və 2.13.1-ci yarımbəndlərdən "Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman)," sözləri çıxarılsın.

10. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2026, № 4, maddə 315) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

10.1. 23-cü bənddən "ali vəzifəli şəxsin və" sözləri çıxarılsın və həmin bənddə "xarakterli" sözü "hüquqi" sözü ilə əvəz edilsin;

10.2. 100-cü bəndin ikinci abzasının dördüncü cümləsi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

# R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının Avstriya Respublikasında, eyni zamanda Sloveniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının Avstriya Respublikasında, eyni zamanda Sloveniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# Q.M.İsrafilovun Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qalib Malik oğlu İsrafilov Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# K.T.Xasiyevin Azərbaycan Respublikasının Serbiya Respublikasında, eyni zamanda Monteneqroda və Şimali Makedoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının Serbiya Respublikasında, eyni zamanda Monteneqroda və Şimali Makedoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# K.T.Xasiyevin Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 29 iyul 2026-cı il

# T.T.Tağızadənin Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Tofiq oğlu Tağızadə Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# T.T.Tağızadənin Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Tofiq oğlu Tağızadə Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

# E.F.Cəfərovanın Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Esmira Firudin qızı Cəfərova Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

## "Qaz təchizatı obyektlərinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 242** **Bakı şəhəri, 29 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.9-cu abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qaz təchizatı obyektlərinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti qaz təchizatı obyektlərinin mühafizə zonaları barədə cari vəziyyətə dair məlumatları elektron qaydada 3 (üç) ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Ağdaş şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinə Azərbaycanın Xalq artisti Habil Əliyevin adının verilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 244** **Bakı şəhəri, 29 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycanın Xalq artisti Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Ağdaş şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinə Azərbaycanın Xalq artisti Habil Əliyevin adı verilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Ağdaş Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 311-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 580 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 245** **Bakı şəhəri, 29 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 311-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 580 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının hesabat tədiyə balansının tərtib edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 8 fevral tarixli 25 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) əlavə - "Azərbaycan Respublikasının tədiyə balansının tərtib edilməsi üçün məlumatların hazırlanması və təqdim edilməsi üzrə proqram"ın 2-ci sütununun üçüncü və yeddinci abzaslarında "nəqliyyat və ekspeditor təşkilatları" sözləri "ekspeditorlar" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 321 (Cild I); 2024, № 1, maddə 73, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın 9.7-ci bəndində "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziyaverilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 828 (Cild I); 2024, № 1, maddə 73) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1.1-ci yarımbəndin ikinci abzasında "xidmət göstərən nəqliyyat-ekspedisiya müəssisələri" sözləri "ekspeditorlar "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında"Azərbaycan Respublikası Qanununun," sözləri ilə əvəz edilsin;

3.2. 1.1.6-cı yarımbəndin ikinci cümləsində "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziyaverilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin;

3.3. 1.1.13-cü yarımbənddən ", eləcə də nəqliyyat ekspedisiya xidməti" sözləri çıxarılsın və həmin yarımbəndə "təşkilatlar" sözündən sonra ", habelə ekspeditorlar" sözləri əlavə edilsin;

3.4. 5.7.2-ci yarımbəndin birinci abzasında yol nəqliyyat-ekspedisiya müəssisələrinin" sözləri "ekspeditorlar" sözü ilə əvəz edilsin;

3.5. 6.1.1-ci yarımbənddə "nəqliyyat-ekspedisiya xidməti göstərən müəssisələr" sözləri "ekspeditorlar" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "daşınmasında" sözündən sonra "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanununa," sözləri əlavə edilsin;

3.6. 11.3.2-ci yarımbənd üzrə:

3.6.1. on dördüncü və on beşinci abzaslar aşağıdakı redaksiyada verilsin:

"Yükgöndərən - daşımanın təşəbbüsçüsü olan və adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi şəxs;

Yükalan-əqd əsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxs;";

3.6.2. otuz doqquzuncu abzasda "nəqliyyat və ekspeditor təşkilatları və müəssisələri" sözləri "ekspeditorlar, daşıyıcılar" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli 220 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 871 (Cild I); 2024, № 1, maddə 73) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları"nın"1. Qaydaların tətbiqi" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənddə "nəqliyyat-ekspedisiya təşkilatları" sözləri "ekspeditorlar" sözü ilə əvəz edilsin;

4.2. 9.6-cı bəndin altıncı abzası ləğv edilsin;

4.3. 17.5-ci bəndin ikinci cümləsində "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziyaverilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187, № 9, maddə 874; 2026, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 iyun tarixli 173 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-1-ci hissəsindən "həmçinin bu xidmətlər üzrə nəqliyyat-ekspedisiya xidmətləri" sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574; 2025, № 3, maddə 282; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 25 iyun tarixli 199 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 15.6-cı bəndində "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziyaverilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112; 2025, № 3, maddə 282; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 25 iyun tarixli 199 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 10.7-1-ci və 40.1-1-ci bəndlərdə "iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə" sözləri "pretenziyaverilməsi və iddia qaldırılması "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci və 28-ci maddələrinə" sözləri ilə əvəz edilsin;

7.2. 48.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"48.6. Yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra 3 ay ərzində çatdırılmazsa, eləcə də müqavilə ilə müəyyən edilmiş çatdırılma müddətinin bitdiyi tarixdən 30 gün sonra yükalana təhvil verilməzsə, əksi sübut edilənədək yük itirilmiş sayılır.";

7.3. 48.7-ci bəndin birinci cümləsində "dəyən zərərin əvəzini aldığı zaman zərərin əvəzinin" sözləri "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 859.1-ci maddəsi ilə müəyyən edilmiş ödənişlərin" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 sentyabr tarixli 389 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1052) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.1. daşıyıcı - yük daşınması müqaviləsi əsasında və haqq müqabilində yük daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə dəmiryol nəqliyyat vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar;";

8.2. 2.4-cü və 2.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.4. Daşıyıcı bu Qaydaların 2.5-ci bəndində nəzərdə tutulmuş hallardan hər hansı biri olmadıqda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 851.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə ona təqdim olunmuş yükdaşıma sifarişini infrastruktur sahibi ilə onun elektron platforması üzərindən razılaşdırmaqla (daşıyıcının eyni zamanda infrastruktur sahibi olduğu hal istisna olmaqla) sifarişçiyə məlumat verir.";

"2.7. İnfrastruktur sahibi daşıyıcı tərəfindən təqdim olunmuş yükdaşıma sifarişinə bu Qaydaların 2.4-cü bəndi ilə müəyyən edilmiş müddətin yarısından çox olmayan müddətdə baxır, zəruri olduqda digər nəqliyyat növlərinin sahibləri, dəniz terminallarının operatorları ilə razılaşdırır və sifarişi razılaşdırmanın nəticələri barədə qeydlə öz elektron platforması üzərindən daşıyıcıya qaytarır.";

8.3. aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. Daşıyıcı, eyni zamanda infrastruktur sahibi olduğu halda isə bu Qaydaların 2.2-ci bəndinə əsasən yükgöndərən tərəfindən təqdim olunmuş yükdaşıma sifarişinə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 851.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə baxır, zərurət olduqda digər nəqliyyat növlərinin sahibləri, dəniz terminallarının operatorları ilə razılaşdırır və bu barədə sifarişçiyə məlumat verir.";

8.4. 2.10-cu bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Baş naziri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində iyulun 29-da bu ölkənin Baş naziri Abiy Əhməd Əli ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla Efiopiya arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Baş nazir Abiy Əhməd Əli Azərbaycanın son illərdə beynəlxalq aləmdə yüksək nüfuz qazandığını qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurların beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılandığını bildirib. O, 2026-cı ilin fevral ayında Azərbaycana rəsmi səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, həmin görüşdə aparılan səmərəli müzakirələrin ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verdiyini, əldə olunmuş razılaşmaların əməkdaşlığın genişləndirilməsi üçün mühüm zəmin yaratdığını qeyd edib.

Baş nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə səmimi salamlarını çatdırmağı xahiş edib.

Abiy Əhməd Əli ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayaraq, xüsusən neft-qaz sənayesi sahəsində layihələrin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, bu istiqamətlərdə mövcud potensialdan səmərəli istifadə olunması hər iki ölkənin maraqlarına xidmət edir.

Milli Məclisin Sədri göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, səfər çərçivəsində ölkədə müşahidə etdiyi sürətli inkişafın onda xoş təəssürat yaratdığını bildirib. O, bu səfərin Azərbaycan ilə Efiopiya arasında əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi üçün əlverişli imkanlar açdığını qeyd edib.

Görüşdə spiker Sahibə Qafarova ölkəmizin inkişaf yolu haqqında danışaraq, Ulu Öndər Heydər Əliyevin ölkəmizin dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və müasir Azərbaycanın inkişaf strategiyasının formalaşdırılması istiqamətində müstəsna xidmətlərini qeyd edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişaf yolunda inamla irəlilədiyini, ölkəmizin beynəlxalq mövqeyinin və nüfuzunun davamlı olaraq möhkəmləndiyini vurğulayıb.

Milli Məclisin Sədri Azərbaycan ilə Efiopiya arasında dövlət başçıları səviyyəsində formalaşmış səmimi münasibətlərin və yüksəksəviyyəli qarşılıqlı təmasların ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova Baş nazirə həmçinin, ölkəmizin işğaldan azad edilmiş ərazilərində Azərbaycanın öz imkanları hesabına həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq tədbirləri barədə məlumat verib.

Söhbət zamanı mövcud parlamentlərarası əlaqələrin iki ölkə arasında münasibətlərin daha da inkişafına mühüm töhfə verdiyi vurğulanıb. Parlament rəhbərlərinin və deputatların qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd olunub, həmçinin beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan ilə Efiopiya arasında siyasi, iqtisadi, humanitar və parlamentlərarası əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federasiya Palatasının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində iyulun 29-da bu ölkənin Federasiya Palatasının Sədri Aqeqnehu Teşager ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Aqeqnehu Teşager Azərbaycanın Efiopiya üçün çox mühüm bir ölkə olduğunu söyləyərək, xüsusilə Baş nazir Abiy Əhməd Əlinin Azərbaycana səfərindən sonra iki ölkə arasında münasibətlərin daha da gücləndiyini bildirib.

Görüşdə qeyd olunub ki, Efiopiya ticarət, investisiya, turizm kimi sahələrdə Azərbaycanla əlaqələri daha da inkişaf etdirməkdə maraqlıdır. Bununla yanaşı, Azərbaycanın turizm sahəsində əldə etdiyi nailiyyətlərin Efiopiya üçün də uğurlu nümunə təşkil etdiyi vurğulanıb.

Federasiya Palatasının Sədri Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasının Azərbaycanın uğuru olduğunu söyləyərək, ölkəmizin inkişafı, qazandığı nailiyyətlərin dost Efiopiyada diqqətlə izlənildiyini bildirib. O, xüsusilə "ASAN xidmət" modelinin Efiopiyada da tətbiq olunması və Azərbaycanın bu məsələdə göstərdiyi texniki dəstəyi yüksək qiymətləndirərək, bu modelin artıq Efiopiyanın regionlarında qurulduğunu və bununla dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırıldığını diqqətə çatdırıb.

Azərbaycanın COP29-a yüksək səviyyədə evsahibliyi etdiyini və ölkəmizin uğurlu təşkilatçılığının yüksək qiymətləndirildiyini bildirən Aqeqnehu Teşager ölkəsinin 2027-ci ildə keçiriləcək COP32-yə evsahibliyi edəcəyini xatırladıb və bu sahədə də Azərbaycanın təcrübəsindən bəhrələnəcəklərini bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə təşəkkür edərək, Efiopiyanın son illərdə bir çox sahədə nəzərəçarpan uğurlar qazandığını bildirib və bu nailiyyətlər münasibətilə təbrik edib. O, ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu söyləyib və münasibətləri daha da dərinləşdirmək üçün böyük potensial olduğunu bildirib.

Görüşdə parlamentlərimiz arasında əlaqələr də nəzərdən keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova Federasiya Palatasının Sədri Aqeqnehu Teşager ilə bundan əvvəlki görüşünü məmnunluqla xatırladaraq, deyib ki, hökumətlərarası əlaqələrlə yanaşı, parlamentlərimiz də münasibətləri daha da genişləndirməlidir. Söhbət zamanı, həmçinin parlament sədrləri, dostluq qrupları arasında qarşılıqlı səfərlərin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfələri vurğulanıb. Eyni zamanda parlament komitələri, dostluq qrupları və parlament aparatları arasında əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Federasiya Palatasının Sədri Azərbaycanın fəal parlament diplomatiyası həyata keçirdiyini və bir çox beynəlxalq parlament təşkilatında aktiv təmsil olunduğunu bildirib. Spiker Sahibə Qafarova bu platformalarda əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Aqeqnehu Teşager Milli Məclisin Sədrinin səfərinin çox mühüm bir dövrə təsadüf etdiyini, bir müddət əvvəl Efiopiyada 7-ci parlament seçkilərinin uğurla keçirildiyini bildirib və seçkilərin nəticələri haqqında məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Milli Məclisin nümayəndə heyəti Efiopiyada bir sıra dövlət və tarixi məkanlarla tanış olub

**Milli Məclisin Sədri Sahibə Qafarovanın Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri davam edir. Parlament nümayəndə heyəti iyulun 29-da paytaxt Əddis-Əbəbədə yerləşən MESOB dövlət xidməti mərkəzində olub.**









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada qonaqlara bildirilib ki, Azərbaycanın brendi olan "ASAN xidmət" modeli əsasında yaradılmış MESOB vətəndaşların mühüm dövlət xidmətlərinə çıxışını asanlaşdırmaq üçün formalaşdırılmış müasir "bir pəncərə" platformasıdır. Federal agentliklərin 140-dan çox xidmətini vahid rəqəmsal və fiziki mərkəzdə birləşdirən MESOB dövlət xidmətlərinin daha sürətli, rahat və etibarlı şəkildə göstərilməsini təmin edir.

Qeyd edək ki, "ASAN xidmət" təcrübəsinin Efiopiyada tətbiqi ilə bağlı 2024-cü ilin mayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə bu ölkənin müvafiq qurumu arasında Anlaşma Memorandumu imzalanıb. COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Efiopiya Prezidenti Taye Atske Sellasiye arasında keçirilən görüşdə də bu istiqamətdə əməkdaşlıq məsələləri müzakirə olunub. Ötən dövr ərzində Azərbaycanın dəstəyi ilə Efiopiyada "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə bağlı zəruri təşkilati, hüquqi və texniki dəstək tədbirləri həyata keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın Efiopiyada keçirdiyi görüşlər zamanı ölkə rəhbərliyi bu modelin artıq Efiopiyanın regionlarında da tətbiq olunduğunu və bununla da dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

Səfər çərçivəsində nümayəndə heyəti Milli Saray Muzey Kompleksi ilə tanış olub. Qonaqlara məlumat verilib ki, kompleks Efiopiyanın dövlətçilik tarixini, monarxiya dövrünün irsini və ölkənin mədəni dəyərlərini özündə əks etdirən mühüm tarixi-mədəni məkanlardan biridir.

Nümayəndə heyəti həmçinin Milli Tarix Muzey kompleksini də ziyarət edib. Burada qonaqlar Efiopiyanın tarixini əks etdirən eksponatlarla tanış olublar.

*"Azərbaycan"*

# ZƏFƏR



## VƏ YA SON 80 İLİN ƏN MÜKƏMMƏL SİYASİ-HƏRBİ-DİPLOMATİK QƏLƏBƏSİ

**"Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət, heç bir xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində".**

**İlham ƏLİYEV**

Həyatda hər şey nisbidir.

Bunu filosoflar əsrlər öncə isbat ediblər.

Məsələn, biz həm yaşayırıq, həm ölümə doğru gedirik.

Yaxud 15 yaşlı yeniyetmə azyaşlı uşağa nisbətən xeyli güclüdür, peşəkar idmançıdan isə qat-qat zəif.

Baxır hansı tərəfdən yanaşmağa, kimi kimlə müqayisə etməyə.

*Həyatda baş verən hadisələr də belədir.*

*Hərə baş verən olaya bir mövqedən, müxtəlif rakursdan yanaşır, fərqli qiymət verir.*

*Bu, əsasən insanların biliyindən, təcrübəsindən, hansı əqidəyə qulluq etməsindən asılı olur.*

Amma siyasi mövqe daha çox rol oynayır.

**Xoşbəxtlikdən yanaşmalar çoxlu və müxtəlif olsa da, həqiqət yeganədir!**

*Bütün cəhdlərə, yozumlara, haqlı-haqsız dəyərləndirmələrə baxmayaraq, həqiqət heç zaman dəyişmir, kimsə onu dəyişdirmək iqtidarında deyil!*

Və gec-tez üzə çıxır, hamı onu qəbul etmək zorunda qalır...

* İstəsə də, istəməsə də...
* Ucadan etiraf etsə də, etməsə də...
* Ona sərf etsə də, etməsə də...

**Azərbaycanın Dağlıq Qarabağın əsl sahibi olması faktı kimi!**

❖ ❖ ❖

*Qarabağ kimindir?*

*Ritorik sualdır.*

**Sən demə, ən sadə və adi həqiqəti belə mübahisə obyektinə çevirmək olurmuş.**

*Həm də təkcə mübahisə yox, məkrli üsullarla şişirdərək münaqişəyə, daha sonra müharibəyədək çatdırmaq, ən nəhayət, işğalla yekunlaşdırmaq mümkün imiş.*

**Qarabağ münaqişəsi, müharibəsi və Qarabağın işğalı kimi!**

*Bunun üçün gücdən istifadə etmək, məkrli oyunlar oynamaq, qan tökmək, ikili standartlar tətbiq etmək gərəkmiş.*

**"Qarabağ oyunu"na I Pyotrun dövründən başlanılıb.**

Həm də bir neçə məqsədə hesablanmış riyakar və uzaqgörən plan qurmaqla, bu niyyətə əsrlər və nəsillər, ictimai-iqtisadi formasiyalar dəyişsə də, daim sadiq qalmaqla.

Hələ 300 il əvvəl - 10 noyabr 1724-cü ildə I Pyotr ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində Dərbənd və Bakı, həmçinin Gilan, Mazandaran və Gürvan ərazilərində yerləşdirilməsi barədə fərman vermişdi.

II Yekaterina isə Albaniya erməni dövləti yaratmaq istəyirdi.

**Çar Rusiyasının bu niyyəti XIX əsrdə də davam etdi.**

"Kürəkçay" (1805-ci il), "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələri ilə bu niyyət "qanuniləşdirildi".

I Dünya müharibəsi illərində 250 mindən çox erməni regiona gətirildi.

Sonra növbə sovet hakimiyyətinə çatdı.

Sov.İKP(b)MK Siyasi Bürosunun 7 iyul 1923-cü il tarixli qərarı ilə heç bir zərurət olmadan Azərbaycanın tərkibində DQMV adlı süni bir qurum yaradıldı...

Beləliklə, ölkəmizin içinə "separatizm toxumu" basdırıldı.

**Sovet hakimiyyəti bundan da uzağa getdi.**

SSRİ Nazirlər Sovetinin 1947-ci və 1948-ci illərdə verdiyi iki qərarla 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı dədə-baba torpaqlarından kütləvi şəkildə və zorakılıqla Azərbaycana sürgün edildi.

Boşaldılan torpaqlara xarici ölkələrdən gətirilən ermənilər yerləşdirildi.

*Rusiya qaraçı kimi dünyanın hər tərəfinə səpələnən ermənilərə canı yandığından torpaq taparaq dövlət yaratmırdı.*

Uzun illər boyu Türkiyədə yaşayaraq onun nemətlərindən gen-bol bəhrələnən ermənilərin müharibə başlayan kimi xəyanət əməllərinə qurşanaraq üsyana başlamaları, türklərə arxadan zərbə vurmaları onların xəyanətkar millət olmalarından xəbər verirdi.

**Rusiya Azərbaycan torpaqları hesabına Türkiyə əleyhinə forpost dövləti öz məqsədləri üçün yaradırdı.**

*Bilirdi ki, heç zaman Azərbaycanda Türkiyəyə qarşı olan hərbi baza qura bilməyəcək, buna Azərbaycan xalqı heç zaman yol verməz!*

Ermənilər isə başqa məsələdir, hər zaman satqınlığa hazırdırlar.

**Digər iki məqsəd isə Ermənistan vasitəsilə daim Azərbaycanı təzyiq altında saxlayaraq onun təbii sərvətlərini mənimsəmək və türk dövlətlərinin quru yolla əlaqələrini kəsərək onları birbirindən ayrı salmaq idi.**

Hələ də bu məkrindən əl çəkməyib!

❖ ❖ ❖

*SSRİ-nin çöküşü zamanı Rusiya nə Azərbaycana təsir imkanlarını itirmək, nə də Cənubi Qafqazdan çıxmaq fikrində idi.*

**Odur ki, "Qarabağ problemi"ni yenidən gündəmə gətirərək münaqişəni alovlandırdı, Ermənistanı silahlandıraraq DQMV-dəki separatçılar ocağını körüklədi, 366-cı motoatıcı polkunun iştirakı ilə Azərbaycanda qırğınlar törədərək, ərazilərimizin 20 faizinin işğalına nail oldu.**

*ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Rusiya daim Azərbaycana "mən istəməsəm, torpaqlarınız işğaldan azad edilə bilməz" mesajını verirdi.*

Təəssüf ki, bu mövqedə olan təkcə Rusiya deyildi.

**ATƏT-in Minsk qrupunun digər iki həmsədri - ABŞ və Fransa da daim ermənipərəst mövqe tuturdular.**

*Hələ bu harasıdır, dünya erməniliyinin pul kisəsindən asılı olan dövlətlər, onların parlamentləri, habelə ikili standartlarla işləyən beynəlxalq qurum və təşkilatlar da daim erməniləri müdafiə etməklə beynəlxalq hüququ və ədaləti ayaqları altında tapdalayırdılar.*

MƏSƏLƏN:

* ABŞ Konqresi işğalçı Ermənistana yox, Azərbaycana qarşı 907-ci düzəlişi qəbul etdi.
* Fransa parlamenti dəfələrlə Azərbaycan əleyhinə qərəzli qətnamələr çıxardı, Fransa dövləti isə Ermənistana sistemli şəkildə maliyyə, hərbi və digər yardımlar göstərirdi və göstərir.
* Avropa İttifaqı Parlamenti və AŞPA-nın Azərbaycana qarşı qərəzinin və düşmənçiliyinin, qəbul etdikləri saxta, ədalətsiz qərar və bəyanatlarının isə sayı-hesabı yoxdur.

*Bütün xristian dünyası birləşərək Azərbaycana qarşı hər növ təsir, təzyiq göstərdilər, onu ərazi güzəştlərinə məcbur etmək istədilər.*

**Lakin Ulu Öndər Heydər Əliyev və İlham Əliyev heç bir təhdidə və hədəyə boyun əyməyərək Azərbaycanın ziyanına olan bir sənədə belə imza atmadılar!**

*Bir qarış torpaqdan belə keçməyəcəklərini açıq şəkildə dəfələrlə bəyan etdilər!*

❖ ❖ ❖

* Dünyada heç bir dövlət bizim qədər səbir nümayiş etdirərək əsl məqamın yetişməsini gözləməyib!
* Dünyada heç bir dövlət yalançı sülh danışıqlarına bizim qədər dözümlülük göstərməyib!
* Dünyada heç bir dövlət hərbi əməliyyatlara bizimtək məxfi hazırlıq görə bilməyib!
* Dünyada heç bir dövlət bizim kimi sürətli və səmərəli müharibə apara bilməyib!
* Dünyada heç bir dövlət Azərbaycan kimi müharibədə tam, qəti və mütləq qələbə qazanmaqla düşməni qarşısında diz çökdürməyib!
* Dünyada heç bir dövlət qalib qəldiyi halda birinci sülh təklifi ilə çıxış etməyib!
* Dünyada heç bir dövlət düşmənə bizim qədər alicənablıq göstərməyib!

*Budur xalqımızın mənəvi qüdrəti, ordumuzun gücü, dövlətimizin möhtəşəmliyi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradındakı nitqindən üç məqama diqqət çəkmək istəyirik:**

* *"Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi".*
* *"Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi".*
* *"Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks təqdirdə sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin".*

**Yalançı sülh danışıqları puça çıxarılandan sonra növbə "dəmir yumruğ"a çatdı.**

**Lakin müharibə dövründə də Azərbaycana təsir, təzyiq və təhdidlər dayanmadı.**

*Əslində, müharibə üç cəbhədə - hərbi, diplomatiya və informasiya sahəsində gedirdi.*

**Birinci cəbhədə - hərb meydanında Azərbaycan Ordusu, diplomatiya və informasiya cəbhəsində isə Müzəffər Ali Baş Komandan İlham Əliyev təkbaşına çarpışırdı!**

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu günlərdə Qarabağa qayıtmış keçmiş məcburi köçkünlərlə görüşdə qürurla səsləndirdiyi ifadəni bir daha xatırladırıq:**

*"Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət, heç bir xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində".*

II Qarabağ müharibəsi dövründə cəbhədə baş verənlər barədə hamımız hər gün xəbər tuturduq.

**Azərbaycan Ordusunun hər bir uğurlu əməliyyatı, işğaldan azad edilən hər bir strateji mövqe, hər bir yaşayış məntəqəsi barədə Müzəffər Ali Baş Komandan İlham Əliyev televiziya ilə xalqa müraciətlərində dəqiq məlumatlar verirdi.**

Digər tərəfdən...

Vətən müharibəsi əvvəlki müharibələrdən bir sıra cəhətləri ilə fərqlənirdi.

*Əvvəla,* Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibəyə hazırlanan bu ordu yeni texnologiyaya əsaslanan silah-sursatla təchiz edilmişdi.

*İkincisi,* bu müharibədə yeni taktika və strategiya tətbiq olunurdu.

*Üçüncüsü,* xüsusi təlim görmüş, yerli şəraitə yaxından bələd olan, yeni silahlardan məharətlə istifadə edən zabit və xüsusi təyinatlılarımız qəhrəmanlıqla döyüşürdülər.

*Ən nəhayət,* evimizdə oturaraq xüsusi çəkilişlər sayəsində dəqiq vuran yeni silahlarla düşmənin atəş nöqtələrinin, canlı qüvvələrinin, zirehli texnikasının, müdafiə mövqelərinin necə darmadağın edildiyini gözlərimizlə görürdük.

**Diplomatiya müstəvisində gedən danışıqlar, Azərbaycan Prezidentinə edilən telefon zəngləri, xahiş-minnət, təsir, bəzən təzyiq, hətta təhdid cəhdləri barədə isə onun həmin dövrdə və sonralar verdiyi açıqlamalardan xəbər tutduq.**

*İnformasiya cəbhəsindəki döyüşləri də mavi ekranda görürdük.*

**Onu da qeyd edək ki, 44 günlük Zəfər müharibəsi dövründə cənab İlham Əliyev 30-dan çox tanınmış telekanala, informasiya agentliyinə, qəzet müxbirinə müsahibələr vermişdir.**

Ən maraqlısı bu idi ki, müsahibə üçün Azərbaycana gələnlərin əksəriyyəti heç də xeyirxah, obyektiv mövqedə deyildilər.

*Onlar feyk xəbərləri həqiqət kimi qələmə verməyə çalışır, Azərbaycanda türk əsgərlərinin, xaricdən gətirilmiş "muzdluların" döyüşdüyü və s. kimi yalan informasiyaların təsdiqlənməsinə can atır, bəzən özlərini jurnalistdən çox "prokuror" kimi aparırdılar.*

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bu feykləri, qərəzli yalan məlumatları konkret faktlarla, ironik təbəssümlə təkzib edir, tutarlı fakt və arqumentləri ilə qara niyyətliləri yerlərində oturdurdu!**

Deyilənlərə misal olaraq cənab İlham Əliyevlə "BBS News"un müxbirinin telemüsahibəsindən bir parçanı yenidən diqqətinizə təqdim edirik.

Qadın jurnalistin guya Azərbaycanda azad söz, azad media olmadığı, hətta bəzən iqtidarı tənqid edənlərin həbsxanaya salındığı barədə iddialarını cənab İlham Əliyev konkret faktlar əsasında rədd etdi.

Bu zaman dünyanın əksər telekanallarında nümayiş etdirilən maraqlı bir mübahisə - dialoq yarandı.

**"Bunların heç biri həqiqət deyil?**

*- Tamamilə feykdir. Tamamilə. Bizim azad mediamız var. Bizim azad internetimiz var. İndi hərbi vəziyyətə görə bizim bəzi məhdudiyyətlərimiz var, lakin əvvəllər heç bir məhdudiyyət yox idi. Azərbaycanda internet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Siz internetin azad olduğu, senzuranın olmadığı və 80 faiz internet istifadəçilərinin olduğu bir ölkədə medianın məhdudlaşdırılmasını təsəvvürünüzə gətirə bilərsiniz? Bizim "Facebook"da milyonlarla insanımız var. Bizdə azad medianın olmadığını necə deyə bilərsiniz? Bu, yenə də qərəzli yanaşmadır. Bu, Qərb auditoriyasında Azərbaycan haqqında bir fikir formalaşdırmaq cəhdidir. Bizim müxalifətimiz var, bizim QHT-lərimiz var. Bizdə azad siyasi fəaliyyət var. Bizdə azad media var. Bizdə söz azadlığı var. Əgər siz bu sualı qaldırdınızsa, mən də sizə bir sual verə bilərəmmi? Siz cənab Assanjla baş verənləri necə qiymətləndirirsiniz? Bu sizin ölkədə azad mətbuatın təzahürüdür?*

**- Biz burada mənim ölkəmi müzakirə etmək üçün deyilik.**

*- Xeyr, gəlin müzakirə edək. Gəlin müzakirə edək.*

**- Yox, Prezident Əliyev.**

*- Ermənilərin burada azad mətbuatının olmayacağı ilə bağlı məni ittiham etmək əvəzinə gəlin Assanj barədə danışaq. Bağışlayın, o, Ekvador səfirliyində neçə il keçirdi və nəyə görə? O, indi hardadır? Jurnalist fəaliyyətinə görə siz həmin şəxsi girov saxladınız, əslində, mənəvi və fiziki olaraq onu öldürdünüz. Bunu siz etmisiniz, biz yox. İndi o həbsxanadadır. Siz bu işlərlə məşğul olduğunuz halda sizin azad mətbuat haqqında danışmağa mənəvi haqqınız yoxdur.*

**- Münaqişəyə qayıdaraq...**

*- Bəli, yaxşı olardı ki, münaqişəyə qayıdasınız, çünki bu, sizin xoşunuza gəlmir. Sizin xoşunuza yalnız ittiham etmək, hücum etmək gəlir. Amma güzgüyə baxın. Mən dəfələrlə demişəm, buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl baxın. Siz sualınızla məni ittiham edirsiniz. Bu, sual deyil, bu ittihamdır. Siz prokuror kimi danışırsınız. Niyə? Əgər siz bu qədər demokratik və obyektivsinizsə, nəyə görə Assanjı həbsxanada saxlayırsınız? Nə üçün? Siz onu jurnalist fəaliyyətinə görə həbsxanada saxlayırsınız".*

**Onu da qeyd edək ki, sosial şəbəkədə yerləşdirilən bu parça qısa müddət ərzində 5 milyondan çox baxış yığmışdır.**

❖ ❖ ❖

**Başda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev olmaqla Azərbaycan Ordusu, Azərbaycan xalqı əvvəldən axıradək Ermənistana və onun havadarlarına qarşı cəsarətlə, mərdliklə, qəhrəmanlıqla döyüşdü, 44 gün ərzində heç kəsə nəsib olmayan Zəfərə sahib çıxdı!**

Hərbi əməliyyatlar bir neçə dəfə, fasilələrlə davam etdi.

*Azərbaycan işğal olunmuş ərazisinin 40 faizini müharibə yolu ilə, 30 faizini (Ağdam, Laçın və Kəlbəcər rayonlarını) diplomatiya vasitəsilə, 30 faizini isə antiterror tədbirləri yolu ilə azad etdi.*

Ən maraqlı məqamlardan biri bu oldu ki, Qarabağı azad edən döyüşçülərin əksəriyyəti oranı görməyən gənclər idilər.

**Cənab İlham Əliyev bu məqama xüsusi diqqət çəkmişdi:**

*"Qarabağı işğalçılardan azad edənlərin mütləq əksəriyyəti bu torpaqları heç vaxt görməmişdi. Dünyaya gözlərini açanda artıq bu torpaqlar işğal altında idi. Ancaq cəmiyyətdə və xalqımızda Qarabağ ağrısı o qədər ağır idi, bu yaramız o qədər bizi incidirdi ki, hər bir vətənpərvər insan bir amalla yaşayırdı, bizim Qələbəmizə öz töhfəsini versin".*

Azərbaycan işğalla barışmasa da, 30 il dözdü, gözlədi.

Amma heç zaman düşmənə torpaq güzəştə gedəcəyini ağlına belə gətirmədi!

**Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 gündə son 80 ildə kimsəyə nəsib olmayan Zəfər qazandı!**

*Hər bir qələbədən daha uca olan Zəfər!*

**Zəfər, əslində, təmiz, şəriksiz, mübahisəsiz, tam, qəti və mütləq qələbə deməkdir!**

**Bizi şərəfli Zəfərə qovuşduran İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda xalqımıza müraciətindən bir parçanı bir daha xatırladırıq:**

*"Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan".*

**Bəxtiyar SADIQOV**

# Qlobal siyasi nizamda etibarlı tərəfdaşlıq modeli

## Prezident İlham Əliyevin çoxqütblü diplomatiyası



**Sürətlə dəyişən geosiyasi reallıqlar, güc mərkəzləri arasındakı ziddiyyətlər və qlobal qeyri-müəyyənliklər fonunda müstəqil, çevik xarici siyasət yürütmək hər bir dövlət üçün strateji sınaqdır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan bu sınaqdan yalnız uğurla keçmək deyil, həm də beynəlxalq arxitekturanın əsas aparıcı aktorlarından birinə çevrilmək bacarığı nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxqütblü diplomatiya ölkəmizi regional çərçivələrdən çıxararaq qlobal siyasətin diqqət mərkəzinə gətirib. Bu siyasətin təməlində isə milli maraqların qətiyyətlə qorunması, beynəlxalq hüquqa sadiqlik və ən əsası, sözü imzası qədər kəsərli olan etibarlı liderlik imici dayanır.**

### Dünya güclərinin kəsişmə nöqtəsi

Azərbaycanın geostrateji mövqeyi və təşəbbüskarı olduğu nəhəng layihələr dünya siyasətinin supergüclərinin ölkəmizə olan marağını bariz şəkildə artırıb. Hazırda Bakı həm Vaşinqton, həm də Pekin üçün etibarlı və əvəzolunmaz strateji tərəfdaşdır.

Vaşinqtonun Azərbaycan rəhbərliyinin regionda sülh və sabitliyin bərqərar olunması istiqamətindəki qətiyyətli addımlarını yüksək dəyərləndirməsi, Prezident İlham Əliyevin humanist və sülhməramlı səylərinə verilən beynəlxalq qiymətin təzahürüdür. Cənubi Qafqazda silahların susması, təhlükəsizlik və əməkdaşlıq üçün yeni imkanların yaranması məhz bu ardıcıl siyasi iradənin nəticəsidir.

Tarixi IV Şuşa Qlobal Media Forumunda beynəlxalq media nümayəndələrinin suallarını cavablandırarkən Prezident İlham Əliyevin ABŞ ilə münasibətlərlə bağlı vurğuladığı məqamlar Bakı ilə Vaşinqton arasındakı əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini nümayiş etdirir: "Siz Birləşmiş Ştatlar ilə Azərbaycan arasında münasibətlər haqqında soruşdunuz. Deyərdim ki, həmin münasibətlər Tramp Administrasiyası ilə Azərbaycan arasında əladır və biz çox şadıq ki, o əlaqələr həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb".

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda onun haqqında səsləndirdiyi fikirlərinin yer aldığı məqaləni özünün "Truth" sosial şəbəkə hesabında paylaşıb.

Dövlətimizin başçısının vurğuladğı kimi, Tramp Administrasiyası ilə Azərbaycan arasında qurulan münasibətlər artıq real strateji tərəfdaşlıq səviyyəsindədir.

Ötən ilin avqustunda Vaşinqtonda keçirilən tarixi görüş, yanvarda Davosdakı təmaslar, ABŞ Prezidenti Donald Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi və ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması yüksək münasibətlərin praktik təzahürləridir. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, Prezident Tramp sülhü yeni imkanlar yaradan bir amil kimi görən, müharibələrə son qoymağa çalışan fərqli bir liderdir. Bu baxış Azərbaycanın Cənubi Qafqazda bərqərar etdiyi sülh gündəliyi ilə tam üst-üstə düşür.

ABŞ ilə strateji dialoqun ən yüksək səviyyəyə çatması ilə yanaşı, Şərqin nəhəng gücü olan Çin ilə münasibətlər də dinamik şəkildə inkişaf edir. Çin Sədri Si Cinpinin Prezident İlham Əliyevə dərin hörmətlə yanaşması və səmimi dostluq münasibətlərini vurğulaması Pekinin Azərbaycana verdiyi strateji dəyərin göstəricisidir. "Bir kəmər, bir yol" layihəsində mühüm qovşaq rolu oynayan Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin vacib halqası kimi Çin üçün regionda ən təhlükəsiz və etibarlı tərəfdaş hesab olunur.

### Sülh memarı

Qlobal enerji böhranlarının yaşandığı bir dövrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əvəzolunmaz rol oynayır. "Cənub qaz dəhlizi" və "yaşıl enerji" layihələri Aİ ölkələrinin Bakıya olan marağını daha da artırıb. Avropa institutları Prezident İlham Əliyevin rəhbərliyində ölkəmizi etibarlı tərəfdaş kimi qəbul edir və bu qitə ilə Azərbaycan arasında enerji, logistika və digər sahələrdə sıx əməkdaşlıq davam edir.

Son illər Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində və ikitərəfli formatda Mərkəzi Asiya respublikaları ilə münasibətləri keyfiyyətcə yeni zirvəyə qalxıb. Xəzər üzərindən keçən Orta dəhlizin imkanlarının genişləndirilməsi türk dünyasının vahid güc mərkəzi kimi formalaşmasını sürətləndirir. Azərbaycan bu coğrafiyada birləşdirici bənd rolu oynayır.

Azərbaycanın çoxqütblü xarici siyasətinin mühüm istiqamətlərindən biri də Yaxın Şərq ölkələri ilə dinamik inkişaf edən əlaqələrdir. Ölkəmiz Yaxın Şərq regionunun aparıcı dövlətləri ilə qarşılıqlı hörmət və etimada söykənən dostluq münasibətlərini qoruyub saxlayır, regionda sülhün, sabitliyin və iqtisadi əməkdaşlığın tərəfdarı kimi çıxış edir.

Eyni zamanda Azərbaycanın Afrika ölkələrinə göstərdiyi ardıcıl dəstək dövlətimizin humanist xarici siyasətinin bariz nümunəsidir. Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə Bakının təşəbbüsü ilə Afrika qitəsinin bir çox ölkəsinə humanitar, tibbi və təhsil yardımlarının göstərilməsi, humanitar aksiyaların təşkili Azərbaycanın qlobal miqyasda həmrəylik və ədalət tərəfdarı olduğunu sübut edir. Bu gün Azərbaycan yalnız iqtisadi və enerji layihələri ilə deyil, həm də ehtiyacı olan regionlara uzatdığı dostluq və yardım əli ilə dünyada humanist liderlik imicini möhkəmləndirir.

Yürütdüyü uzaqgörən və uğurlu siyasət nəticəsində Azərbaycanı dünyanın nüfuzlu dövlətinə çevirən Prezident İlham Əliyevin liderlik portretini tamamlayan əsas xüsusiyyətlərdən biri də onun prinsipiallığı və verdiyi vədlərə sadiqliyidir. Beynəlxalq platformalarda səslənən "İlham Əliyevin sözü onun imzası qədər etibarlıdır" fikri illərlə sınanmış siyasi reallıqdır.

Məhz bu etimadın nəticəsidir ki, Azərbaycan bir-biri ilə ziddiyyətdə olan güclərin, müxtəlif münaqişə tərəflərinin dialoq aparması üçün neytral və təhlükəsiz məkan kimi seçilir. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə icra edərək suverenliyini tam bərpa etməsi, beynəlxalq hüququn aliliyini nümayiş etdirməklə yanaşı, regiona yeni sülh reallıqları gətirib. Beynəlxalq tədbirlərdə, sessiyalarda, forumlarda dünya liderlərinin, eləcə də beynəlxalq medianın diqqətinin Bakıya yönəlməsi Azərbaycan Prezidentinin qlobal miqyasda söz sahibi olmasının aydın təzahürüdür.

Göründüyü kimi, bu gün Azərbaycan şərqlə qərbin, şimalla cənubun kəsişdiyi strateji mərkəz olmaqla yanaşı, həm də qlobal dialoqun və sülhün təşviqçisidir. Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, praqmatik və uzaqgörən xarici siyasət ölkəmizi dünya güclərinin maraq dairəsinə daxil edib, onu etibarlı müttəfiqə çevirib. Müasir dünya nizamında ədalətə, səmimiyyətə və milli maraqlara söykənən bu siyasi kurs Azərbaycanın beynəlxalq müstəvidəki yüksək nüfuzunun və gələcək uğurlarının əsas zəmanətidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Gürcüstanın baş prokuroru Azərbaycanda işgüzar səfərdədir

**İyulun 29-da Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə Gürcüstanın baş prokuroru Giorgi Qvarakidzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**



Nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də məzarlarını ziyarət edib. Daha sonra qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri düzüblər.

Səfər çərçivəsində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevlə Gürcüstanın baş prokuroru Giorgi Qvarakidze arasında geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında formalaşmış yüksəksəviyyəli siyasi dialoq və strateji tərəfdaşlıq münasibətlərinin iki ölkə arasında əməkdaşlığın bütün istiqamətləri üzrə dinamik inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

Baş prokuror Kamran Əliyev Azərbaycan və gürcü xalqları arasında əsrlər boyu formalaşmış qarşılıqlı hörmətə və etimada əsaslanan dostluq və mehriban qonşuluq münasibətlərinin dövlətlərarası əməkdaşlığın bütün istiqamətlər üzrə uğurla inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Bundan başqa, prokurorluq orqanları arasında əməkdaşlığın cinayət mühakimə icraatının səmərəliliyinin artırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmin olunması və transmilli cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Görüş zamanı Azərbaycan Respublikası baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin cari ilin fevral ayında Tbilisiyə səfəri məmnunluqla xatırlanıb, həmin səfərin iki ölkənin prokurorluq orqanları arasında institusional əlaqələrin daha da möhkəmləndirilməsinə və çoxtərəfli hüquqi əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd olunub.

Tərəflər ikitərəfli hüquqi əməkdaşlığın gələcək inkişaf perspektivlərini müzakirə edib, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın müəyyən edilməsi, izlənilməsi, üzərinə həbs qoyulması və müsadirəsi, transmilli mütəşəkkil cinayətkarlıq, korrupsiya, kibercinayətkarlıq, terrorçuluğun maliyyələşdirilməsi, insan alveri və digər müasir cinayət təzahürlərinə qarşı mübarizə, habelə rəqəmsal texnologiyaların tətbiqi, prokurorluq əməkdaşlarının peşə hazırlığı və təcrübə mübadiləsi sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Giorgi Qvarakidze göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Gürcüstan Baş Prokurorluğunun Azərbaycan Respublikası Baş Prokurorluğu ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi önəm verdiyini, mövcud tərəfdaşlığın bundan sonra da dərinləşdirilməsi və birgə fəaliyyətin daha da genişləndirilməsi istiqamətində bütün zəruri səylərin davam etdiriləcəyini vurğulayıb.

Daha sonra nümayəndə heyəti Azərbaycan Respublikası Prokurorluğunun Tarix Muzeyi ilə tanış olub, prokurorluq orqanlarının yaranma tarixi, inkişaf mərhələləri, institusional islahatlar və müasir fəaliyyət istiqamətləri barədə ətraflı məlumatlandırılıb. Qonaqlara həmçinin, prokurorluq orqanlarında həyata keçirilən müasir idarəetmə, rəqəmsallaşma və beynəlxalq əməkdaşlıq istiqamətində görülən işlər barədə məlumat verilib.

Görüşdə Gürcüstanın Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Mayya Tabaqari iştirak edib.

Nümayəndə heyətinin səfəri davam edir.

***"Azərbaycan"***

# "GabalaFest" çərçivəsində ilk beynəlxalq incəsənət sərgisi açılıb

**"GabalaFest" çərçivəsində "Mədəniyyətlərin qovşağı" adlı ilk beynəlxalq incəsənət sərgisi keçirilib.**



AZƏRTAC xəbər verir ki, sərgi Azərbaycan, Çin, Almaniya, Macarıstan, Qazaxıstan, Koreya Respublikası, Rusiya, Türkiyə, Türkmənistan, Birləşmiş Krallıq və Özbəkistandan 30-dan çox tanınmış incəsənət ustasını bir araya gətirir. Layihə rəssamlıq, heykəltaraşlıq və fotoqrafiya vasitəsilə mədəniyyətlər, ənənələr və nəsillər arasında bədii dialoqu təşviq edir.

Ekspozisiyada dünyanın müxtəlif ölkələrindən tanınmış sənətkarların bədii ustalığı və mədəni dialoqu əks etdirən əsərləri təqdim olunur. Sərgidə sənətkarlar Akmal Nur, Alpısbay Kazqulov, Arif Əziz, Ayan Əziz Məmmədova, Ayləl Heydərova, Cavlon Umarbekov, Ceff Robb, Cəsar Məmmədov, Devid Beqbi, Elşad H. Əliyev, Jambul Natbayev, Jen Quansyu, Qəhriman Qoçmıradov, Leyla Əliyeva, Məzahir Rüstəmov, Nigar Bağırova, Ömər Eldarov, Rafael Əliyev, Refik Aziz, Rəşad Mehdiyev, Röya Həsən, Sakit Məmmədov, Səfrəndə Abdullayeva, Səmədağa Cəfərov, Şəhla Qəhrəmanlı, Tamaş Yanoş Molnar, Tolkın Tabısbek, Ülviyyə Həmzəyeva, Yonqmo Cunq, Yonq Vu Li, Yens Hesse və Yuristanbek Şıqayev iştirak edirlər.

Ekspozisiyanın diqqətçəkən əsərləri sırasında Azərbaycanın Xalq rəssamı Arif Əzizin ritmik kompozisiyaları xüsusi yer tutur. Onun yaradıcılığı Azərbaycan müasir təsviri sənətinin parlaq nümunələrindən biri hesab olunur və milli-mədəni irsi Qərb modernizminin estetikası ilə üzvi şəkildə birləşdirir.

Təbiət - sərginin əsas mövzularından biri Leyla Əliyevanın qara-ağ kompozisiyalarında diqqəti cəlb edir. Bu əsərlərdə qanadları eskizə bənzər motivlərlə işlənmiş nəfis arılar naxışlı yarpaqlar üzərində təsvir olunub. Yüksək dekorativliyi və zəngin ornamentləri ilə seçilən bu kompozisiyalar təbiətin gözəlliyini və kövrəkliyini poetik şəkildə əks etdirir.

Ekspozisiyada folklor və mifologiya motivləri də mühüm yer tutur. Qədim İpək yolunun mədəni irsindən ilhamlanan rəsm və heykəltaraşlıq əsərlərində təsvir olunan əfsanəvi qəhrəmanlar əsrlər boyu müxtəlif sivilizasiyaları birləşdirən ortaq hekayələri yaşadır. Sərgi yaradıcılıq prosesini tamaşaçıların da iştirak etdiyi təcrübəyə çevirən iki interaktiv instalyasiya ilə qalereya divarlarının hüdudlarını aşır.

Leyla Əliyevanın bədii dilindən ilham alan "Xromatik rezonans" instalyasiyasında ziyarətçilər böyükmiqyaslı birgə sənət əsərinin yaradılmasında iştirak edəcəklər. "Baxış ağacı" isə qonaqları öz ümidlərini, arzularını və planetimizin gələcəyi ilə bağlı düşüncələrini bölüşməyə dəvət edəcək və festival boyunca instalyasiyanın üzvi şəkildə formalaşmasına imkan yaradacaq.

Bədii proqram çərçivəsində Birləşmiş Krallıq, Azərbaycan, Özbəkistan və Rusiyadan olan beynəlxalq səviyyədə tanınmış sənətkarların rəhbərliyi ilə silsilə ustad dərsləri keçiriləcək.

Britaniyalı rəssamlar Mett Layon, Mr. Meana, Tessa Nyumark və Lüsi Smit müxtəlif kreativ ustad dərsləri təqdim edəcəklər.

"Nike" şirkəti ilə əməkdaşlığı, Ledi Qaqanın albom dizaynı və London metropoliteni üçün hazırladığı işlərlə tanınan illüstrator Mett Layon iştirakçıları özünəməxsus "doodle-art" üslubu ilə tanış edəcək.

Birləşmiş Krallığın aparıcı mural rəssamlarından biri olan Meana beynəlxalq brendlər, Premyer Liqa futbol klubları və Britaniya kral ailəsinin üzvləri ilə əməkdaşlığı ilə tanınır. O, festival çərçivəsində "street-art" laboratoriyası təşkil edəcək və qraffiti sənəti üzrə ustad dərsləri keçirəcək. Britaniyalı miniatür ustası Tessa Nyumark "Qutuda öz Qəbələ dünyanızı yaradın" adlı ustad dərslərinə rəhbərlik edəcək. Burada hər bir iştirakçı özünü və ailəsini əks etdirən miniatür dioramanı hazırlayaraq onu xatirə kimi özü ilə aparacaq.

Lüsi Smitin "Qəbələyə məktublar" adlı ustad dərslərində iştirakçılar Qəbələ mənzərələrindən ilhamlanan əl işi poçt kartları və markalar hazırlayacaqlar.

Rusiyalı rəssam Mariya və Aleksandra Suvorova bacıları isə festival qonaqları ilə birlikdə yaradılacaq "Millətlərin simaları" adlı canlı portret-xalçanı təqdim edəcəklər.

Beynəlxalq proqramla yanaşı, Azərbaycanın incəsənət ustaları keramika boyama studiyası, vitraj, ebru, gil modelləmə və qarışıq texnika üzrə silsilə ustad dərsləri keçirəcəklər.

Özbəkistanın Xalq rəssamı Cavlon Umarbekov həm uşaqlar, həm də böyüklər üçün mənzərə rəssamlığı üzrə ustad dərsləri təqdim edəcək.

Sərginin kuratoru britaniyalı incəsənət tarixçisi, yazıçı, aparıcı və modern, eləcə də müasir incəsənət üzrə ixtisaslaşmış kurator Rut Millinqtondur. Onun sənədli filmləri mütəmadi olaraq BBC-də nümayiş olunur. Rut Millinqton bildirib ki, diqqətəlayiq sənətkarlar tərəfindən yaradılmış rəsm, fotoqrafiya və heykəltaraşlıq əsərlərini Qəbələdə bir araya gətirən ilk beynəlxalq incəsənət sərgisinin kuratoru olmaq onun üçün böyük şərəfdir. Bu əsərlər birlikdə mədəniyyətlərin qovşağında formalaşan müxtəlif hekayələri danışır. O, ziyarətçilərin bu sərgidən ilham alaraq incəsənətin insanları birləşdirən böyük gücü barədə düşünəcəklərinə ümid etdiyini bildirib.

Sərgidə iştirak edən rəssamlar arasında Ayləl Heydərova da yer alır. Onun özünəməxsus yaradıcılığı Azərbaycanın təbiətindən və zəngin mədəni irsindən ilhamlanan atmosferik mənzərələrdə puantilizm və modernist təsirləri birləşdirir. Rəssam, eyni zamanda ekoloji təmiz materiallardan hazırlanmış rəngarəng kəpənək heykəlləri silsiləsini təqdim edir. Bu əsərlər həm bədii yenilikçiliyi, həm də ətraf mühitin qorunmasına həssas yanaşmanı əks etdirir.

Qeyd edək ki, Rut Millinqton incəsənət tarixçisi, kurator, aparıcı və MUSE ("Penguin"), "Bu kitab sizi rəssam edəcək" ("Nosy Crow") və "İncəsənət elmi" (DK) kitablarının müəllifidir. O, London Art Fair və Oksford İncəsənət Festivalının kuratoru olub, həmçinin BBC Radio 4 və Sky Arts üçün sənədli layihələr hazırlayıb və təqdim edib.

# XV Qəbələ Beynəlxalq Musiqi Festivalının açılışı olub

**İyulun 29-da Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə XV Qəbələ Beynəlxalq Musiqi Festivalının açılışı olub.**





AZƏRTAC xəbər verir ki, festivalın açılışı Azərbaycanın Xalq artisti Ramiz Məlik-Aslanovun dirijorluq etdiyi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestrinin konserti ilə baş tutub.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli tədbirdə çıxış edərək bildirib ki, artıq 15 ildir bu festival uğurla keçirilir. O deyib ki, bu müddət ərzində dünyanın müxtəlif ölkələrindən tanınmış solistlər, simfonik orkestrlər, xor kollektivləri, dirijorlar və digər ifaçılar Qəbələ səhnəsində çıxış ediblər.

Fərhad Bədəlbəyli vurğulayıb ki, festival çərçivəsində hər il müxtəlif musiqi janrlarını əhatə edən zəngin və maraqlı konsert proqramları təqdim olunur. Qəbələ Beynəlxalq Musiqi Festivalı bu illər ərzində dünyanın aparıcı musiqiçilərini bir araya gətirən nüfuzlu beynəlxalq mədəniyyət tədbirlərindən birinə çevrilib.

Musiqi gecəsində solistlər Əməkdar artist Elvin Hoca Qəniyev (violin), Aysun Mahmudzadə (soprano), Şəmistan Əliyev (klarnet) və Vaqif Qurbanovun (violonçel) ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənib.

Qəbələ Beynəlxalq Musiqi Festivalı ilə bağlı fikirlərini AZƏRTAC-la bölüşən **Milli Məclisin deputatı, parlamentin Mədəniyyət komitəsinin sədri Polad BÜLBÜLOĞLU** deyib ki, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Qəbələdə bu festivalın artıq 15-ci dəfə keçirilməsi mühüm hadisədir.

"Çox sevinirəm ki, festival illərdir davamlı şəkildə təşkil olunur və artıq gözəl bir ənənəyə çevrilib. Belə tədbirlərin yaşadılması və davam etdirilməsi böyük əhəmiyyət daşıyır. Bu festival xüsusilə gənc musiqiçilər üçün mühüm təcrübə və inkişaf platformasıdır. Onlar burada peşəkar təcrübə qazanır, öz istedadlarını nümayiş etdirmək imkanı əldə edir və beynəlxalq musiqi mühitinin bir parçasına çevrilirlər. İnanıram ki, bu ənənə gələcək illərdə də uğurla davam edəcək", - deyə o əlavə edib.

Xalq artisti, dirijor Ramiz Məlik-Aslanov bildirib ki, Qəbələ Beynəlxalq Musiqi Festivalına əvvəlki illərdə də qatılsa da, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestri ilə ilk dəfədir çıxış edir.

"Bu festivalda ilk dəfə öz orkestrimlə səhnəyə çıxmaq mənim üçün böyük qürurdur. Bakı Musiqi Akademiyasının böyük gələcəyinə inanıram. Orkestrimizdə çıxış edən gənclər bu gün çox həyəcanlı olsalar da, onların hər biri istedadlı və peşəkar inkişaf yolunda əzmlə çalışan musiqiçilərdir. Sevindirici haldır ki, gənclərin klassik musiqiyə marağı getdikcə artır. Bu gün nümayiş etdirdiyimiz proqramın arxasında uzun və zəhmətli hazırlıq prosesi dayanır. Biz bu festivala dörd il ərzində məqsədyönlü şəkildə hazırlaşmışıq və bu zəhmətin nəticəsini tamaşaçılar qarşısında təqdim etməkdən məmnunuq", - deyə Xalq artisti vurğulayıb.

Virtuoz skripka ifaçısı, Əməkdar artist Elvin Hoca Qəniyev isə bu festivalda ikinci dəfə iştirak etdiyini bildirərək deyib: "Bu musiqi festivalında təşkil olunan konsertlər yüksək peşəkarlıq səviyyəsi ilə seçilir. Belə bir tədbirdə yer almaq mənim üçün böyük qürur və xoşbəxtlikdir. Gənc musiqiçilərlə eyni səhnəni bölüşmək, onların həyəcanına və uğurlarına şahid olmaq mənə xüsusi sevinc bəxş edir. Onların hər biri çox istedadlıdır və gələcək üçün böyük potensiala malikdir. Düşünürəm ki, belə festivallar klassik musiqiyə və ümumilikdə incəsənətə marağın artmasına mühüm töhfə verir".

Violonçel ifaçısı, Bakı Musiqi Akademiyasının III kurs tələbəsi Vaqif Qurbanov isə bildirib ki, Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestrinin bu festivalda çıxış etməsi onlar üçün böyük qürur və sevincdir. O qeyd edib: "Tələbə Simfonik Orkestri mütəmadi olaraq müxtəlif tədbir və festivallarda iştirak edir ki, bu da gənc musiqiçilərin peşəkar inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Mən həm orkestrin tərkibində çıxış edir, həm də solo ifalarla səhnəyə çıxıram. Gənclərin klassik musiqiyə və ifaçılıq sənətinə marağı, sevgisi olduqca böyükdür. Belə festivallar isə bu marağın daha da artmasına və gənc istedadların özlərini göstərmələrinə geniş imkan yaradır".

Avqustun 3-dək davam edəcək festival zamanı Qəbələ şəhəri layihənin məqsədinə uyğun olaraq mədəniyyətlərarası dialoqun mühüm platformasına çevriləcək, müxtəlif ölkələrin, fərqli mədəniyyətlərin ən parlaq təmsilçiləri Azərbaycanın bu qədim bölgəsində bir araya gələcək.

Azərbaycanla yanaşı, musiqi bayramında Almaniya, Rusiya, Avstriya, Qazaxıstan, Moldova, Niderland, Özbəkistan və Vyetnamdan musiqiçilər və rəqqaslar iştirak edəcəklər.

# Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı türk dünyasının inteqrasiyasına mühüm töhfə verir

**Azərbaycan ilə Özbəkistan arasında münasibətlər son illərdə sürətlə inkişaf edərək müttəfiqlik səviyyəsinə yüksəlib. Ümumiyyətlə, Azərbaycan və Mərkəzi Asiya ölkələri ortaq tarixə, mədəniyyətə, dini-mənəvi dəyərlərə və geosiyasi maraqlara malik vahid strateji məkanı formalaşdırırlar. Bu baxımdan Xəzər dənizi bu ölkələri birləşdirən mühüm strateji körpü rolunu oynayır.**



**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan regionun bütün dövlətləri ilə, xüsusilə də Özbəkistanla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verir. Son illərdə dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivləşməsi, yüksəksəviyyəli siyasi dialoq və imzalanan çoxsaylı sənədlər münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini təsdiqləyir. "Prezident Şavkat Mirziyoyev ilə olan qarşılıqlı etimad və dostluq münasibətləri də bu əməkdaşlığın uğurlu inkişafında mühüm rol oynayır. Azərbaycan və Özbəkistan təkcə ikitərəfli münasibətləri deyil, həm də Türk Dövlətləri Təşkilatı, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda əməkdaşlığı uğurla inkişaf etdirirlər. İqtisadi əməkdaşlıq da yüksələn xətt üzrə davam edir. Ticarət dövriyyəsinin artması, qarşılıqlı investisiyalar, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin yaradılması, Xankəndidə birgə tikiş fabrikinin fəaliyyətə başlaması və Orta dəhliz çərçivəsində nəqliyyat-logistika imkanlarının genişlənməsi iqtisadi tərəfdaşlığın əsas göstəricilərindəndir", - deyə deputat bildirib.

Energetika sahəsində də əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu deyən P.Vəliyeva qeyd edib ki, SOCAR ilə Özbəkistanın müvafiq qurumları arasında uzunmüddətli əməkdaşlıq davam edir, eyni zamanda "yaşıl enerji" layihələri üzrə Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında imzalanmış sazişlər regionun enerji təhlükəsizliyinə və bərpaolunan enerji imkanlarının inkişafına mühüm töhfə verir. Mədəni-humanitar əməkdaşlıq iki qardaş xalq arasında münasibətlərin ən mühüm sütunlarından biri olaraq qalır. Qarşılıqlı mədəniyyət günlərinin təşkili, şəhərlərin qardaşlaşması, media və qeyri-hökumət təşkilatları forumlarının keçirilməsi, həmçinin təhsil və idman sahəsində həyata keçirilən layihələr xalqlar arasında dostluq münasibətlərini daha da möhkəmləndirir. Özbəkistanın Qarabağın bərpasına verdiyi dəstək, xüsusilə Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəbin inşa edilməsi qardaş ölkənin Azərbaycana səmimi münasibətinin və həmrəyliyinin bariz nümunəsidir.

Deputat vurğulayıb ki, Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq təkcə iki ölkənin deyil, bütövlükdə türk dünyasının inteqrasiyasına, regional sabitliyə və iqtisadi inkişafa mühüm töhfə verir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# "Əvvəllər qəbul olunan inkişaf planlarına yeni geosiyasi reallıqlar nəzərə alınmaqla düzəlişlər edilir"

**Yaxın Şərqdə gərginliyin getdikcə artması Avrasiya məkanında nəqliyyat-logistika marşrutlarının əhəmiyyətinə birbaşa təsir göstərir. Bu şəraitdə Orta dəhliz, yaxud Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu qlobal təchizat zəncirləri baxımından ən təhlükəsiz marşrutlardan birinə çevrilir. Məhz buna görə də bu dəhlizin strateji əhəmiyyəti gündən-günə artır və əvvəllər qəbul edilmiş inkişaf planlarına da yeni geosiyasi reallıqlar nəzərə alınmaqla düzəlişlər edilir.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **qazaxıstanlı ekspert Maqbat SPANOV** deyib.

Ekspert bildirib ki, Orta dəhliz üzrə yükdaşımaların dinamikası marşrutun artan əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

"2016-cı ildə bu marşrutla daşınan yüklərin ümumi həcmi cəmi 122 min ton təşkil edirdi. Sonrakı illərdə isə bu göstərici kəskin artaraq 1,6 milyon tona, sonra isə 4 milyon tona yüksəlib. Qarşıdakı dörd il ərzində bu həcmin daha üç dəfə artırılması planlaşdırılır. Bu faktlar göstərir ki, Orta dəhlizin əhəmiyyəti gələcəkdə daha da artacaq. Marşrutun inkişafına əsas maneələrdən biri Xəzər dənizi üzərində daşımaların mövcud imkanlarıdır. Bu gün marşrutun ən həssas hissəsi məhz Xəzərdir. Dəniz daşımalarının fasiləsiz təşkili üçün ilk növbədə bərə, tanker və digər yük gəmilərinin sayının artırılmasına ehtiyac var. Hazırkı imkanlar Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında, oradan isə Avropa istiqamətində yük axınının tam fasiləsiz təmin olunması üçün hələ kifayət etmir. Buna görə də dəniz nəqliyyatının gücləndirilməsi əsas prioritetlərdən biri hesab olunmalıdır", - deyə ekspert qeyd edib.

M.Spanov bildirib ki, son dövrlərdə yaranmış geosiyasi vəziyyət marşrutun təhlükəsizliyi məsələsini də ön plana çıxarıb. Regionda davam edən hərbi qarşıdurmalar göstərir ki, nəqliyyat dəhlizlərinin təhlükəsizliyi yalnız logistika məsələsi deyil. Bu marşrutun müxtəlif risklərdən qorunması və mümkün insidentlərin qarşısının alınması üçün təhlükəsizlik mexanizmlərinin də gücləndirilməsi vacibdir. Azərbaycan, Qazaxıstan və digər Mərkəzi Asiya ölkələrinin Orta dəhlizdə fəal iştirakı marşrutun iqtisadi səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bunun üçün konteynerlərin yalnız bir istiqamətdə deyil, hər iki istiqamətdə yüklə təmin edilməsi vacibdir. Əgər marşrut Çin istiqamətindən tam yüklə işləyib geriyə boş qayıdarsa, onun iqtisadi səmərəliliyi azalacaq. Əksinə, hər iki istiqamətdə yük axınının təmin olunması daşımaların maya dəyərini aşağı salacaq və marşrutun rəqabət qabiliyyətini artıracaq.

O qeyd edib ki, Mərkəzi Asiya ölkələri iqtisadiyyatlarını yalnız xammal ixracına əsaslanan modeldən uzaqlaşdırmağa çalışırlar və bu baxımdan logistikanın inkişafı xüsusi əhəmiyyət kəsb edir. Orta dəhlizin inkişafı müxtəlif texnologiyaların tətbiqinə, yeni logistika həllərinin formalaşdırılmasına imkan yaradır. Bununla yanaşı, marşrut boyunca təkcə logistika mərkəzləri və nəqliyyat infrastrukturu deyil, sənaye müəssisələri, kənd təsərrüfatı istehsalı və digər iqtisadi fəaliyyət sahələri də inkişaf edə bilər. Bu isə bütövlükdə regionun iqtisadi potensialını artıracaq.

"Orta dəhlizin inkişafı yalnız iqtisadi baxımdan deyil, siyasi və təhlükəsizlik aspektindən də mühüm əhəmiyyət daşıyır. Bu marşrutun inkişafı ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsinə, dövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət edir. Nəticə etibarilə bütün bunlar regionda sabitliyin və təhlükəsizliyin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək", - deyə Maqbat Spanov əlavə edib.

# "Yaxın gələcəkdə rəqabət təkcə ölkələr arasında deyil, logistika dəhlizləri arasında da gedəcək"

**Orta dəhliz qlobal təchizat zəncirlərinin yenidən formalaşdığı, geoiqtisadi rəqabətin sürətləndiyi və dövlətlərin etibarlı tərəfdaşlar axtardığı dövrün ən mühüm strateji layihələrindən biridir. Rusiya-Ukrayna müharibəsi, Qırmızı dəniz və Hörmüz boğazında yaranan təhlükəsizlik problemləri, eləcə də qlobal təchizat zəncirlərindəki qırılmalar dəhlizi alternativ marşrutdan strateji zərurətə çevirir. Bu prosesdə Azərbaycan təkcə tranzit ölkə deyil, həm də Orta dəhlizin əsas sütununu təşkil edən strateji logistika aktorudur. Xəzər dənizinin qərb sahilində yerləşməsi, müasir liman infrastrukturu, dəmir yolu layihələri və regional əməkdaşlıq sayəsində Azərbaycan Asiya ilə Avropa arasında fasiləsiz nəqliyyat əlaqələrini təmin edən əsas mərkəzlərdən birinə çevrilib.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **İstinye Universitetinin İqtisadiyyat, İdarəetmə və Sosial Elmlər Fakültəsinin dekanı, iqtisadçı-ekspert Figen YILDIRIM** söyləyib.

Türkiyə ilə Azərbaycanın bir-birini tamamlayan iki strateji tərəfdaş olduğunu deyən F.Yıldırım bildirib ki, Azərbaycan Xəzər keçidinin təhlükəsiz və səmərəli idarə olunmasını təmin etdiyi halda Türkiyə Avropa, Aralıq dənizi və Yaxın Şərq bazarlarına açılan təbii qapı rolunu oynayır. Buna görə də Orta dəhlizi hər iki ölkənin birgə formalaşdırdığı geoiqtisadi inteqrasiya dəhlizi kimi qiymətləndirmək daha doğru olar.

"Hazırda şirkətlər artıq yalnız aşağı xərcli istehsal mərkəzləri axtarmırlar. Onlar eyni zamanda etibarlı, siyasi baxımdan sabit və logistika baxımından fasiləsiz fəaliyyət göstərə bilən regionlara üstünlük verirlər. Məhz buna görə də qlobal ticarətdə istehsalın yaxın ölkələrə köçürülməsi (nearshoring), etibarlı tərəfdaş ölkələrə yönəldilməsi (friend-shoring) və dayanıqlı təchizat zəncirlərinin (resilient supply chain) formalaşdırılması yanaşmaları sürətlə genişlənir. Məhz bu baxımdan Türkiyə və Azərbaycan birlikdə Avrasiyanın yeni, təhlükəsiz istehsal və logistika ekosistemini formalaşdırmaq potensialına malik ən güclü namizədlərdəndir. Türkiyə güclü sənaye infrastrukturu, istehsal potensialı və Avropa bazarına yaxınlığı ilə alternativ istehsal və logistika mərkəzi olmaq imkanına malikdir. Azərbaycan isə enerji ehtiyatları, nəqliyyat infrastrukturu və Xəzər keçidindəki strateji üstünlüyü ilə bu sistemin ayrılmaz tamamlayıcısıdır", - deyə dekan əlavə edib.

Onun fikrincə, Orta dəhlizin ən böyük potensialı yalnız konteyner daşımalarının həcmini artırmaqdan ibarət deyil. Əsas məqsəd dəhliz boyunca yüksək əlavə dəyər yaradan sənaye zonalarının, logistika mərkəzlərinin, azad ticarət zonalarının, texnologiya klasterlərinin və regional dəyər zəncirlərinin formalaşdırılmasıdır. Dəhliz boyunca istehsal və investisiya fəallığının artması təkcə daşımalardan əldə olunan gəlirləri deyil, həm də məşğulluğu, texnologiya transferini və regional inkişafı sürətləndirəcək.

"Bu məsələnin brendləşmə aspektini də diqqətdən kənarda saxlamaq olmaz. Müasir dövrdə ölkələr yalnız məhsullarını deyil, logistika etibarlılığını, investisiya mühitini və təchizat zəncirinin səmərəliliyini də brendə çevirirlər. Necə ki, Sinqapur və Niderland qlobal logistika brendlərinə çevrilib, Türkiyə və Azərbaycan da Orta dəhliz sayəsində Avrasiyanın etibarlı ticarət tərəfdaşı və logistika brendi olmaq üçün mühüm üstünlüklərə malikdir. Xüsusilə Türkiyənin uzun illərdir irəli sürdüyü alternativ logistika mərkəzi konsepsiyası ilə Azərbaycanın nəqliyyat infrastrukturuna yönəltdiyi investisiyalar bir-birini tamamlayır. Bu sinergiya nəticəsində Orta dəhliz təkcə Avropa ilə Asiya arasında keçid marşrutu deyil, həm də istehsalın, investisiyanın, texnologiyanın və ticarətin qovuşduğu yeni iqtisadi oxa çevrilə bilər", - deyə iqtisadçı vurğulayıb.

F.Yıldırımın sözlərinə görə, Orta dəhlizin uğuru yalnız yükdaşımaların müddətinin qısalması ilə ölçülməyəcək. Bu layihə Türkiyə və Azərbaycanın birlikdə Avrasiyanın təhlükəsiz iqtisadi məkanı, alternativ logistika mərkəzi, regional istehsal bazası və etibarlı təchizat zənciri tərəfdaşı kimi mövqeyini gücləndirəcək strateji transformasiya layihəsidir.

"Mən hesab edirəm ki, yaxın gələcəkdə rəqabət təkcə ölkələr arasında deyil, logistika dəhlizləri arasında da gedəcək. Buna görə də Türkiyə ilə Azərbaycanın ortaq baxışı yalnız yeni nəqliyyat marşrutu qurmaqdan ibarət olmamalı, eyni zamanda Avrasiyanın ən güclü geoiqtisadi brendini formalaşdırmağa yönəlməlidir. Bu yanaşma hər iki ölkənin iqtisadi inkişafına töhfə verməklə yanaşı, regional sabitliyi və qlobal ticarətin dayanıqlılığını da gücləndirəcək", - deyə o, fikrini yekunlaşdırıb.

# Mərakeş-Azərbaycan tərəfdaşlığı Afrika ölkələri üçün nümunədir

**Aralıq dənizi ilə Atlantik okeanının qovuşduğu strateji coğrafiyada yerləşən Mərakeş minilliklər boyunca müxtəlif sivilizasiyaların kəsişmə nöqtəsi olmuş zəngin bir mədəniyyət beşiyidir. Uzun əsrlər barbar kökləri üzərində formalaşan, daha sonra ərəb, Əndəlüs və Afrika təsirləri ilə cilalanan bu diyar yalnız özünəməxsus memarlığı, qədim medinaları - qədim tarixi şəhər mərkəzləri və təkrarolunmaz folkoru ilə deyil, həm də kontraslarla dolu təbiəti ilə insanı valeh edir.**



Atlas dağlarının əzəmətli zirvələrindən səhranın sonsuz qum təpələrinə qədər uzanan bu coğrafiyanın ən füsunkar incisi isə onun zümrüd rəngli sahil sularıdır. Okeanın çılğın dalğaları ilə dənizin sakit, mülayim ab-havasının qovuşduğu min kilometrlərlə uzanıb gedən sahil xətti həm zəngin dəniz ekosisteminə, həm də təbiətin min bir çalarında parıldayan əsrarəngiz çimərliklər və qayalıqlarla göz oxşayır. Bu sahillər əsrlərdir ki, dənizçilərin, səyyahların və tədqiqatçıların ilham mənbəyinə çevrilmişdir.

Bu gün müasir Mərakeş iqtisadi tərəqqi və dinc yanaşı yaşamaq yolunda qətiyyətlə irəliləyir. Tale bu xalqın üzünə gülmüş və ona strateji bir məkan bəxş etmişdir. Mərakeş Krallığının xarici siyasəti həm geostrateji mövqeyi (Afrika, ərəb dünyası və Avropanın kəsişməsində yerləşməsi), həm də milli təhlükəsizlik prioritetləri ilə formalaşan çoxşaxəli və praqmatik bir xəttə malikdir. Kral VI Məhəmmədin hakimiyyəti dövründə Mərakeş özünün xarici siyasət kursunda daha fəal, müstəqil və şaxələndirilmiş diplomatik strategiyaya keçid etmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, ərazi bütövlüyü və Qərbi Səhra məsələsi Mərakeş xarici siyasət xəttinin mütləq və dəyişməz prioritetidir. Təsadüfi deyil ki, Krallığın bütün xarici əlaqələri bu məsələyə münasibət prizmasından qiymətləndirilir. Rəsmi Rabat 2007-ci ildən bəri Qərbi Səhra münaqişəsinin həlli üçün Mərakeş suverenliyi çərçivəsində geniş muxtariyyət təklif edir. ABŞ (2020-ci ildə), İspaniya, Fransa, İsrail və bir çox ərəb-Afrika dövləti Mərakeşin Qərbi Səhra üzərindəki suverenliyini və ya onun muxtariyyət planını rəsmən dəstəkləyib.

Mərakeş son illərdə xarici siyasətinin ağırlıq mərkəzini Böyük Səhradan cənubdakı ölkələrə tərəf yönəldib. "Cənub-Cənub əməkdaşlığı" konsepsiyası çərçivəsində Mərakeş bankları, telekommunikasiya və gübrə şirkətləri Afrika qitəsinin aparıcı investorlarına çevrilib. Mərakeş-Nigeriya Trans-Afrika Qaz Kəməri layihəsi regionun enerji xəritəsini dəyişdirməyə yönəlmiş ən iddialı geoiqtisadi təşəbbüslərdən birinə çevrilib.

Mərakeş Avropa İttifaqı üçün Şimali Afrikada ən mühüm tərəfdaşdır. O, həm də ABŞ-nin NATO-dan kənar əsas müttəfiqlərindən biridir. 2020-ci ildə ABŞ-nin vasitəçiliyi ilə Mərakeş İsrail ilə diplomatik əlaqələrini bərpa edib. Bunun qarşılığında ABŞ Mərakeşin Qərbi Səhra üzərindəki suverenliyini tanıyıb. Hazırda Səudiyyə Ərəbistanı, BƏƏ və Qətər kimi ərəb monarxiyaları ilə ənənəvi olaraq çox yaxın siyasi, maliyyə və təhlükəsizlik əlaqələri saxlanılır. Mərakeş Braziliya, Hindistan və digər inkişaf etməkdə olan ölkələrlə ticarətin həcmini davamlı olaraq artırır. Çinin "Bir Kəmər, bir yol" təşəbbüsünə inteqrasiya olunaraq investisiyalar cəlb edir. Həmçinin Rusiya ilə kənd təsərrüfatı və balıqçılıq sahələrində ticarət əlaqələrini inkişaf etdirir.

Mərakeş iqtisadiyyatının 2025-2026-cı illərdə infrastrukturun inkişafı, rekord səviyyəli turizm və bərpaolunan kənd təsərrüfatı sektoru tərəfindən dəstəklənərək illik 4,6 faiz ilə 5,0 faiz arasında sabit şəkildə böyüməsi proqnozlaşdırılır. Ölkənin mədəni və tarixi irsi, Atlantik və Aralıq dənizi sahilləri və Böyük Səhraya yaxınlığı iqlim və ekskursiya turizmini əsas gəlir mənbələrindən birinə çevirir. 2026-cı ilin yanvar-iyun aylarında Mərakeşə 9,4 milyon turist gəlib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 6 faiz artım deməkdir.

Ölkədə aqrar sahədə bir sıra irəliləyişlər müşahidə olunur. 2026-cı ildə yağan qış yağışları əvvəlki illərin quraq dövrlərindən sonra məhsuldarlığın bərpa olunmasını təmin edib. Bəzi kənd təsərrüfatı məhsullarında artım qeydə alınıb. Hazırda xarici ticarətin şaxələndirilməsi, o cümlədən dövlətin aqrar-sənaye sektorundakı mövqeyinin möhkəmləndirilməsi davam edir. Sahil düzənliklərinin münbit torpaqları sitrus meyvələri, zeytun və dənli bitkilərin becərilməsinə imkan verir.

2026-cı ildə Mərakeşin rəsmi qızıl ehtiyatı təxminən 22,1 ton olmuşdur. Bu göstərici ilə Mərakeş qızıl ehtiyatlarının həcminə görə dünyada 67-ci sıradadır. Cari ilin ortalarına olan rəsmi məlumata görə, Mərakeşin valyuta ehtiyatları 48-54,6 milyard dollar civarında qeydə alınaraq tarixi zirvəyə çatmışdır.

Mərakeş fosfat ehtiyatlarına görə dünyada (70 faizdən çox) lider ölkədir və gübrə istehsalı üçün fəal şəkildə ixrac olunur. Ölkə ərazisi yeraltı sərvətlərlə, həmçinin əlvan və nadir metallarla (kobalt, manqan, mis, sink və qurğuşun) zəngindir. Mərakeşin aparıcı sənaye sahəsi dağ-mədən sənayesidir.

Mərakeş Krallığı Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 30-da tanıyıb. 1992-ci il avqustun 28-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. O dövrdən başlayaraq davamlı surətdə inkişaf edən siyasi münasibətlər 2025-2026-cı illərdə keyfiyyətcə yeni, strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. İki ölkə arasında əlaqələr 2024-cü ildən başlanan vizasız rejim, hərbi sazişlər və qarşılıqlı yüksəksəviyyəli səfərlər fonunda ciddi dinamika qazanıb.

Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında münasibətlərin qurulduğu dövrdən etibarən siyasi, iqtisadi, mədəni, sosial və digər sahələrdə əməkdaşlığı tənzimləyən 100-dən çox sənəd imzalanmışdır. Bu sənədlər sırasına ikiqat vergitutmanın aradan qaldırılması, təhlükəsizlik və cinayətkarlığa qarşı mübarizə, dəmir yolları və dənizçilik sahəsində əməkdaşlıq, eləcə də ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında sazişlər daxildir.

Siyasi dialoq iki ölkənin dövlət başçılarının qarşılıqlı hörmətə və bir-birinin suverenliyi ilə ərazi bütövlüyünə verdiyi prinsipial dəstəyə əsaslanır. İkitərəfli əlaqələr xüsusilə siyasi sahədə uğurla inkişaf edir. Bu əlaqələr Azərbaycan Prezidenti İlham Əliyevin və Mərakeş Kralı VI Məhəmmədin əməkdaşlığa dair aydın strateji baxışlarına, qarşılıqlı hörmətə, etimada və bir-birinin suverenliyinə və ərazi bütövlüyünə prinsipial dəstəyə əsaslanır.

2025-ci ilin mayında şahzadə Ləlla Həsnənin Bakıya səfəri mühüm hadisə oldu, bu səfər zamanı mədəni və təhsil əməkdaşlığı məsələləri müzakirə edildi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüş keçirildi. Tərəflər həmçinin beynəlxalq təşkilatlar, xüsusilə BMT, İƏT, Qoşulmama Hərəkatı çərçivəsində parlamentlərarası dialoqu fəal şəkildə davam etdirirlər.

2025-ci il yanvarın 10-da Prezident İlham Əliyev Azərbaycan və Mərakeş arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında sazişi təsdiqlədi. Bu saziş iki ölkənin hökuməti arasında 2024-cü il oktyabrın 30-da imzalanıb və müdafiə sahəsində əlaqələrin gücləndirilməsi üçün təməl yaradıb.

İki ölkənin parlamentləri arasında əlaqələr yüksək səviyyədə inkişaf mərhələsinə qədəm qoyub. 2026-cı il iyunun 22-də Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Mərakeş Krallığı Nümayəndələr Palatası Sədrinin müavini Mohamed Qayat ilə görüşüb. Hazırda hər iki ölkənin qanunverici orqanında fəaliyyət göstərən dostluq qrupları münasibətlərin inkişafında körpü rolunu oynayır. Cari ildə iki ölkə parlamentləri arasında imzalanmış Anlaşma Memorandumu da əlaqələri daha da dərinləşdirmək üçün əlverişli imkanlar yaradır.

Bu il yanvarın 28-də Bakıda Azərbaycan və Mərakeş xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin dördüncü raundu keçirilib. Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi-ticarət, enerji, nəqliyyat, turizm, təhsil, idman və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və gələcək əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

İkitərəfli iqtisadi gündəliyin əsas idarəedici qurumu Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyasıdır. İqtisadi əməkdaşlığın ən perspektivli istiqamətləri energetika (ənənəvi və bərpaolunan enerji daxil olmaqla), ticarət və investisiyalar, nəqliyyat və logistika, həmçinin kənd təsərrüfatı, turizm və mədəni-humanitar sahələrdir. Komissiyanın qərarlarına uyğun olaraq, son illər ərzində neft-kimya sənayesi məhsullarının ticarəti və bərpaolunan enerji texnologiyaları sahəsində əməkdaşlıq fəaliyyətləri davam etdirilir.

Azərbaycan Mərakeşi Şimali və Qərbi Afrikaya çıxış üçün mühüm tərəfdaş hesab edir. Mərakeş isə Azərbaycanı Xəzər və Mərkəzi Asiya regionuna giriş qapısı kimi dəyərləndirir. Son zamanlar nəqliyyat və logistika sahəsində Birgə Komissiya çərçivəsində müvafiq sənədlər imzalanıb. Azərbaycan Orta dəhlizi (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) fəal inkişaf etdirir, bu xətt üzrə daşımaların həcmi hər il artır. Mərakeşin müasir limanları (ilk növbədə Tancar-Med) ilə qlobal logistika zəncirlərində mühüm halqa ola bilər, burada Azərbaycan Avropa ilə Asiya arasında etibarlı körpü rolunu oynayır.

AZPROMO və Mərakeşin AMDIE Agentliyi, eləcə də KOBİA arasında qurulan əlaqələr iki ölkənin kiçik və orta sahibkarları arasında birbaşa ticarət əməliyyatlarını asanlaşdırır. İki ölkə arasında ticarət və biznes missiyalarının gediş-gəlişini sürətləndirən qarşılıqlı viza azadlığı müqaviləsi ticari əlaqələrin şaxələndirilməsinə birbaşa təkan verib. 2026-cı ilin əvvəlindən iki ölkə "İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" yeni saziş layihəsi üzərində işləri intensivləşdirib. Ticari əməliyyatları asanlaşdırmaq üçün ikiqat vergitutmanın aradan qaldırılmasına dair konvensiyanın tətbiqi mexanizmləri gücləndirilib.

Azərbaycan və Mərakeş arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq institusional tərəfdaşlıq və təcrübə mübadiləsi səviyyəsindədir. Hər iki ölkə bərpaolunan enerji keçidi üzrə öz regionlarının liderləri hesab olunur və bu istiqamətdə hüquqi baza formalaşdırılıb. Hazırda tərəflər arasında Azərbaycan Respublikası Energetika Nazirliyi vasitəsilə energetika sahəsində rəsmi saziş fəaliyyət göstərir. Bu sənəd bərpaolunan enerji sahəsində layihələrin icrası üçün hüquqi zəmin yaradır.

2024-cü il avqustun 28-dən etibarən adi pasport sahibləri üçün tətbiq edilən 90 günlük vizasız rejim iki ölkə arasında turizm və biznes gediş-gəlişini kəskin şəkildə artırıb. Bu vaxtdan etibarən azərbaycanlıların Mərakeşə turist axınında 90 faizdən çox artım qeydə alınıb. 2025-ci ilin fevral ayından etibarən Mərakeş Milli Turizm Ofisi və Türk Hava Yollarının dəstəyi ilə Azərbaycanın aparıcı turagentlikləri vasitəsilə Mərakeşə turlar və tanıtım səfərləri əhəmiyyətli dərəcədə intensivləşib. 2025-2026-cı illərdə turizm şirkətlərinin marağı artmış, 40-dan çox Mərakeş turizm qurumu Azərbaycana turpaketlər təqdim etməyə başlamışdır. Vizasız rejim 2025-2026-cı illərdə qarşılıqlı turist axınının yüksəlməsinə təkan verib. Azərbaycan zəngin mədəni və təbii irsi, müasir kurortları (o cümlədən xizək və Xəzər kurortları), müalicə turizmi imkanları ilə tanış olmağı təklif edir. Mərakeş isə tarixi şəhərləri, Atlantik və Aralıq dənizi çimərlikləri, səhra macəraları və yüksək xidmət səviyyəsi ilə məşhurdur.

Sonda qeyd edək ki, Avrasiya iqtisadi əlaqələrində körpü rolu oynayan Azərbaycan böyük gələcəyə malik Afrika qitəsinə ciddi maraq göstərir. Bu sahədə Afrikada körpü rolunu oynayan, nüfuz və söz sahiblərindən biri olan dost Mərakeşlə əməkdaşlığın şaxələndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

***Atamoğlan MƏMMƏDLİ, BDU-nun dosenti***

# Ermənilərin çirkli kapitalı ilə muzdlu lobbiçilik fəaliyyəti davam edir

## Vardanyan və ailəsi tərəfindən idarə olunan fondlar xarici siyasi institutlara milyonlarla dollar vəsait sızdırır

**Azərbaycanın suveren ərazilərində onilliklər ərzində qanunsuz separatçı rejimə rəhbərlik etmiş, regionda maraqlarının təmini üsulu kimi münaqişəli vəziyyətlərə üstünlük verən güclərin marioneti kimi dəstəklənən həmin cinayətkar strukturların fəaliyyətini transsərhəd maliyyə mexanizmləri vasitəsilə təmin etmiş, sülh və insanlıq əleyhinə, eləcə də hərbi cinayətlər törətməkdə təqsirləndirilən Ruben Vardanyan və onunla birgə məsuliyyətə cəlb olunmuş digər şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ədalət mühakiməsinin həyata keçirilməsi beynəlxalq hüququn təməl imperativlərindən - "jus cogens" normalarının və cəzasızlığa qarşı mübarizə prinsiplərinin imperativ təzahürüdür.**



Bu fonda bəzi Qərb siyasi institutlarının, o cümlədən Avropa Parlamentinin hüquqi legitimlikdən məhrum qətnamələrinin, Amerika Birləşmiş Ştatları Senatının Xarici Əlaqələr Komitəsindəki neoimperialist dinləmələrin və geostrateji sifarişləri icra edən "analitik mərkəz"lərin bu cinayət prosesi ətrafında formalaşdırdığı dezinformasiya kampaniyaları isə hüquqi reallığı təhrif etmək məqsədi güdür.

Milli Məclisin deputatı **Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, beynəlxalq hüquq mühitini siyasi alətə çevirmək cəhdləri, əslində, transmilli cinayətkar şəbəkələrə və terrorçuluğun maliyyələşdirilməsi mexanizmlərinə dolayısı ilə bəraət qazandırmaq deməkdir. Milli cinayət qanunvericiliyinin və beynəlxalq cinayət hüququnun təməl dayaqları ilk növbədə fərdi cinayət məsuliyyəti prinsipi ilə bilavasitə bağlıdır. "Azərbaycanın cinayət qanunvericiliyi şəxsin etnik mənsubiyyətinə, milli mənşəyinə və ya özünü qondarma hərbi-siyasi strukturların tərkibində necə identifikasiya etməsinə baxmayaraq, sırf hüquqazidd əməlin tərkib əlamətlərini əsas götürür. Ruben Vardanyan və digər təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamlar Cinayət Məcəlləsinin terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma və dövlət sərhədini qanunsuz keçmə maddələrinin dispozisiyasında təsbit edilmiş maddiləşmiş cinayət tərkiblərinə əsaslanır. Eyni zamanda bu çərçivədə həyata keçirilən ədalət mühakiməsi fərdin milli mənsubiyyətini deyil, ictimai təhlükə törədən qəsd və nəticələrini mühakimə edir. Belə bir şəraitdə etnik mənsubiyyəti siyasi sipər kimi istifadə edərək bu şəxsləri hüquqi məsuliyyətdən yayındırmaq cəhdləri hüququn aliliyi prinsipinə qarşı yönəlmiş aşkar hüquqi nihilizmdir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, universal beynəlxalq hüquqi aktlar hərbi cinayətkarların və terrorçuluğu maliyyələşdirənlərin mühakimə olunmasını suveren dövlətlərin imperativ öhdəliyi kimi müəyyən edir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində təsbit olunmuş suverenlik və ərazi bütövlüyü prinsipləri, Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə haqqında 1999-cu il Beynəlxalq Konvensiyasının 2-ci və 8-ci maddələri, habelə Mülki əhalinin mühafizəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarının təməl müddəaları dövlətlər üzərinə "ya təslim et, ya mühakimə et" prinsipi çərçivəsində universal yurisdiksiyanı tətbiq etmək öhdəliyi qoyur. Azərbaycanın ümumtanınmış Qarabağ bölgəsində mülki əhaliyə və dövlət infrastrukturuna qarşı törədilmiş kütləvi hücumlar, mülki şəxslərin həyatına qəsd edən mina terroru və qanunsuz silahlı birləşmələrin maddi-texniki təchizatı, heç şübhəsiz ki, beynəlxalq humanitar hüququn kobud pozuntusudur. Urbisid, kultrasid və ekosid dəhşətləri ilə müşayiət olunan bu əməlləri "siyasi fəaliyyət" və ya "etnik liderlik" kimi qələmə vermək isə beynəlxalq hüquq nizamını kökündən sarsıdır.

B.Məhərrəmov bildirib ki, Cinayət-Prosessual Məcəlləsinin imperativ tələblərinə və 1966-cı il Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 14-cü maddəsinə, habelə 1950-ci il İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsində təsbit olunmuş "ədalətli məhkəmə araşdırması hüququ" standartlarına tam riayət olunmaqla, ilk gündən təqsirləndirilən şəxslərin prosessual hüquqları istisnasız şəkildə təmin edilir: "İstintaqın bütün mərhələlərində tərəflərin bərabərliyi və çəkişmə prinsiplərinə uyğun olaraq, təqsirləndirilən şəxslər öz seçimləri və ya dövlət hesabına peşəkar müdafiəçilər və anladıqları dildə prosesdə iştirak etmələri üçün ixtisaslaşmış tərcüməçilərlə təmin olunublar. Məhkəmə prosesinin şəffaflığı, prosessual müddətlərin gözlənilməsi və sübutların toplanması zamanı qanunçuluq prinsipi Azərbaycanın ədalət mühakiməsində yüksək prosessual mədəniyyətini və beynəlxalq öhdəliklərə sadiqliyi və hörmətini bir daha sübut etməkdədir. Lakin bir sıra dairələrin bunu görməzdən gəlməyə çalışması təəssüf doğurmaqla bərabər, əsl reallıqları, əslində, ifşa edir".

Deputat diqqətə çatdırıb ki, beynəlxalq jurnalist tədqiqatları, xüsusilə "Troika Laundromat" - Troyka Çirkli Pulların Yuyulması elə Qərb dairələrinin mənbə kimi istinad etməyi sevdikləri qlobal araşdırma sənədləri ilə Ruben Vardanyanın illər boyu ofşor zonalar və qeyri-şəffaf bank əməliyyatları vasitəsilə milyardlarla dollar həcmində çirkli vəsaitlərin yuyulmasını təşkil etdiyi sübut olunub. Həmin qanunsuz kapital hesabına Avropanın və Şimali Amerikanın siyasi elitası, beyin mərkəzləri, lobbiçi strukturlar və transmilli media şəbəkələri sistematik şəkildə maliyyələşdirilib, bu gün də bu cinayətkar fəaliyyət davam etməkdə, Vardanyan və onun ailəsi tərəfindən idarə olunan fondlar vasitəsilə aparıcı xarici siyasi institutlara milyonlarla dollar vəsait sızdırılmaqdadır. Yəni bu mənada, dünyanın bəzi qanunverici orqanlarında təmsil olunan deputatların və konqresmenlərin qərəzli davranışı onların suveren siyasi iradəsindən deyil, erməni çirkli kapitalı tərəfindən satın alınmış muzdlu lobbiçilik fəaliyyətindən xəbər verir. Üstəlik, Avropa Şurasında, Avropa Parlamentində və müxtəlif Qərb parlamentlərində korrupsiya qalmaqalları ilə ifşa olunmuş şəxslərin təcrübəsi göstərir ki, Vardanyanla bağlı davam edən cinayət istintaqı çərçivəsində də yeni ofşor əməliyyatları və korrupsiya mexanizmləri üzə çıxmaqdadır. Qərbdə aktivlik göstərən müəyyən dairələrin bu gün nümayiş etdirdiyi aqressiv ritorikanın və Azərbaycana təzyiq cəhdlərinin kökündə məhz bu cinayət-hüquqi təqibin onların öz ifşasına gətirib çıxaracağı təşvişi dayanır.

B.Məhərrəmov qeyd edib ki, xarici təsisatların və qərəzli institutların sistemli hücumları mahiyyət etibarilə regionun gələcəyi ilə bağlı deyil: "Şübhəsiz ki, onların əsas strateji məqsədi 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiteror tədbirlərində hərbi-siyasi zəfərləri və qətiyyətlə öz suverenliyini tam bərpa etmiş, Cənubi Qafqazın şəksiz geosiyasi liderinə çevrilmiş Azərbaycanın artan gücü qarşısında süni maneələr yaratmaqdır. İllərlə "dondurulmuş münaqişə" mexanizmindən istifadə edərək regionda geostrateji silah kimi istifadə olunan separatizm ideologiyası və separatçı rejim ləğv edildikdən sonra artıq xarici güclərin təsir rıçaqları əllərindən çıxmışdır. Yəni bu gün israrla, lakin uğursuzluqla istinad edilən humanitar ritorika və insan hüquqları konsepsiyası, əslində, həmin xarici dairələrin əlində, sadəcə, geostrateji təzyiq vasitəsidir, lakin Azərbaycan dövlətinin müstəqil xarici siyasət kursu və cənab İlham Əliyevin birmənalı şəkildə xalqın dəstəyinə arxalanması ölkəmizə bu cür təhdidləri neytrallaşdırmaq gücü və imkanı verir. Bu mənada, cari mürəkkəb siyasi-hüquqi konseptual situasiyada Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipial, sarsılmaz siyasi iradə xüsusi hüquqi və siyasi qiymətə, həlledici əhəmiyyətə malikdir. Cinayətkarların cəzalandırılması, əslində, beynəlxalq institutların susqunluğu və ikili standartları nəticəsində iflasa uğramış beynəlxalq hüquq nizamının yenidən bərpasının praktik və konseptual təminidir. Prezident İlham Əliyev sülh və insanlıq əleyhinə ağır cinayətlər törətmiş şəxsləri cəzasızlıq mühitindən məhrum etməklə, universal bəşəri dəyərlərin, BMT Nizamnaməsinin imperativ prinsiplərinin və beynəlxalq ədalətin bərqərar olunmasına tarixin heç bir dövründə heç bir liderə müyəssər olmayan qədər misilsiz xidmət göstərir".

Deputat vurğulayıb ki, həyata keçirilən ədalət mühakiməsi Azərbaycanın qazandığı hərbi-siyasi zəfərin yalnız Qarabağ və Şərqi Zəngəzurda işğala son qoymaqla ərazi bütövlüyünün təmin edilməsi və ölkəmizin suverenliyinin bərqərar olunması ilə bitmədiyini, həm də beynəlxalq insan hüquqları arxitekturasında yeni bir mərhələnin əsasını qoyduğunu nümayiş etdirir. Arxasında böyük dövlətlərin və transmilli mərkəzlərin dayandığı separatçı marionet fiqurların Azərbaycan qanunları və milli məhkəmələrimiz qarşısında cavab verməsinə nail olunması İkinci Dünya müharibəsindən sonrakı dövrdə qlobal miqyasda cəzasızlıq mühitinə vurulmuş ən öldürücü zərbədir. Çoxsaylı maneələrə və əngəl yaratmaq cəhdlərinə baxmayaraq, Prezident İlham Əliyevin qətiyyəti nəticəsində təmin edilən bu hüquq məsuliyyəti bəşəriyyət üçün ciddi təhdid olan separatizm və terrorçuluq cinayətləri başda olmaqla, bütün növ bəşəri təhdidlərin cavabsız qalmayacağını real formul əsasında bütün dünyaya göstərdi. "Müasir dövrdə artıq köklü şəkildə dəyişmiş yeni qlobal siyasi konfiqurasiya bərqərar olub və bu reallıq beynəlxalq münasibətlər sistemində fərqli yanaşmalar tələb edir. Yeni geostrateji arxitekturada böyük güclərin, ayrı-ayrı dövlətlərin qanunverici orqanlarının və analitik beyin mərkəzlərinin diqqəti kvazi qüvvələrin, qanunsuz birləşmələrin, o cümlədən separatçıların və terrorçuların müdafiəsinə, yaxud cəzasızlıq mühitinin təşviqinə deyil, formalaşan yeni reallıqlar çərçivəsində daha təhlükəsiz dünyaya və regional sabitliyə yönəltmələri vacibdir. Əgər beynəlxalq təsisatlar və xarici dövlətlər bu bölgədə, doğrudan da, insan hüquqlarının müdafiəsində və bəşəri ideallların təminində səmimidirlərsə, öz fəaliyyətlərini qondarma ittihamlara deyil, real insan haqları amilinə yönəltməlidirlər. Bu kontekstdə ən böyük insan haqları hadisəsi 30 ildən artıq bir dövrdə doğma yurd-yuvalarından didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünün Böyük qayıdış çərçivəsində öz dədə-baba torpaqlarına təhlükəsiz qayıdışına dəstək verməkdən, eləcə də işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi və bərpası kimi nəhəng humanitar missiyalara töhfə verməkdən hesab edilə bilər", - deyə o bildirib.

Deputat deyib ki, bu baxımdan, hərbi cinayətkarların və terrorçuluğu maliyyələşdirənlərin mühakimə olunması təkcə Azərbaycanın suveren yurisdiksiyası daxilindəki daxili hüquq məsələsi deyil, regionda davamlı sülhün və təhlükəsizliyin yeganə hüquqi zəmanətidir. Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə icra edərək beynəlxalq hüquqi nizamı bərpa etdiyi kimi, öz ərazisində ağır cinayətlər törətmiş şəxsləri şəffaf, qərəzsiz, hüquq bərabərliyi şəraitində və ədalətli məhkəmə müstəvisində mühakimə etməklə hüququn aliliyini təmin edir. Qərəzli siyasi bəyanatlar və kənar təzyiq cəhdləri Azərbaycan dövlətinin güc və imkanlarından, yeni konfiqurasiyanın şəriksiz memarı və bölgədə sülh və təhlükəsizliyin tək qarantı olan Prezident İlham Əliyevin qətiyyətinə, xalqımızın isə suveren hüquqlarına söykənən bu ədaləti bərqərar etmək hadisəsini dayandırmaq gücündə deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qlobal güc balansını artıq texnologiya müəyyən edir

**Dünya siyasəti böyük bir dəyişiklik mərhələsindən keçir. Əsrlər boyu millətlər arasında güc nisbətini hərbi alyanslar, ordu sayı və geniş coğrafi ərazilər müəyyən edirdi. Klassik realizm nəzəriyyəsinə görə, dövlətlər öz təhlükəsizliyini qorumaq üçün hərbi tarazlıq yaratmağa çalışırdılar. XIX əsrin diplomatiyasında və ya XX əsrin soyuq müharibə dövründə əsas məqsəd rəqiblərlə hərbi bərabərliyi saxlamaq idi. Lakin XXI əsrdə bu klassik yanaşma artıq öz əhəmiyyətini itirir. Hazırda beynəlxalq aləmdə təsir imkanlarını müəyyən edən əsas amil texnoloji üstünlükdür.**

Dördüncü Sənaye İnqilabı qlobal geosiyasi mənzərəni sürətlə yenidən formalaşdırır. Müasir dövrdə dövlətlərin gücü artıq texnoloji innovasiyaları mənimsəmə və tətbiq etmə qabiliyyəti ilə ölçülür. Şübhəsiz ki, hərbi qüdrət hələ də öz aktuallığını qoruyur. Lakin hərbi texnologiyaların özü də artıq rəqəmsal sistemdən, süni intellektdən və yarımkeçiricilərdən birbaşa asılı vəziyyətə düşüb.

Tarixə nəzər salsaq, texnoloji yeniliklərin güc balansını dəfələrlə dəyişdiyini görərik. Birinci Dünya Müharibəsində avtomat silahlar və tanklar istifadə olunduqdan sonra səngər müharibəsi öz təsirini itirdi. Böyük Britaniya və Almaniyanın sənayesi bu silahların kütləvi istehsalını təmin etdi və nəticədə müharibənin taleyini müttəfiqlərin lehinə həll etdi. Eynilə, XX əsrin ortalarında nüvə silahının kəşfi qlobal balansı kəskin şəkildə dəyişdi. Atom bombasının kəşfi və ardından başlayan soyuq müharibə dövründəki texnologiya yarışı supergüclər arasında strateji çəkindirmə mühiti yaratdı. 1980-ci illərin sonunda SSRİ-nin iqtisadi və texnoloji baxımdan sürətli inkişafa cavab verə bilməməsi ikiqütblü sistemin çökməsi ilə nəticələndi.

Bu gün isə tam fərqli bir rəqəmsal dövrünü yaşayırıq. Əvvəllər yenilikləri əsasən dövlətlər və hərbi sahə idarə edirdisə, indi innovasiyalar daha çox özəl şirkətlərin və beynəlxalq elmi əməkdaşlıqların əlində toplanıb. Nəticədə, günümüzün geosiyasi mübarizəsini üç əsas texnologiya sahəsi müəyyənləşdirir. Birinci mühüm sahə, süni intellekt iqtisadiyyatı böyütməklə yanaşı, hərbi, maliyyə və siyasi müstəvidə də əsas söz sahibi olmağa imkan verir. Proseslərin gedişini təhlil etmək və gələcək meyilləri əvvəlcədən görmək dövlətlərə böyük güc qazandırır. Ehtimallara görə, 2030-cu ilə qədər süni intellektin qlobal iqtisadiyyata gətirəcəyi gəlirin 70 faizə yaxını Çin və Şimali Amerikanın payına düşəcək. İkinci mühüm sahə mikroçiplərdir ki, onlar süni intellektin və müasir rəqəmsal sistemlərin təməlini təşkil edir. Ən qabaqcıl çiplərin 90 faizindən çoxunu Tayvanın "TSMC" şirkəti istehsal edir. Bu səbəbdən Tayvan ətrafında yarana biləcək hər hansı bir gərginlik bütün dünya iqtisadiyyatını və tədarük şəbəkəsini dərhal iflic edə bilər. Üçüncü əsas amil olan yüksəksürətli 5G texnologiyası isə "ağıllı şəhər"lər, kibertəhlükəsizlik və hərbi əlaqə üçün mühüm əhəmiyyət daşıyır. Ekspertlərin fikrincə, 2030-cu ilə qədər 5G qlobal iqtisadiyyata yüzlərlə milyard dollar qazandıracaq və hazırda bu aləmdə liderlik uğrunda kəskin rəqabət gedir.

Yaxın keçmişdə texnologiya bütün dünyanı birləşdirən bir vasitə kimi görülürdü. Bu gün isə texnoloji aləm dəqiq sərhədlərlə iki əsas hissəyə bölünür. Bir tərəfdən Qərb tərəfdaşları süni intellekt, çip istehsalı, vacib xammal və hesablama sistemlərini yalnız "etibarlı müttəfiqlər" arasında bölüşməyə çalışır. Bu zaman texnologiyaya çıxış əldə etmək üçün siyasi baxışların uyğun gəlməsi əsas şərtdir. Digər tərəfdən, Şərqdə yaradılan beynəlxalq qurumlar vasitəsilə Pekin öz rəqəmsal sistemini və qaydalarını başqa ölkələrə təklif edərək tərəfdaşlarını öz ətrafında toplayır. Eynilə keçmişdə olduğu kimi, bu gün də tərəflər arasında yeni bir sınaq ortaya çıxır: "Məlumatlarınız harada saxlanılır və süni intellekt sistemləriniz kimin qaydaları ilə işləyir?"... Bu cür bölünmə dövlətlər üçün başqalarından asılı olmaq riski yaradır. Çünki istifadə olunan rəqəmsal platformalar və proqramlar informasiya axınını və insanların dünyanı necə görməsini idarə edən mühüm sistemdir.

Müasir rəqəmsal qütbləşmə keçmişin sərt siyasi sərhədlərindən mahiyyətcə fərqlənir. Bu sistem daha elastik və çevikdir. Bir çox orta güclü dövlətlər hər iki texnoloji cəbhə ilə ticarət və əməkdaşlığı saxlamağa çalışır. Əgər keçmişdə ikiqütblü dünyada tam kənarda durmaq mümkün idisə, hazırda "rəqəmsal müstəqillik" anlayışı ön plana çıxır. Rəqəmsal müstəqillik nədir? Bu, hər iki tərəflə texnoloji münasibətlər qurmaq, lakin öz məlumatlarını, proqramlarını və sistemlərini sərbəst idarə etmək bacarığıdır. Dövlətlər hər hansı bir bloka kor-koranə qoşulmaq əvəzinə, öz rəqəmsal strategiyalarını inkişaf etdirməlidirlər. Yerli dil modellərinin yaradılması, milli məlumat mərkəzlərinin tikilməsi və kibertəhlükəsizliyin gücləndirilməsi müstəqilliyin əsas zəmanətinə çevrilir. Xarici texnologiyalardan tam imtina etmək mümkün olmasa da, vacib sahələrdə yerli imkanları artırmaq və müstəqil qərar vermək gücünü qorumaq mümkündür.

Sözsüz ki, texnoloji inkişaf bir an belə dayanmır. Ölkələrin yeni texnologiyaları mənimsəmə sürəti onların dünyadakı mövqeyini birbaşa müəyyən edir. Qlobal güc balansını artıq torpaq sahəsi və ya əhali sayı deyil, innovasiya mühiti və rəqəmsal dayanıqlıq müəyyənləşdirir. Deməli, rəqəmsal dövrün tələblərinə uyğunlaşa bilməyən, xarici texnologiyalardan asılılığı azaltmayan və öz rəqəmsal müstəqilliyini qorumayan dövlətlər zəifləməyə məhkumdur. Çünki günümüzün geosiyasi reallığında tək bir qanun işləyir: sürətlə dəyişən rəqəmsal dünyada yerində saymaq geriləmək deməkdir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# "Xeyriyyəçi" maskası altında törədilən transmilli cinayətlər

## Ruben Vardanyanın qanunsuz fəaliyyətini və qaranlıq maliyyə şəbəkəsini ifşa edən yeni faktlar üzə çıxır

**Azərbaycanın ərazi bütövlüyü, suverenliyi əleyhinə əməllərdə və müharibə cinayətlərində ittiham olunaraq 20 il müddətinə azadlıqdan məhrum edilmiş Ruben Vardanyanın adı növbəti dəfə beynəlxalq maliyyə qalmaqallarında hallanır. Beynəlxalq jurnalist araşdırmalarına görə, onun "xeyriyyəçi" və "iş adamı" maskası altında həyata keçirdiyi çirkin əməliyyatların coğrafiyası yalnız Cənubi Qafqazla məhdudlaşmır.**

Adı uzun illərdir müxtəlif beynəlxalq araşdırmalarda transmilli pul yuyulması cinayətləri ilə yanaşı çəkilən Vardanyanın rəhbərlik etdiyi "Troika Dialoq" investisiya bankı təxminən 75 ofşor şirkətdən ibarət qanunsuz maliyyə mexanizminin mərkəzində dayanır. Araşdırmalar göstərir ki, 2006-2013-cü illərdə bu şəbəkə vasitəsilə 4,6 milyard ABŞ dolları həcmində şübhəli vəsait müxtəlif ölkələrə köçürülüb.

Vardanyanın ofşor fəaliyyəti ilə bağlı ortaya çıxan sonuncu ciddi faktlardan biri "Digimarket" şirkəti ilə bağlıdır. Məlumata görə, 2013-cü ildə Moskvada "DoubleTree by Hilton" hoteli üçün 35 milyon dollar kredit ayrılıb. Borcun ödənilməməsi səbəbindən məsələ məhkəmə müstəvisinə keçib və 2026-cı ilin əvvəllərində Rusiya Ali Məhkəməsi vəsaitlərin xaricə çıxarılmasına qadağa qoyub. Hazırda bu hüquqi proses davam etməkdədir. Araşdırmalar bu şirkətin R.Vardanyana məxsus olduğunu üzə çıxarıb. Diqqətçəkən məqam odur ki, Vardanyanın qurduğu mürəkkəb şəbəkə, sadəcə, vergidən yayınmayıb, eyni zamanda müxtəlif korrupsioner elitaların çirkli vəsaitlərinin "yuyulması" və beynəlxalq sanksiyalardan gizlədilməsi fəaliyyətini də icra edib. Şübhəli maliyyə axınlarının Avropanın aparıcı bank institutları üzərindən keçirilməsi Vardanyanın illərlə beynəlxalq maliyyə sisteminin boşluqlarından sui-istifadə etdiyini göstərir.

Maliyyə fırıldaqçılığı ilə kifayətlənməyən Vardanyan 2022-2023-cü illərdə Qarabağ bölgəsinə gələrək qanunsuz separatçı rejimdə yüksək vəzifə tutub və Azərbaycan dövlətinə, xalqına qarşı ağır cinayətlər törədib. İstintaq materialları ilə təsdiqlənib ki, Vardanyan öz nəzarətindəki maliyyə resursları hesabına separatçı birləşmələri silah, rabitə və logistik dəstəklə təmin edib. Bu terrorçu dəstələr Azərbaycan Ordusuna qarşı təxribatlar törədib, mülki əhalinin təhlükəsizliyini birbaşa təhdid ediblər. Yaşayış məntəqələri və mülki obyektlər məhz Vardanyanın təşviqi ilə döyüş mövqelərinə və silah anbarlarına çevrilib. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Eyni zamanda bölgədə mina terrorunun davam etdirilməsi nəticəsində azərbaycanlı mülki şəxslər həlak olub və ya ağır xəsarətlər alıblar.

Vardanyan Azərbaycana məxsus ərazilərin təbii sərvətlərinin, xüsusilə faydalı qazıntı yataqlarının qanunsuz istismarını təşkil edərək dövlətə böyük iqtisadi zərərlər vurub və bölgədə ekoloji fəlakət riskini artırıb. Xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden



yataqlarının talan edilməsi, sərvətlərin qanunsuz yollarla xaricə daşınması məhz Vardanyanın nəzarəti altında həyata keçirilib. Bölgənin flora və faunasına bərpaolunmaz zərər vuran bu ekoloji terror və talançılıq Azərbaycan ictimaiyyətinin haqlı etirazına səbəb olub. 2022-ci ilin dekabrında qeyri-hökumət təşkilatlarının nümayəndələri Xankəndi-Laçın yolunda aksiya təşkil ediblər. Bununla yanaşı, Vardanyan informasiya manipulyasiyası vasitəsilə etnik qarşıdurmanı qızışdıran bəyanatlar verərək, azərbaycanlıların doğma torpaqlarına qayıdış prosesini əngəlləməyə çalışıb.

Bütün bu faktlara rəğmən, bəzi Qərb strukturları, ermənipərəst siyasi dairələr hələ də onun həbsini "qanunsuz" adlandırır, azad edilməsi tələbini irəli sürür, "siyasi motivlər" iddiası ilə sistemli kampaniya aparırlar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin imkanlarından istifadə etməyə çalışan strukturlar, Avropa Parlamentinin bir sıra ermənipərəst deputatları və müxtəlif erməni diaspor təşkilatları (ANCA - Amerikadakı Erməni Milli Komitəsi) Vardanyanla bağlı bəyanatlar səsləndirirlər. Bəzi Qərb media qurumları, xüsusilə Fransanın bir sıra aparıcı nəşrləri və beynəlxalq hüquq müdafiəçiləri onu "xeyriyyəçi" kimi təqdim edərək həbsinə siyasi rəng qatmağa cəhd göstərirlər.

Qərbdə korrupsiya fırıldaqlarına qarşı mübarizədən dəm vuran dairələrin transmilli cinayətlərdə adı hallanan Vardanyanı "humanist" kimi təqdim etməsi ikili standartların aşkar nümunəsidir. Çünki bənzər cinayət əməllərinə görə Avropa və Amerika məhkəmələri ağır cəzalar kəsdiyi halda, söhbət Azərbaycanın suverenliyini pozan, terroru maliyyələşdirən cinayətkardan gedəndə həmin dairələr hüququn üstünlüyünü unudaraq "insan hüquqları" pərdəsi arxasında gizlənirlər. Lakin ortaya çıxan təkzibedilməz faktlar Vardanyanın həm beynəlxalq miqyasda maliyyə cinayətlərinin, həm də Azərbaycan ərazilərində törədilən ağır hərbi-siyasi cinayətlərin əsas təşkilatçılarından biri olduğunu aydın şəkildə göstərir.

Vardanyanı müdafiə edən xarici dairələrin əsas məqsədi Azərbaycanın suveren hüquqlarına kölgə salmaq, Cənubi Qafqazda sülh prosesini ləngitməkdir. Onlar Vardanyanın simasında özlərinin bölgədəki pozucu maraqlarını qorumağa çalışırlar.

Təbii ki, hansısa qərəzli beynəlxalq qurumun, ermənipərəst siyasətçilərin Ruben Vardanyanı müdafiə etməsi və ya onun azadlığını tələb etməsi mövcud reallıqları dəyişmir. Vardanyan Azərbaycan dövlətinə və xalqına qarşı ağır cinayətlərdə birbaşa iştirak edib, separatçılığı və terroru maliyyələşdirib. Buna görə də Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq Bakıda layiq olduğu cəzasını çəkir.

Beynəlxalq havadarların təzyiq və ya təbliğat kampaniyasından asılı olmayaraq, Azərbaycan dövləti öz ərazisində törədilən heç bir cinayəti cavabsız qoymayıb və bundan sonra da qoymayacaq. Vardanyan barəsində verilmiş hökm isə təkcə bir cinayətkarın cəzalandırılması yox, Cənubi Qafqazda separatçılıq və maliyyə terrorçuluğu dövrünə vurulan möhür idi.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



2026 Şəhərsalma və Memarlıq İli



**Müasir dövrdə şəhərsalma siyasəti hər bir dövlətin sosial-iqtisadi inkişafını müəyyən edən əsas sahələrdən biri hesab olunur. Dünyada urbanizasiya prosesinin sürətlənməsi, əhalinin meqapolislərdə sıx məskunlaşması və ekoloji problemlərin artması şəhərlərin planlı şəkildə inkişaf etdirilməsini daha vacib edir. Bu baxımdan müasir şəhərsalma artıq insanların rahat yaşayışının təmin olunması, ekoloji təhlükəsizliyin qorunması, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tarixi-mədəni irsin yaşadılması kimi mühüm istiqamətləri əhatə edir.**

# Zəngin irsdən texnoloji gələcəyə

## Müasirlik və tarixi yaddaş Azərbaycan memarlığının təməl prinsipidir

Azərbaycan da son illər şəhərsalma sahəsində mühüm uğurlar əldə edən ölkələr sırasında yer alır. Yurdumuzun müxtəlif bölgələrində həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işləri müasir inkişaf modelinin formalaşdırılmasına xidmət edir. Yeni yolların, körpülərin və tunellərin tikilməsi, park və bulvarların, xiyabanların salınması, yaşayış komplekslərinin və sosial obyektlərin inşası şəhərlərin simasını tamamilə dəyişib. Xüsusilə Bakıda həyata keçirilən yenidənqurma layihələri Azərbaycanın müasir şəhər modelinə keçidinin nümunəsi hesab olunur. Bununla yanaşı, regionlarda da aparılan abadlıq işləri ölkənin hərtərəfli inkişaf strategiyasının tərkib hissəsinə çevrilir.



2026-cı il Azərbaycanın şəhərsalma tarixində yeni bir dövrün başlanğıcıdır. Məlumdur ki, Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə Azərbaycanda 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Bu qərar ölkənin çoxəsrlik memarlıq irsinin qorunması, müasir urbanizm standartlarının tətbiqi və işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işlərinin beynəlxalq miqyasda tanıdılması məqsədini daşıyır. Sərəncamda oxuyuruq: "Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir". UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və Orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlardır.

Bu il Bakının daha bir böyük BMT platformasına - Ümumdünya Şəhərsalma Forumunun 13-cu Sessiyasına (WUF13) yüksək səviyyədə evsahibliyi etməsi isə ölkəmizin beynəlxalq nüfuzunun bariz göstəricisi oldu. Açılış mərasimində Prezident İlham Əliyevin proqram xarakterli nitqi tədbirin ideoloji strukturları idi. Tədbirdə Azərbaycan torpaqlarında qədim yaşayış məskənləri, memarlıq məktəbləri və urbanizasiya ənənələrindən geniş danışıldı, bunların təkcə region üçün deyil, bütövlükdə dünya sivilizasiyasının inkişafında mühüm əhəmiyyət kəsb edildiyi bildirildi. Naxçıvan, Şamaxı, Gəncə, Şəki, Qəbələ kimi şəhərlərin Azərbaycan xalqının əsrlər boyu formalaşdırdığı şəhərsalma mədəniyyətinin canlı nümunələri olduğu qeyd edildi.

Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu tarixi irsə xüsusi diqqət çəkərək vurğuladı ki, yurdumuzun qədim şəhərləri memarlıq və şəhərsalma ənənələrinin bu günədək qorunub saxlandığı nadir məkanlardandır: "Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib. Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda qorunaraq bu günədək saxlanılıb... Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik".







### Üç dövrün memarlıq harmoniyası: Bakının şəhərsalma mədəniyyəti

Əsrlər boyu "Xəzərin mirvarisi" adlandırılan Bakı, sadəcə, coğrafi mövqeyi ilə deyil, həm də daşların dilində danışan zəngin tarixi irsi ilə Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu nadir qlobal mərkəzlərdən biridir. Bu gün Azərbaycan paytaxtı bir tərəfdən İçərişəhərin qədim qala divarlarının pıçıltısını qoruyub saxlayır, digər tərəfdən intibah dövrünü yaşayan müasir memarlığı və irimiqyaslı urbanizasiya layihələri ilə gələcəyin böyük, əsrarəngiz məkanına çevrilir.

Paytaxtımızın heyranlıq doğuran şəhərsalma mədəniyyəti birdən-birə formalaşmayıb. Onun arxitekturası fərqli imperiyaların, iqtisadi sıçrayışların və sənət cərəyanlarının təsiri ilə üç əsas tarixi mərhələdə formalaşmış, bir-birini inkar etməyən, əksinə, tamamlayan möhtəşəm bir harmoniya yaratmışdır: İçərişəhər (Orta əsrlər), Neft bumu: Avropa modernizmi, müasir Bakı: futuristik üslub.

Bakının şəhərsalma mədəniyyətinin ürəyi UNESCO-nun Dünya İrsi Siyahısında yer alan İçərişəhərdir. Orta əsrlərə aid bu qapalı qala sistemi sırf müdafiə məqsədilə və Bakının amansız xəzri küləklərinin sürətini kəsmək üçün dar, dolanbac küçələr şəklində layihələndirilmişdir. Kompleksin tacı olan qədim Qız qalası və əzəmətli Şirvanşahlar sarayı şəhərin intibah dövrünün memarlıq yetkinliyini nümayiş etdirir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakıda yaşanan sənaye sıçrayışı şəhəri qala divarlarından kənara çıxardı. Mütəxəssislər bu dövrü ilk neft bumu və "Qafqazın Parisi" adlandırırlar. Qərb kapitalları ilə birlikdə şəhərə Avropanın aparıcı memarları - İosif Qoslavski, İosif Ploşko və Kazimir Skureviç gəldilər. Onlar Bakının milli memarlıq ənənələrini qotika, barokko və modern üslubları ilə sintez edərək əvəzsiz şah əsərlər yaratdılar. Bu gün Bakının mərkəzini bəzəyən "İsmailiyyə" sarayı, Səadət sarayı, Tarix muzeyi və Bakı Şəhər İcra Hakimiyyətinin binası məhz həmin dövrün möhtəşəm tikililəridir.

Sovet dönəmində Bakı geniş prospektlər, Hökumət Evi kimi monumental klassik tikililərlə zənginləşdi. Memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynov Şərq ornamentlərini sovet konstruktivizminə ustalıqla daxil etdilər.

Müstəqillik illərində isə Bakı öz simasını tamamilə yeniləyərək dünya memarlığının mərkəzlərindən birinə çevrildi. Ən məşhur qadın memar Zaha Hadidin füsunkar xətlərlə layihələndirdiyi Heydər Əliyev Mərkəzi dünyada modernizmin ən yaxşı nümunələrindən biri sayılır. Şəhərin üzərində ucalan və onun sönməz enerjisini simvolizə edən "Alov qüllələri" (Flame Towers) isə Bakının qədim "odlar yurdu" adını müasir postmodern formalarla gələcəyə daşıyır.

### Xəzərin qoynunda ucalan şəhər

Bakının şəhərsalma mədəniyyətini Xəzər dənizindən və onun incisi sayılan Dənizkənarı bulvardan ayrı təsəvvür etmək mümkün deyil. Bu məkanın memarlıq planlaşdırılması əsrlər boyu dəniz dalğalarının ritminə və sahildən gələn küləklərin xarakterinə uyğun amfiteatr üslubunda formalaşmışdır: Xəzər dənizi, Dənizkənarı bulvar (Yaşıl Qurşaq), amfiteatr planlaşdırması (ilk və orta cərgə binalar).

Bakının relyefi təbii bir teatr zalını xatırladır. Şəhərsalma mütəxəssisləri bu relyefdən istifadə edərək binaları dəniz sahili boyu pilləli şəkildə ucaltmışlar. Bunu dənizə açılan pəncərə adlandırmışlar. Bu xüsusi planlaşdırma sayəsində şəhərin yuxarı hissələrində yerləşən binalardan belə Xəzər dənizini maneəsiz görmək mümkündür. Məkanda külək balansı da qorunur. Sahil xəttinin və küçələrin xüsusi həndəsi quruluşu həm dəniz havasının şəhərin daxilinə doğru hərəkət etməsinə şərait yaradır, həm də Bakının sərt şimal küləklərinin sürətini azaldır.

1909-cu ildə mühəndis Məmmədhəsən Hacınskinin rəhbərliyi ilə təməli qoyulan Dənizkənarı bulvar, sadəcə, bir gəzinti zonası deyildi, Bakı şəhərsalma arxitekturasının əsas tənzimləyici oxudur. Bulvar daş binalar ilə mavi Xəzər arasında nəhəng bir yaşıl bufer zonası rolunu oynayır. Sahil xətti boyunca ucalan Hökumət Evi, tarixi Dövlət Kukla Teatrı, modernist Beynəlxalq Muğam Mərkəzi və qeyri-adi xalça formasında tikilmiş Azərbaycan Milli Xalça Muzeyi dəniz mənzərəsi ilə vəhdət təşkil edir.

"Şəhərsalma və Memarlıq İli"ndə Ağ Şəhər bulvarı və Bayıl sahəsini birləşdirən yeni sahil xətti, Bakının qədim sənaye zonalarını modern və ekoloji cəhətdən təmiz istirahət məkanlarına çevirmək strategiyasının bariz nümunəsidir. Bu yeni hissə Bakının dənizlə olan unikal bağını tam əks etdirir.

Bu gün Azərbaycan modelinin əsas xüsusiyyəti tarixi irsin qorunması ilə müasir infrastrukturun yaradılması arasında balansın təmin olunmasıdır. Bu həm də Azərbaycanın şəhərsalma fəlsəfəsinin əsas mahiyyətini təşkil edir. Əslində, belə yanaşma son onilliklərdə dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimindəki çıxışında urbanistlər, memarlar və dövlət idarəçiləri üçün ən mühüm tapşırıq inkişaf metodologiyasındakı həssas balansla bağlı oldu. Dövlətimizin başçısı şəhərlərin böyümə tempini tənzimləyərkən cəsarətli, həmçinin ehtiyatlı yanaşma prinsipini irəli sürdü: "Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq". Bu, müasir urbanizasiyanın gətirdiyi rəqəmsal innovasiyalar qəbul edərkən milli-mədəni kimliyin mühafizə dayağıdır.

Cəsarət rəqəmsal idarəetmə, "ağıllı" texnologiyalar və mikromobilliyin infrastruktura sürətlə inteqrasiyasını tələb edir. Ehtiyat isə şəhərlərin tarixi nüvəsinin, memarlıq irsinin "tikinti bumu" qarşısında qorunmasıdır. Prezidentin çıxışında bu xüsusda Bakı "Formula-1" yarışı ilə bağlı müqayisəsi, əslində, müasir urbanizasiya siyasətinin fəlsəfəsini ifadə edirdi. Yəni inkişaf sürətli olmalıdır, lakin bu proses tarixi irsin məhv edilməsi hesabına baş verməməlidir. Azərbaycan modeli də məhz bu prinsipə əsaslanır. Burada həm müasirlik, həm milli kimlik, həm texnoloji yenilik, həm də tarixi yaddaş birlikdə qorunur. Bakının Şərq və Qərb memarlığının nadir sintezini özündə birləşdirdiyini qeyd edən Prezident bu məsələ ilə bağlı çıxışlarında daim milli irsin gələcək nəsillərə qüsursuz ötürülməsinin vacibliyini önə çəkir.

Bu gün Azərbaycan şəhərsalma siyasəti ilə regionda yeni standartlar müəyyənləşdirir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Memarların şeyxi - Əcəmi Naxçıvani

## "Biz ölərik, bu, bizdən xatirə qalar"

**Xalqımızın qədimliyini, ulu keçmişini, milli-mədəni irsini yaşadan və əsrlərdən bəri dünyaya yaxından tanıdan görkəmli sənətkarlarımızdan biri də Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Tarixin pozulmaz səhifələrində dərin iz qoymuş böyük memarın zəmanəmizə gəlib çatan abidələri Yusif ibn Küseyiroğlu türbəsinin inşası 1162-ci, Möminə xatun türbəsinin inşası isə 1186-cı ildə başa çatmışdır. Hər iki abidə elə ilk baxışdan görənləri heyran qoyur. Amma əzəməti, möhtəşəmliyi, naxışlarının bənzərsizliyi və kitabələrinin mükəmməlliyi ilə Möminə xatun türbəsi Yusif ibn Küseyiroğlu türbəsini geridə qoyur, daha gözəl və heyranedicidir.**





Yusif ibn Küseyiroğlu türbəsini memar gənc yaşlarında tikib. Gözəlliyi ilə insanları heyran qoyan Möminə xatun türbəsini isə sənətinin kamillik zirvəsinə ucaldığı bir vaxtda inşa edib. Necə deyərlər, peşəkarlıq, sənətkarlıq öz sözünü deyib.

Tarixdən məlumdur ki, Möminə xatun məqbərəsi Şəmsəddin Eldənizin birinci arvadı, Azərbaycan Atabəylər dövlətinin yaranması və möhkəmləndirilməsi uğrunda çox böyük işlər görmüş xanımın adı ilə bağlıdır. Formasına görə kəsik onbucaqlını xatırladan bu tarixi yadigarın naxışları, üzərində kufi xətti ilə yazılmış "Quran" ayələrindən ibarət haşiyələr istər-istəməz Hindistandakı məşhur Tac-Mahalı, Səmərqəndin, İsfahanın möhtəşəm abidələrini xatırladır. Amma onu da qeyd edək ki, Möminə xatun məqbərəsinin yaranma tarixi onları neçə əsr qabaqlayır. 1186-cı ildə Şərqdə ilk dəfə qadının şərəfinə ucaldılan bu abidəni anaya, qadına hörmət və ehtiramın ifadəsi kimi bu gün də ölkəmizə gələn xarici qonaqlar böyük maraqla ziyarət edirlər. Yusif ibn Küseyrin məqbərəsi, Naxçıvan Cümə məscidi, dağıdılmış bir memarlıq abidəsinin qoşaminarəli piştağı və başqaları da Memar Əcəminin yadigarlarıdır.

Bir çox tarixi mənbədə bildirilir ki, XI-XII əsrlərdə Azərbaycanda şəhərlər böyüyür, saraylar, məscidlər və başqa dini tikililər inşa olunurdu. Şəhərlərin böyüməsi ilə paralel olaraq sənətkarlıq da inkişaf edirdi. Yeni tikililərin inşası üçün zaman yeni sənətkarlar yetişdirirdi. Həmin dövrlərdə yetişən və ulduz kimi parlayan, şan-şöhrəti ellərə yayılan memarlardan biri də Əcəmi Naxçıvani olmuşdur. Görkəmli memar bir-birindən dəyərli əsərlərin müəllifi kimi dünya şöhrəti qazanmışdır.

Sənətşünas, Əməkdar elm xadimi, professor Əbdülvahab Salamzadə onun haqqında yazırdı: "Yaxın Şərqin bir çox memarının yaradıcılığına onun təsirini izləmək çətin deyil. Onun yaratdığı nadir arxitektura əsərləri əsrlər keçməsinə baxmayaraq, böyük estetik həzz mənbəyi kimi sənətkarın yaradıcı dühasının gücünü əks etdirir. Bu əsərlər sübut edir ki, Əcəminin ölməz irsi haqlı olaraq memarlıq sənətinin əbədi nümunələrindən sayılır. Yenidən doğulmuş bu sənət abidələri belə bir fikrə gəlməyə əsas verir ki, Əcəmi Naxçıvani öz dövründə tayı-bərabəri olmamış sənətkarlardandır. Təsadüfi deyil ki, XIII əsr mənbələri onun "şeyxül-mühəndisin" (mühəndislər başçısı) rütbəsi daşıdığından xəbər verir. Hələ Qərb dünyasında arxitektura sənəti anonim səciyyə daşıyan bir dövrdə Əcəmi bir çox memarlıq incisinin müəllifi kimi bizim qarşımızda parlaq və təkrarolunmaz yaradıcı simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürünün nəhəngi kimi canlanır".

Dünyaca məşhur olan Əcəmi Naxçıvani bacarığı, peşəkarlığı ilə Orta əsrlər Azərbaycan memarlığına yeni istiqamət vermiş, yeni ruh, yeni ovqat və dövrün memarlıq üslubuna zəriflik, dinamiklik gətirmiş böyük sənətkar olmuşdur. Tarixi mənbələr göstərir ki, görkəmli memarın fəaliyyəti daha çox Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan qüdrətli Atabəylər dövlətinin paytaxtı, Yaxın Şərqin mədəniyyət, elm, ticarət və sənət mərkəzlərindən biri Naxçıvan şəhəri ilə bağlıdır. Naxçıvan şəhərindəki bənzərsiz abidələrdən Əcəminin əl işləri olan Möminə xatun məqbərəsi və Yusif ibn Küseyir türbəsi islam aləminin şah əsərləri sırasında əsrlərdir ki, öz layiqli yerini qoruyub saxlayır.



Əcəmi Naxçıvaninin günümüzə qədər gəlib çıxmış mədəni irsi illər, əsrlər boyu məktəb rolunu oynamışdır. Sonrakı dövrlərdə də Azərbaycan və Yaxın Şərq ölkələrinin memarlığının inkişafına müsbət təsir göstərmişdir. Marağadakı Göy Günbəzdə (XII əsr), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar, Bərdə və Salmas abidələrində (XIV əsr), türk sənətkarı Memar Sinanın (XVI əsr) İstanbulda ucaltdığı türbələrdə Əcəmi sənətinin ənənələri yaşamaqdadır.

Görkəmli türk sənətşünas alimi Oqtay Aslanapa "Türk sənəti" adlı dəyərli əsərində qeyd edir ki, Anadoludakı Səlcuqlu dövrü memarlıq abidələrinin bəzək motivləri, Cənubi Azərbaycanın Qəzvin məscidlərindəki eyni motivlər Naxçıvan abidələri vasitəsilə Anadoluya gəlib çıxmışdır. Müəllif Sivasdakı nümunədən bəhs edərkən yazır: "Burada daş portalın üst kənarında bir-birini kəsən altıbucaqlıda Naxçıvan günbəzlərindəki motivlərin yenidən dəyərləndirildiyi görünməkdədir. Türk alimi Dalokay Vedat da bu cəhətə toxunmuş, Sinanın İstanbulda inşa etdiyi Xosrov paşa türbəsi haqqında danışarkən qeyd etmişdir ki, "burada Atabəylərdən qalma günbəzlərdən bir nəfəs gəlir".

Məlum həqiqətdir ki, tarix-mədəniyyət abidəsi, o cümlədən türbə, məscid, xanəgah, körpü, karvansara, hamam, qala, istehkam, qəbirüstü xatirə abidəsi və s. hər bir xalqın sənətkarının tarixə vurduğu pozulmaz möhürdür. Çoxları kimi sənətkarlar da ömürlərini başa vurduqdan sonra dünyadan köçürlər. Ancaq onların yaratdıqları əsərlər uzun müddət yaşayır, gələcək nəsillərə öz mənsubiyyəti, onu yaradan sənətkar, tikildiyi tarix və s. haqqında dəyərli məlumatlar ötürür. Görkəmli memar Əcəmi Naxçıvani də özünün şah əsərində tarixi həqiqətləri qoruyub saxlayır.

Ötən il Parisdə UNESCO-nun mənzil-qərargahında yubileylər proqramı çərçivəsində Əcəmiyə həsr olunan sərgi açılıb, dahi memarın həyat və yaradıcılığı haqqında məlumat verilib. Bildirilib ki, onun 900 illiyi UNESCO-nun rəsmi Yubileylər Siyahısına daxil edilib. Bu, Azərbaycan mədəni irsinin dünya miqyasında tanıdılmasının növbəti nümunəsidir və ölkəmizin qlobal səviyyədə mədəni irsin qorunmasına sadiqliyini bir daha nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2025-ci il tarixli sərəncamı ilə Əcəmi Naxçıvaninin 900 illiyi ölkəmizdə qeyd edilir, tədbirlər çərçivəsində böyük sənətkarın tarixi irsi daha da dərindən araşdırılır, öyrənilir və təbliğ edilir.

Tarix məlum olan və olmayan səhifələrində Əcəminin həyatı haqda onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Görünür, dahi memar bunu qabaqcadan gördüyündən şah əsəri olan Möminə xatun türbəsi üzərində bu sözləri yazmışdır: "Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik, bu, bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## Müstəqil Azərbaycan dördüncü, amma bərpa olunmuş suveren ərazisində birinci siyahıyaalmaya hazırlaşır

**2029-cu ildə Azərbaycanda əhalinin növbəti siyahıyaalınması keçiriləcək. Məlum olduğu kimi, bu barədə Prezident İlham Əliyev 7 iyul 2026-cı il tarixli fərman imzalayıb. Fərmanda qeyd olunur ki, bu tədbirin respublikanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildikdən sonra ilk dəfə ölkənin bütün ərazisi üzrə əhaliyə dair müfəssəl məlumatların əldə edilməsi və sosial-demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə keçiriləcək.**



Fərmana əsasən, ölkədə 2029-cu il oktyabrın 1-nə olan vəziyyət üzrə əhalinin növbəti siyahıyaalınması həmin il oktyabrın 1-dən 31-dək keçirilməsi nəzərdə tutulur.

Dövlət Statistika Komitəsinə əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması həvalə edilib. Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Siyahıyaalma, ümumiyyətlə, əhali haqqında ən dolğun məlumat mənbəyi olaraq demoqrafik proseslərin obyektiv qiymətləndirilməsi və ölkənin sosial-iqtisadi inkişafının planlaşdırılması baxımından önəmli bir tədbirdir. Başqa sözlə, siyahıyaalma ölkənin bütün vətəndaşlarına aid demoqrafik, iqtisadi və sosial məlumatların müəyyən olunmuş vaxtda toplanması, ümumiləşdirilməsi, öyrənilməsi və yayılması deməkdir.

2029-cu ildə keçiriləcək əhalinin növbəti siyahıyaalınması isə üstəlik xüsusi tarixi əhəmiyyət kəsb edəcək. Çünki bu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfər və ölkəmizin suverenliyinin tam bərpa olunması nəticəsində müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisini tam şəkildə əhatə edəcək ümumrespublika əhalinin siyahıyaalınması olacaq. İyulun 17-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetində keçirilən geniş iclasda da bu, xüsusi qeyd olunub. İclasda dövlət başçısının "2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" fərmanından irəli gələn vəzifələrin icrası, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə edilib.

Baş nazir Əli Əsədov Prezidentin fərmanının icrasının təmin olunması məqsədilə Nazirlər Kabineti tərəfindən müvafiq tədbirlər planının təsdiq ediləcəyini, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi üçün Baş nazirin müavininin rəhbərliyi ilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılacağını bildirib.

Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulov əhalinin siyahıyaalınmasına hazırlıq məqsədilə görüləcək işlər barədə məlumat verib. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyası istiqamətində görüləcək işlər barədə danışıb.

Əhalinin növbəti siyahiyaalınması Birləşmiş Millətlər Təşkilatının müvafiq tələb və tövsiyələrinə, həmçinin milli prioritetlərə əsaslanaraq təşkil ediləcək. Tədbirin ilk dəfə rəqəmsal texnologiyalar, inzibati və geoməkan məlumatlarından istifadə edilməklə keçirilməsi nəzərdə tutulur.

Artıq aidiyyəti dövlət qurumlarına Prezidentin fərmanından irəli gələn tapşırıqların, o cümlədən əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə zəruri tədbirlərin vaxtında, keyfiyyətlə və mütəşəkkil yerinə yetirilməsi barədə müvafiq tapşırıqlar verilib.

Xatırladaq ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da əhalinin siyahıyaalınması 10 ildənbir keçirilir. Ölkəmizdə sonuncu dəfə əhali 2019-cu ildə siyahıya alınıb. Müstəqillik dövründə əhalinin üçüncü milli siyahıyaalınması olan həmin tədbir oktyabrın 1-10-da keçirilib. Dövlət Statistika Komitəsi tərəfindən aparılan bu siyahıyaalmanın yekunlarına əsasən, həmin vaxt ölkə əhalisinin sayı 9 milyon 951,4 min nəfər təşkil edib.

Toplanmış məlumatlar əsasında 30 cilddən ibarət "Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması - 2019-cu il" adlı statistik məcmuə hazırlanıb.

Dövlət Statistika Komitəsinin son məlumatına əsasən, bu il iyun ayının 1-i vəziyyətinə Azərbaycanda əhalinin sayı 10 milyon 271 min 638 nəfər olub. İlin əvvəlindən əhali 9287 nəfər və ya 0,1 faiz artıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qazaxıstanın "Samruk-Kazyna" Milli Rifah Fondunun rəhbəri ilə görüş keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Qazaxıstanın "Samruk-Kazyna" Milli Rifah Fondunun İdarə Heyətinin sədri ilə görüşündə bu ölkə ilə iqtisadi əməkdaşlığın perspektivləri müzakirə olunub.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstanın "Samruk-Kazyna" Milli Rifah Fondunun İdarə Heyətinin sədri Nurlan Jakupov ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, həmçinin tərəfdaşlığın prioritet inkişaf istiqamətləri nəzərdən keçirilib. Tərəflər birgə investisiya fəaliyyətinin genişləndirilməsi, institusional investorlar arasında əməkdaşlıq imkanları, ticarət, sənaye, süni intellekt və digər innovativ istiqamətlər üzrə tərəfdaşlıq, eləcə də "yaşıl enerji" layihələrinin birgə həyata keçirilməsi barədə fikir mübadiləsi aparıblar.

Görüşdə qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın genişləndirilməsinin iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə və yeni birgə layihələrin reallaşdırılmasına töhfə verəcəyi vurğulanıb.

## "Azərkosmos"un ixrac gəlirləri 1,5 dəfə artıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 33 ölkəsindən olan 90-dək şirkətə 13,1 milyon dollar dəyərində telekommunikasiya xidmətləri ixrac edilib.**




Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8 ölkə azdır, xidmət dəyəri isə 1,5 dəfə çoxdur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyul sayında bildirilib ki, bu dövr ərzində formalaşan ümumi gəlirlərin 63 faizini ixrac əməliyyatları təşkil edib.

6 ayda peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 2,2 milyon dollar ilə Birləşmiş Krallıq, 1,6 milyon dollar ilə Lüksemburq, 605,4 min dollar ilə Türkiyə, 603,4 min dollar ilə Pakistan və 327,9 min dollar ilə Misir qərarlaşıb.

## Sumqayıt Sənaye Parkında yeni rezident qeydə alınıb

**Sumqayıt Sənaye Parkının yeni rezidenti tərəfindən xüsusi texnika və nəqliyyat vasitələrinin istehsalı və yığımı layihəsi həyata keçiriləcək.**



"RAM İndustries" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib.

İnvestisiya dəyəri 44,9 milyon manat olan xüsusi texnika və nəqliyyat vasitələrinin istehsalı və yığımı layihəsi çərçivəsində 200-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

## 6 ayda ölkə üzrə 25,4 milyard kubmetr qaz hasil edilib

### Bunun 12,7 milyard kubmetri ixrac olunub

**Cari ilin birinci yarısında ölkəmizdə 25,4 milyard kubmetr təbii qaz hasil olunub. Bu həcmin 12,7 milyard kubmetri ixraca yönəldilib. Energetika Nazirliyi həm hasilatın, həm də ixracın artdığını bildirib.**



Qazın hasilatının da, ixracının da əsas mənbəyi dəniz yataqlarının "şah"ı olan "Şahdəniz"dir. Elə bu ilin yanvar-iyun aylarında Azərbaycanda hasil olunan qazın yarıdan çoxunu - 13,7 milyard kubmetrini bu yataq verib. Hazırda yataqdan qaz "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformaları vasitəsilə əldə olunur.

Əsasən neft mənbəyi kimi tanıdığımız "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku isə özünün səmt qazı ilə də ölkə iqtisadiyyatına töhfə verir. Buradan çıxarılan səmt qazının xeyli hissəsi Neft Daşlarındakı qurğuya daxil olaraq Səngəçal terminalına, oradan da "Azəriqaz"a məxsus kəmərlə Azərbaycan dövlətinə çatdırılır.

Bu il iyunun 1-dən "Azəri-Çıraq-Günəşli"nin dərin laylarından ilk dəfə kommersiya məqsədli qaz hasilatına da başlanılıb. Ümumiyyətlə, AÇG-dən yarım ilin qaz hasilatı 7,3 milyard kubmetr təşkil edib.

İlin 6 ayında ölkədə hasil olunan qazın 3,6 milyard kubmetri SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) istismar etdiyi yataqlardan alınıb. 0,8 milyard kubmetr mavi yanacağı isə "Abşeron" yatağı verib. Xatırladaq ki, bu yatağın İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlamasının 3 ili tamam oldu. Ötən dövr ərzində yataqdan təqribən 4,8 milyard kubmetr təbii qaz və 1,8 milyon tonadək kondensat hasil edilib.

Qeyd edildiyi kimi, 12,7 milyard kubmetr qaz ixraca yönəldilib ki, bu da ölkədə hasil olunan mavi yanacağın yarısını təşkil edir.

Azərbaycandan qaz alan ilk ölkə yaxın qonşumuz Gürcüstandır. Gürcüstana qaz 2006-cı ilin sonundan Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə çatdırılır. Ötən yarım ildə bu ölkə bizdən 1,2 milyard kubmetr qaz alıb.

Bu dövr ərzində ixrac olunan qazın 4,9 milyard kubmetri Türkiyənin payına düşüb. Qardaş ölkə Azərbaycan qazını artıq 19 ildir idxal edir. 2018-ci ilin yarısına qədər mavi yanacaq Bakı-Tbilisi-Ərzurum kəməri ilə ixrac olunub. 2018-ci ilin ortalarından isə qaz həm də "Cənub qaz dəhlizi"nin seqmentlərindən olan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) vasitəsilə nəql edilir. Cari ilin birinci yarısında Türkiyəyə ixrac olunan 4,9 milyard kubmtr qazın 3 milyard kubmetrini TANAP ötürüb.

Məlum olduğu kimi, keçən ildən Türkiyə üzərindən Suriyaya da müəyyən həcmdə Azərbaycan qazı ixrac olunur. Ötən yarım ildə də ixrac davam edib.

İxracın 5,9 milyard kubmetri isə Avropa ölkələrinə verilən qazdır. Avropaya ilk qaz 2020-ci il dekabrın 31-də "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) ilə çatdırılıb.

Hazırda həmin dəhliz və ona birləşən interkonnektorlar vasitəsilə 16 ölkə Azərbaycan qazı alır. Bu ölkələrin adlarını bir daha xatırladaq: Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Göründüyü kimi, bunların 14-ü Avropa ölkəsi, o cümlədən 10-u Avropa İttifaqına üzv dövlətlərdir.

Almaniya və Avstriyaya qaz ixracına cari ildən etibarən başlanılıb. İyulun 13-də IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev bunun qlobal, xüsusilə də Avropa qaz bazarında mövqeyimizi genişləndirməyə yönəlmiş ümumi strategiyamızın tərkib hissəsi olduğunu nəzərə çatdırmışdır. Dövlətimizin başçısı qeyd etmişdir ki, Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, bizim üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Hazırda Azərbaycan boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz tədarük edir və boru kəməri ilə qaz ixracının coğrafi əhatəsinə görə dünyada birinci yerdədir.

*F.SADIQLI,*
*"Azərbaycan"*

## Peşə və kvalifikasiya standartı nədir və nə üçün lazımdır?

**Peşə və kvalifikasiya standartları işçinin müvafiq peşə və ixtisas üzrə yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur.**



Bu standartlar əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təşkilində, işçi qüvvəsinin keyfiyyətinin artırılmasında və beynəlxalq standartlara uyğunlaşdırılmasında baza rolunu oynayır.

Dövlət orqanları və təşkilatlar, hüquqi və fiziki şəxslər, eləcə də xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri əmək bazarının tələblərinə uyğun olaraq müvafiq standartın hazırlanması və ya yenidən hazırlanması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilər.

Müvafiq qaydada hazırlanmış standart nazirliyin Kollegiyasında təsdiq olunduqdan sonra qüvvəyə minir və Peşə və Kvalifikasiya Standartlarının Reyestrinə yerləşdirilir.

Cari ilin I yarımilində əmək bazarında prioritet peşələr üzrə daha 138 peşə və kvalifikasiya standartı təsdiq edilərək Reyestrə daxil edilib. Bununla da Reyestrdə mövcud olan standartların sayı 1700-ə çatıb.

Qeyd edək ki, cari ildə 166 peşə üzrə 332 peşə və kvalifikasiya standartının hazırlanması və yenilənməsi ilə bağlı işlər aparılır.

## Türk İnvestisiya Fondu ilə Özbəkistan-Qırğızıstan İnkişaf Fondu arasında Anlaşma Memorandumu imzalanıb

**Türk İnvestisiya Fondu (TİF) və Özbəkistan-Qırğızıstan İnkişaf Fondu (ÖQİF) "Qırğızıstan-Özbəkistan: Sənaye əməkdaşlığı, investisiyalar və ticarət" biznes-forumu çərçivəsində institusional əməkdaşlığın gücləndirilməsi və investisiya imkanlarının birgə təşviq edilməsi məqsədilə Anlaşma Memorandumu imzalayıblar.**

AZƏRTAC xəbər verir ki, memorandum Bişkek şəhərində TİF-in baş direktoru Ramil Babayev və Özbəkistan-Qırğızıstan İnkişaf Fondunun İdarə Heyətinin sədri Əziz Əliyev tərəfindən imzalanıb.

Tərəfdaşlıq birgə layihələrin müəyyənləşdirilməsi, regional bağlantıların inkişafı, özəl sektorun cəlb edilməsi, "yaşıl" və iqlimədavamlı investisiyaların təşviqi, eləcə də maliyyələşdirmə və xəzinədarlıq əməliyyatları sahəsində institusional potensialın gücləndirilməsi kimi istiqamətləri əhatə edəcək. Hər iki qurum, həmçinin risklərin bölüşdürülməsi mexanizmlərini, transsərhəd investisiyaların və biznesin genişlənməsinin dəstəklənməsi imkanlarını araşdıracaq.



İmzalanma münasibətilə TİF-in baş direktoru Ramil Babayev bildirib: "Qırğız Respublikası və Özbəkistan Orta dəhlizin mərkəzində yerləşir. Bu memorandum strateji əhəmiyyət daşıyan həmin bazarlarda bizimlə ortaq mandatı bölüşən institutlarla əməkdaşlığı dərinləşdirmək öhdəliyimizi əks etdirir. ÖQİF geniş yerli biliklərə və özünü doğrultmuş ikitərəfli əməkdaşlıq platformasına malikdir. Birgə üzv dövlətlərimizdə özəl sektorun inkişafını, regional bağlantıları və iqtisadi inteqrasiyanı dəstəkləyən güclü birgə maliyyələşdirmə layihələri portfelinin formalaşdırılmasını hədəfləyirik".

TİF və ÖQİF memorandumun icrasını nəzərdən keçirmək və gələcək əməkdaşlıq üçün konkret imkanları müəyyənləşdirmək məqsədilə ən azı altı ayda bir dəfə olmaqla mütəmadi görüşlərin keçirilməsi barədə razılığa gəliblər.

Qeyd edək ki, Türk İnvestisiya Fondu türk dövlətləri tərəfindən birgə təsis edilmiş, türk dünyasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə, regiondaxili ticarətin artırılmasına və dayanıqlı inkişafın təşviqinə yönəlmiş ilk ixtisaslaşmış beynəlxalq maliyyə institutudur. TİF-in Təsis Sazişi 16 mart 2023-cü ildə Ankarada keçirilmiş Türk Dövlətləri Təşkilatının Fövqəladə Zirvə Görüşündə imzalanıb və 24 fevral 2024-cü ildə qüvvəyə minib. Ümumi inkişaf və rifah naminə istifadə olunacaq 600 milyon dollar həcmində nizamnamə kapitalına malik TİF "Türk Dünyasının İqtisadi İnteqrasiyası"na əsaslanan böyük türk vizyonu çərçivəsində təsirli investisiyaların, innovativ həllərin və regional inteqrasiyanın təşviqi üçün platforma rolunu oynayır.

# REGİONLAR

## Vətəni qorumaq şərəfli peşədir

### Qubalı gənclər həqiqi hərbi xidmətə yollanır

**Qubadakı Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin birgə təşkilatçılığı ilə müddətli həqiqi hərbi xidmətə yola salınan çağırışçıların təntənəli yolasalma mərasimi keçirilib.**



Təşkilatçılardan savayı, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, çağırışçılar, onların valideynləri və yaxınları, həmçinin rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdikləri mərasimdə Dövlət himni səsləndirilib, Heydər Əliyevin və şəhidlərin xatirələri birdəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər gəncləri həqiqi hərbi xidmətə yola düşmələri münasibətilə təbrik edərək onlara Vətənə və dövlətə sədaqətlə xidmət etməyi, silahlı qüvvələrimizin şərəfli ənənələrini layiqincə davam etdirməyi arzulayıblar. Vurğulanıb ki, Azərbaycan Ordusu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha da güclənərək regionun ən qüdrətli Silahlı Qüvvələrindən birinə çevrilib və gənclərin belə bir ordunun sıralarında xidmət etməsi böyük şərəfdir.

Mərasimdə valideynlər və ictimaiyyət nümayəndələri çağırışçılara uğurlar arzulayaraq onların vətənə layiqli əsgər kimi xidmət edəcəklərinə əminliklərini bildiriblər.

Sonda çağırışçılar Azərbaycan bayrağının müşayiəti ilə həqiqi hərbi xidmətə yola salınıblar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvanda fiber-optik şəbəkə qurulur

**Naxçıvan MR-də rəqəmsal infrastrukturun yenilənməsi və müasir tələblərə uyğun qurulması istiqamətində işlər davam edir.**

Muxtar respublikanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi tərəfindən muxtar respublikanın şəhər və kəndlərində müasir GPON (Qiqabit Tutumlu Optik Şəbəkə) texnologiyası əsasında fiber-optik şəbəkə qurulur.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda Naxçıvan şəhərinin əksər prospekt, küçə və məhəllələrində, Şərur rayon mərkəzində, Maxta, Axaməd, Kərimbəyli və Qarabürc kəndlərində, həmçinin Kəngərli, Culfa və Ordubad rayon mərkəzlərində bu istiqamətdə mühüm işlər həyata keçirilir.

Ordubad şəhərində Heydər Əliyev prospekti, Fətəli Axundov və Cəlil Məmmədquluzadə küçələrində yeraltı fiber-optik kabel xətlərinin çəkilişi intensiv şəkildə davam etdirilir. Optik kabel çəkilmiş yaşayış binalarında optik paylayıcı qutuların quraşdırılması, eləcə də drop kabellərin mənzillərə çəkilməsi işlərinə başlanılıb.

Yaxın vaxtlarda Ordubad şəhərində yüzlərlə abonentin GPON texnologiyası vasitəsilə keyfiyyətli və yüksəksürətli internet xidmətindən istifadəsi təmin ediləcək.

## Lənkəranda beynəlxalq təcrübəyə əsaslanan təlim proqramına başlanılıb

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən Lənkəran rayonunda "Aqrar sahədə müasir suvarma sistemlərinin təşviqi" mövzusunda 3 günlük interaktiv təlim proqramına start verilib.**

Təlim proqramı "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş suvarma suyundan səmərəli istifadə mexanizmlərinin inkişaf etdirilməsi, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, informasiya-məsləhət xidmətləri və innovasiya yayımı sisteminin inkişaf etdirilməsi üzrə prioritet istiqamətlərə uyğun olaraq təşkil olunub.

Tədbirin açılışında çıxış edən Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev bildirib ki, aqrar sahənin dayanıqlı inkişafı, məhsuldarlığın artırılması, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi və iqlim dəyişikliklərinə uyğunlaşma əsas prioritet istiqamətlərdəndir. O qeyd edib ki, Aqrar Təlim Mərkəzi tərəfindən cari il ərzində 52 rayon üzrə təşkil olunan 628 təlimdə ümumilikdə 16 min 709 fermer iştirak edib. Sərdar Hacıyev, həmçinin vurğulayıb ki, uzunmüddətli dayanıqlı kənd təsərrüfatının formalaşdırılması idarə olunan və səmərəli suvarma sistemi olmadan mümkün deyil. Sədr diqqətə çatdırıb ki, son üç il ərzində ölkədə müasir suvarma sistemlərinin tətbiq olunduğu ərazilərin həcmi 85-87 min hektardan 127 min hektara çatdırılıb. Bu göstərici həyata keçirilən dövlət dəstəyinin və görülən işlərin real nəticəsidir. Qarşıdakı dövrdə müasir suvarma sistemlərinin tətbiqinin daha da genişləndirilməsi məqsədilə 2030-cu ilin sonunadək bu sistemlərin tətbiq olunduğu ərazilərin həcminin 300 min hektara çatdırılması planlaşdırılır.

Proqram çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə təqdimatlar keçirilib. Beynəlxalq ekspert Dr. Abdullah İlker Esin və sahə üzrə mütəxəssis Akif Quliyev müasir suvarma texnologiyalarına dair təqdimatlarla çıxış ediblər. Təqdimatlar zamanı ənənəvi və müasir suvarma üsullarının müqayisəsi, müasir suvarma sistemlərinin üstünlükləri, damcı və yağmurlama kimi intensiv suvarma texnologiyalarının tətbiqi, su itkilərinin əsas səbəbləri və onların azaldılması yolları, suvarmaya təsir göstərən iqlim, torpaq və bitki amilləri, eləcə də müasir suvarma sistemlərinin düzgün layihələndirilməsi və planlaşdırılması prinsipləri ətraflı izah olunub. İştirakçılar mövzular üzrə praktiki nümunələr və beynəlxalq təcrübə ilə tanış olublar, onları maraqlandıran suallar ekspertlər tərəfindən cavablandırılıb.

Qeyd edək ki, üç gün davam edəcək proqram çərçivəsində Təlimçilər üçün Təlim (Training of Trainers - ToT) proqramı da təşkil olunacaq. Proqramın üçüncü günü isə Astara rayonunun Ərçivan qəsəbəsində yerləşən nümunəvi təsərrüfatda praktiki məşğələ keçiriləcək. İştirakçılar burada müasir suvarma sistemlərinin tətbiqini praktik olaraq öyrənmək və onların iş prinsipi ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*





## İndiyədək Şəmkirdə 35,5 min tondan çox kartof yığılıb

**Kənd təsərrüfatının Şəmkirin sosial-iqtisadi inkişafında çəkisi kifayət qədər yüksəkdir. Bu sahənin həm də əhalinin məşğulluğunun təminatında payı çoxdur.**

Dövlət tərəfindən həyata keçirilən ardıcıl dəstək tədbirləri və müasir aqrar yanaşmaların tətbiqi rayonda məhsul istehsalının artmasına əlverişli zəmin yaradıb. Bu baxımdan cari ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" da xüsusi qeyd olunmalıdır.

Hazırda Şəmkirdə kartof yığımı sürətlə davam edir. Rayon sakinləri məhsulu vaxtında yığıb tədarük etmək üçün əllərindən gələni əsirgəmirlər. Yığımın vəziyyəti ilə yerində tanış olmaq, istehsalçıların təkliflərini dinləmək və onları narahat edən məsələləri həll etmək üçün tez-tez mütəxəssislər təsərrüfatlarda olur, yığımın gedişi ilə maraqlanırlar.




Bu günlər bir qrup mütəxəssis yenə də təsərrüfatlarda olmuş, istehsalçılarla görüşmüşlər. Bildirilmişdir ki, ölkədə aqrar sahənin inkişafı prioritet istiqamətlərdən sayılır. Yeni dövlət proqramında da əsas hədəf məhsuldarlığın artırılması, fermerlərin fəaliyyətinin dəstəklənməsi və müasir kənd təsərrüfatı texnologiyalarının tətbiqinin genişləndirilməsidir. Qarşıda duran vəzifələrin uğurla icrası ölkəmizdə ərzaq təhlükəsizliyinin daha etibarlı təminatına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcək.

Fermerlər bu il də sahələrdə bol kartof yetişdirdiklərini bildirmişlər. Söhbət zamanı məlum olmuşdur ki, cari ilin 6 ayı ərzində 6323 hektarda kartof əkilmişdir. 2026-cı ilin iyul ayına olan statistik göstəricilərə əsasən, 4903 hektar sahədə yığım aparılmış, 35568 ton məhsul tədarük olunmuşdur. Əldə olunan nəticələrdən məmnunluqlarını ifadə edən fermerlər növbəti mövsümdə kartof əkin sahələrini daha da genişləndirməyi planlaşdırdıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ənənə davam edir

### Qafarovların üçüncü nəsli çörəyini torpaqdan qazanır

**Söz vaxtına çəkər. Keçən ilin bu vədələri idi. Neftçalanın Boyat kəndində yaşayan fermer Mürsəl Qafarovla pambıq tarlasında görüşdük. Söhbət zamanı əmək fəaliyyəti ilə maraqlandım.**

Məlum oldu ki, rəhmətlik atası Səfər kişi də sovetlər birliyi zamanında öz kəndlərindəki kolxozda pambıqçılıq briqadiri işləyib, halal zəhməti ilə el-oba içində hörmət-izzət qazanıb. Atasının yolunu davam etdirmək, kənd təsərrüfatı sahəsində çalışmaq arzusu ilə orta məktəbi bitirəndən sonra Gəncədəki Kənd Təsərrüfati İnstitutuna (indiki Dövlət Aqrar Universiteti) qəbul olunub.

Gəncə mühiti, ali məktəb həyatı baxışını, dünyagörüşünü təkmilləşdirib. Təhsilini bitirib kəndə qayıdıb. Atasının çalışdığı təsərrüfatda işləməyə başlayıb. Lakin çox çəkmir ki, sovetlər birliyi kimi kolxoz təsərrüfatı da dağılır. Amma Mürsəl ruhdan düşmür, əksinə, sevinir. "Öz əlim, öz başım" deyib pay torpağında işləməyə başlayır. Torpağın "öldür məni, dirildim səni" səxavətini görüb əkin sahələrini genişləndirir.

Mürsəl Qafarov keçən il əkdiyi 50 hektar pambıq sahəsinin hər hektarından 51 sentner məhsul götürüb. O, təsərrüfatın digər sahələri ilə də məşğul olur. Taxıl, yonca əkir, mal-qara saxlayır.

M.Qafarovla bu yaxınlarda Biləsuvar şəhərində Şirvan-Salyan iqtisadi rayonu üzrə keçirilən müşavirədə görüşdük. Hal-əhval tutub işlərinin necə getdiyi ilə maraqlandım.

- Özüm də yaxşıyam, işlərim də yaxşı gedir, - dedi. - Bu il keçən ildəkindən 20 hektar çox - 70 hektarda pambıq əkmişəm. Hazırda 5-ci kompleks becərməni aparıram. Düzdür, yazda havaların yağmurlu keçməsi ilə bağlı pambığın inkişafında 10-15 gün gecikmə var. Pambıq da, bilirsiniz, günəş və su ilə böyüyən bitkidir. İndi havalar sabitləşib, əsl pambıq havasıdır. Müşavirə də kənd təsərrüfatına həsr olunub. Hər hektardan 50 sentner məhsul götürmək hədəfimizdir. Təvazökarlıqdan uzaq olsa da, deyim ki, keçən il hər hektardan 51 sentner pambıq məhsulu əldə etdim. İnşallah, bu il də o qədər götürəcəyik. Bunun üçün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirməyə çalışırıq. Bu günlər əsas işimiz cərgələr arasına kultivasiyanın çəkilməsi, yemləmə gübrəsi vermək, suvarma işləri, habelə sovkaya qarşı mübarizədir.

Keçən il onunla tarlada görüşüb söhbət edərkən M.Qafarov atasının adını daşıyan oğlu Səfərlə də məni tanış edib demişdi: "Bir oğlum, iki qızım var. Qızları köçürmüşəm, ev-eşik sahibidirlər. Oğlum isə mənimlədir. Ali təhsillidir. Ekoloqdur. Lakin dövlət işində çalışmır. Deyir ki, öz təsərrüfatımızda sənə kömək etmək daha sərfəlidir. Baxıb gördüm düz deyir. Allah bərəkət versin, təsərrüfatımız böyükdür. Sahələrimizdə taxıl, pambıq, yonca əkib-becəririk. Tək adam üçün bu, çətin iş olardı. Sağ olsun, demək olar ki, indi təsərrüfatın bütün sahələrinə rəhbərlik edir".

O vaxt soruşmuşdum:

- Bəs evlənmək məsələsi nə yerdədir? Deyirdin ki, 30 yaşın içindədir.

- Anası, bacıları, qohum-əqrəba üstünə düşüblər ki, evlənməlisən. O isə hələlik susur.

Yadımdadır, bir məsəl də çəkib demişdi ki, kəndimizdə bir oğlan üçün qız evinə elçiliyə gediblər. Qız evindəkilər elçilər üçün üç-dörd dənə oturmağa stul tapa bilməyiblər. Elçiliyə gələnlərə deyiblər ki, "hə-yox" cavabını sabah deyərik. Səhəri gün oğlan evi onlardan belə bir cavab alıb: "Qız deyir ki, oğlanın Bakıda evi olsa, "hə" cavabı verər".

Yenə oğlunu soruşdum. M.Qafarov bu dəfə gülümsəyib dedi:

- Keçən il yazdığınız məqaləni evdə oxuyub müzakirə etdik. Deməliyəm ki, xeyri də oldu. Məni təbrik edə bilərsən. Oğlum Səfəri nişanladıq. Toyunun vaxtını da təyin etmişik.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Tovuz fareli

### Dövlət proqramından sonra rayonda balıqçılığa maraq artıb

**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrasının təmin edilməsi üçün Tovuzda ardıcıl tədbirlər görülür.**

Belə tədbirlərdən biri də balıqçılığın inkişafıdır. Bu günlər rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov Azaflı kəndində fəaliyyət göstərən balıqçılıq təsərrüfatında olmuşdur. Təsərrüfatın rəhbəri Qəzənfər Yusifov görülən işlər, istehsal prosesi, burada yetişdirilən əlvan farel balıqları barədə qonağa məlumat vermişdir.

Görüş zamanı dövlət proqramından irəli gələn vəzifələrin icrası, balıqçılıq və akvakultura sahəsində dövlət dəstəyi mexanizmlərindən səmərəli istifadə, istehsalın genişləndirilməsi, müasir texnologiyaların tətbiqi və təsərrüfatın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Təsərrüfatın mövcud potensialının artırılması, istehsal həcminin genişləndirilməsi və dövlət proqramında nəzərdə tutulmuş tədbirlərdən maksimum səmərəli istifadə edilməsi istiqamətində söhbət getmiş, problemlər araşdırılmışdır.

Təsərrüfatın rəhbəri müəssisənin fəaliyyəti, istehsal imkanları, yetişdirilən balıq növləri və gələcək inkişaf planlarından danışmış, təsərrüfatın genişləndirilməsi, istehsal gücünün artırılması və yeni layihələrin həyata keçirilməsi ilə bağlı təkliflərini çatdırmışdır. Bildirmişdir ki, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi xüsusi diqqət və bu istiqamətdə həyata keçirilən dövlət siyasəti regionlarda kənd təsərrüfatının, o cümlədən balıqçılıq və akvakultura sahəsinin inkişafına geniş imkanlar yaratmışdır. Dövlət tərəfindən təqdim olunan subsidiyalar, güzəştli kreditlər və digər dəstək mexanizmləri istehsalın artırılmasına, sahibkarlığın inkişafına və yeni iş yerlərinin yaradılmasına imkan verir. Bu dəstəyin nəticəsidir ki, təsərrüfatda yüksəkkeyfiyyətli əlvan farel balıqları yetişdirilir və istehsalın genişləndirilməsi istiqamətində imkanlar açılır.



*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*



# Mədəniyyət



● Milli-mədəni irsimiz

## Qələmi ilə millətə xidmət edən ziyalı

**O, Azərbaycan mətbuatını qərq edildiyi sükutdan oyatdı. 1903-cü ildə böyük çətinliklərlə nəşrinə icazə alaraq "Şərqi-Rus" qəzetini yaratdı. Məhəmmədağa Şahtaxtlının (Şahtaxtinski) "Şərqi-Rus"u XX yüz İllikdə Azərbaycan mətbuatının birincisi və yeni mərhələnin başlanğıcı oldu...**

Öyünüləcək, fəxr ediləcək, ad-sanına, nüfuzuna sığınılacaq soyadı vardı. Məhəmmədağa Şahtaxtlıların övladıydı. Bu soyadı ona qədər nəinki yurdu Naxçıvanda, məmləkəti Azərbaycanda nəhəng çar imperiyasında tanıdanların arasında siyasi, hərbi və maarif xadimləri vardı. Məhəmmədağa Şahtaxtlı yaşadığı dövrün çağırışlarına səs verərək yeni bir yol qət etdi.

Məhəmmədağa Şahtaxtlı 1846-cı ildə qədim Naxçıvan mahalının Şahtaxtı kəndində dünyaya gəlib. Maarif nuru ilə işıqlı ailəsində onun da təhsilinə kiçik yaşlarından diqqət göstərilib. Bir neçə il ev şəraitində təhsil alıb. Naxçıvanın hörmətli ziyalılarından olan Hacı Mirzə Məhəmmədəlidən dərs alıb. Ərəb, fars dillərini, hüsn-xətt, xəttatlıq sənətini öyrənib. Təhsilini Naxçıvandakı yeganə rus-tatar məktəbində, daha sonra isə Tiflisdə kişi gimnaziyasında davam etdirib. Elmi biliklərə yiyələnməyi, təhsilə marağı oxuduğu məktəblərdə onu fərqləndirib.

Tiflis gimnaziyasını 1863-cü ildə müvəffəqiyyətlə bitirən Məhəmmədağa xəyalını qurduğu arzusunu gerçəkləşdirmək ümidi ilə Peterburqa yollanıb. Orada alman dilini öyrənib. Sonra bir neçə rus ziyalısı ilə birlikdə Almaniyanın Leypsiq şəhərinə gedib. İmtahanlardan müvəffəqiyyətlə keçərək Leypsiq Universitetinə daxil olub. Həmin universitetin Fəlsəfə, Tarix və Hüquq fakültələrində oxuyub, dövrünün görkəmli alimlərindən dərs alıb.

Berlinə, sonra Parisə gedən Məhəmmədağa Şahtaxtlı orada Şərq Dilləri Məktəbində mühazirələr dinləyib. İti hafizəsi, dil öyrənmək marağı yenə köməyinə çatıb. Fransız dilini öyrənib.

1873-1875-ci illərdə Parisdə yaşayan Məhəmmədağa Avropa elm və mədəniyyəti ilə yaxından tanış olub. Ona Parisin ali məktəblərindən birində dərs demək təklif edilib. Atası vəfat etdiyi üçün vətəninə qayıdıb.

Məhəmmədağanın yazıları hələ XIX əsrin 70-ci illərindən mətbu orqanlarda dərc olunmağa başlayıb. "Moskovskiy vedomosti", "Novoye vremya" və "Sankt-Peterburqskiye vedomosti" qəzetlərində jurnalist kimi fəaliyyət göstərib. Həmin qəzetlərin Yaxın Şərq müxbiri olub, dönə-dönə ərəb ölkələrində, İranda, Türkiyədə səfərdə olub. Bir müddət Türkiyə müxbiri kimi fəaliyyət göstərib. Məqalələri fransız, fars və ərəb qəzetlərində də dərc edilib.

1898-ci ildən Parisə dönən Məhəmmədağa məşhur Sarbonna Universitetində, Beynəlxalq Fonetika Cəmiyyətində və Fransa Akademiyasının "Asiya" Cəmiyyəti şöbəsində də fəaliyyət göstərib. 1902-ci ildə Rusiyaya qayıdıb.

Neçə illər idi ki, qəzet nəşr etmək niyyətindəydi. 1896-cı ildə bu məqsədlə etdiyi müraciətə rədd cavabı alsa da, məqsədindən dönməmişdi. Qəzet çıxarmağa icazə almaq üçün yenidən çarizmin müvafiq idarələrinə məktublar göndərmişdi.

O, Şahtaxtı kəndindəki ata mülkünü satıb, Tiflisə köçüb. Tiflisdə mətbəə yaradıb. Cəhdləri, nəhayət - müsbət nəticələnib. 1903-cü ilin əvvəllərində çar Rusiyasının Qafqaz canişinliyi "Şərqi-Rus" qəzetinin çapına razılıq verib.

Qəzetin ilk sayı 1903-cü il martın 30-da işıq üzü görüb. "Şərqi-Rus" əvvəlcə həftədə üç dəfə, 1904-cü il iyunun 8-dən isə gündəlik çap olunub. Yeni mətbu orqanın məqsədi, məramı, ideya istiqaməti belə bəyan edilib: "Bizim borcumuz həqayiqnəvislikdir, yaxşılığı dediyimiz kimi yamanlığı da gizlətməyəcəyik. Biz meydana




ona görə çıxdıq ki, xalqa doğru söz deyək və nəinki ona-buna vicdanfüruşanə mədhiyyələr oxuyaq".

XX əsrin ilk illərində inqilabi hərəkata, siyasi iğtişaşlara meyil göstərənlərin sayı gündən-günə artmağa başlayıb. Azərbaycanın azsaylı ziyalıları da xalqın geriliyinə, təhsildən, səhiyyədən, mətbuatdan uzaq salınmasına etiraz edir, soydaşlarını səfalətdən, ətalətdən qurtulmağa, tərəqqiyə, maariflənməyə səsləyirdilər. "Şərqi-Rus" belə bir vaxtda müqəddəs amalla yola çıxıb: "Məsləkimizi hər kəs bilir. Millətimizin mədəniyyətinə xidmətdir. Mədəniyyət ehtiyacımız felidir, həyatidir. Qonşularımızın həpisi mədəni olduqlarından kəsbü kar, ticarət, sənaye, ziraət, bir sözlə, məişət aləmində onlarla rəqabət edə bilib, qövmimizin, cinsimizin dünyada baqi qala bilməsini müdafiə edə bilməyimiz buna bağlıdır. Vəilla mədəni qonşularımız bizi əzib dünyadan qəti-nəsl edərlər. Necə ki, Amerikanın qədim qövmlərini Amerikaya hicrət edən Avropa qövmləri elədilər. Bir millətin həqiqətən təməddün edə bilməsi üçün ümdə şərt odur ki, ümumə aid məsələlərdə hər fikirlərini, rəy və əqidəsini kamali-azadlıq və hürriyyətlə bəyan edə bilsin. Bu azadlıqdan türk qövmini müstəfid etməkdən ötrü "Şərqi-Rus" meydana çıxmışdır"

Azərbaycanın mütərəqqi fikirli övladları "Şərqi-Rus" qəzetinin nəşrə başlamasını böyük sevinclə qarşılayıblar. "Şərqi-Rus"un yaradıcı heyəti məmləkətin dərdlərini, xalqın problemlərini öz yazılarında əks etdirib.



"Şərqi-Rus" qəzetinin son sayı 1905-ci il yanvarın 15-də buraxılıb. Baş redaktoru Məhəmmədağa Şahtaxtlının istəyi bu mətbu orqanın nəşrini Bakıda davam etdirmək idi. Ancaq bu arzusuna nail olmayıb. Bu barədə Cəlil Məmmədquluzadə "Xatiratım"da yazıb: "...sənə 1905-ci ilin yanvar ayında qəzetin təzə il abunəsi hər yandan şirin gəldiyi bir vaxtda Məhəmmədağa qəzeti yatırtdı və başladı Bakıya köçməyə hazırlaşmağa. Yanvardan fevraladək ancaq idarənin əşyasının qutulara dolmağı çəkdi və qutulara da dolub hazır olandan sonra haman yerdə qaldı ki, qaldı".

"Şərqi-Rus" bağlandıqdan sonra Məhəmmədağa Şahtaxtlı redaksiyanın mətbəəsini Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadəyə satıb. O, bir müddət Tiflis gimnaziyasında dərs deyib. 1907-ci ildə Naxçıvan mahalından Rusiyanın II Dövlət Dumasına deputat seçilib. Duma buraxıldıqdan sonra Peterburqda qalan Məhəmmədağa "Rosiyya" qəzeti ilə əməkdaşlıq edib.

1908-1918-ci illərdə xaricdə - Türkiyə, İran, İraqda yaşayıb. 1919-cu ildə vətənə qayıdıb. Bakı Dövlət Universitetinin yaradılmasında fəal iştirak edib. O, Azərbaycanın ilk ali məktəbində Şərq dilləri və ədəbiyyatından mühazirələr oxuyub.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da xalqının tərəqqisi yolunda fəaliyyətini davam etdirib. Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak edənlərdən biri də Məhəmmədağa Şahtaxtlı olub. Sovet hakimiyyəti illərində Azərbaycanda ilk professor adına layiq görülüb. Ona 1922-ci ildə ictimai-siyasi və pedaqoji fəaliyyəti nəzərə alınaraq fərdi pensiya təyin olunub.

İctimai xadim, publisist, şərqşünas, dilçi, pedaqoq Məhəmmədağa Şahtaxtlı 1931-ci il dekabrın 12-də 85 yaşında Bakıda dünyasını dəyişib.

Məhəmmədağa Şahtaxtlı ömrünü xalqının maariflənməsinə, milli mətbuatın inkişafına və elmin tərəqqisinə həsr edən görkəmli ziyalılardan idi. Onun təsis etdiyi "Şərqi-Rus" qəzeti Azərbaycan mətbuatında yeni bir dövrün əsasını qoyub. İrəli sürdüyü maarifçilik ideyaları isə sonrakı nəsil ziyalıların fəaliyyətinə güclü təsir göstərib. Bu gün də Məhəmmədağa Şahtaxtlının zəngin irsi milli mətbuat tariximizin ən qiymətli səhifələrindən biri kimi dəyərləndirilir və adı Azərbaycan ictimai fikir tarixində böyük ehtiramla anılır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Gəzməli, görməli yerlərimiz

## Kənd turizmi - əlçatan, rahat və səmərəli istirahət

**Yayın qızmar günlərində dağ kəndlərinə istirahətə gedənlər son illər daha da çoxalıb. Çünki indi kəndlərimiz o kəndlər deyil. Rahat yollar, istirahət etməli güşələr adama "gəl, gəl" deyir.**

Əslində bu gün adına kənd turizmi dediyimiz bu istirahət Azərbaycanda hər zaman mövcud olub. Kənd turizmi saf təbiətə, qədim tarixə, fəal istirahətə açılan qapıdır. Hələ sovet dövründən əvvəl də şəhər sakinləri yay aylarında dağlara - yaylaqlara qalxar, kimi qohum-əqrəba yanında qonaq qismində, kimi kənd evlərini kirayə edərək yayı yola verərdilər. Hətta alaçıq qurub iki-üç günlüyə dincələnlər də olurdu. Çox vaxt aran bölgəsindən olan bəzi iri təsərrüfat sahibləri mal-qarasını da özüylə yaylağa qaldırardı.

Ölkəmiz ötən əsrin 90-cı illərində öz tarixi müstəqilliyinə nail olduqdan sonra, xüsusilə 2000-ci illərdən başlayaraq dağ və dağətəyi rayonlarda, suyu və havası əlverişli kənd yerlərində istirahət edənlərin sayı ilbəil artmağa başladı. Hazırda Nabran və ətraf qəsəbələrdə, Gədəbəy, Daşkəsən, Göygöl, İsmayıllı, Qəbələ, Lənkəran, Masallı, Astara, Quba, Xaçmaz, Qax, Balakən, Qusar və digər rayonların kəndlərində yerli sakinlər evlərindəki otaqları və həyətyanı sahələrdəki köhnə tikililəri əsaslı təmir edərək turistlərə kirayə verirlər. Kənd turizmi aran rayonları istisna olmaqla, ölkəmizin demək olar ki, bütün bölgələrində geniş yayılıb. Bu sahəyə qoşulan kənd sakinlərinin sayı ilbəil artır. Artıq yay fəslində bu yerlərdə boş ev tapmaq müşkül məsələdir.

Belə baxanda bu "artım" həm də bölgələrin inkişafına töhfə verir. Zəngin təbiəti, qədim tarixi və mədəni irsi ilə kənd turizminin dünyada olduğu kimi, ölkəmizdə də geniş potensialı var. Təbiətə yaxınlıq, tarixi və mədəni zənginlik, eləcə də səmimi evsahibliyi turistlərə həm dincəlmək, həm öyrənmək, həm də unudulmaz təəssüratlar qazanmaq imkanı verir. Hər rayonun özünəməxsus üstünlükləri kənd turizmini daha cəlbedici edir. Məsələn, Kiçik Qafqaz dağının döşündə, Gəncədən cəmi 23 kilometrlik məsafədə yerləşən Hacıkənd gəncəlilər və ətraf rayonların əhalisi üçün əlverişli istirahət yeridir. Yayın bu qızmar günlərində orada bir dənə də olsun boş ev tapmaq mümkün olmur.









Eləcə də Gədəbəy rayonu. Bu rayon və onun kəndləri, buz bulaqlı meşələri Qərb bölgəsinin, ən çox da Şəmkir, Samux, Tovuz, Ağstafa rayonlarının camaatının üz tutduqları istirahət məkanlarındandır. Bir məqamı da qeyd edək ki, son illər Gədəbəy şəhəri, eləcə də onun qəsəbə və kəndlərinin yolları xeyli abadlaşıb. Əsaslı təmir edilən və asfalt döşənən yollar, yolayrıclarını istiqamətləndirən xətlər, gedəcəyin kəndə "bələdçilik edən" göstəricilər, ərafındakı yaşıllıqlar rahatlıq yaradır.

Gədəbəy təkcə yaşıllıq və əsrarəngiz təbiəti ilə deyil, qədim tarixi abidələri ilə də diqqətçəkəndir. Şənbə-bazar günləri buraya Şəmkirdən, Samuxdan Tovuzdan, lap elə Gəncənin özündən, hətta Goranboydan və Yevlaxdan birgünlüyə də olsa gəlib havasını dəyişmək, can yorğunluğunu Gədəbəy meşələrində qoyub-getmək istəyənlər çoxluq təşkil edirlər. Bir maraqlı məqam da var. Gədəbəydə istirahət mərkəzlərində və kəndlərdə istirahət edənlərin ən çox "əlindən tutan" odur ki, əziyyət çəkib dükana-bazara getmirlər. Təzə bal, qaymaq, xama, qatıq, süd, quzu əti, çolpa, kənd yumurtası, göy-göyərti, meyvə və digər ərzaq məhsulları qapının ağzında alıcısını gözləyir. Kənd camaatı həyətyanı sahəsində yetişdirdiyi məhsulları harasa dükan-bazara aparmır. Ucuz və sərfəli qiymətə istirahətə gələnlərə satıb ailə qayğıları və təsərrüfatı ilə məşğul olurlar. Bu, həm alıcı-turist, həm də satıcı-kəndli üçün çox sərfəlidir.

Burada çay qırağında alaçıq qurub istirahət edənlərin, çör-çöp yığıb samovar tüstülədənlərin, bulaq başında süfrə açanların istirahətləri bir yana, yayın bu qızmar çağında ələdüşməz dağ havası və mənzərəsi xüsusən də azyaşlılar üçün ən maraqlı, ən yaddaqalan xatirələrdəndir.

Son iki-üç ildir ki, Qarabağ və Şərqi Zəngəzur kənd turizmi üçün ən əlverişli məkanlardan birinə çevrilib. Erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur təkcə tarixi və siyasi əhəmiyyətinə görə yox, həm də turizm potensialına görə diqqət çəkir. Füzuli rayonunda yerləşən kurqanlar, Azıx mağarası və digər arxeoloji abidələr təkcə Azərbaycan deyil, dünya miqyasında nadir tarixi irs nümunələridir. Azıx mağarası, dünyanın ən qədim insan yaşayış məkanlarından biri hesab edilir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində 350-400 min il əvvələ aid insan qalıqları aşkarlanıb. Bölgədə arxeoparkların yaradılması, tədqiqatların davam etdirilməsi və turizm marşrutlarının açılması Qarabağın daş dövrü irsinin geniş tanıdılmasına xidmət edəcək.

Xocavənd rayonunun Tuğ kəndi, tarixi memarlığı, təbiəti və şərabçılıq ənənələri ilə kənd turizmi üçün ideal məkandır. Tuğda aqroturizm, ekoturizm və mədəni turizmin paralel inkişafı mümkündür. Burada keçmiş şərab istehsalı ənənələrinin bərpası, festivalların təşkili və tarixi memarlığın qorunması kimi layihələr həyata keçirilə bilər. Şuşa şəhəri və ətraf ərazilər, xüsusilə Turşsu və Dəmirsu kimi müalicəvi suların olduğu bölgələr sanatoriya və sağlamlıq turizminin yenidən inkişafı üçün əlverişli şərait yaradır. Bu mineral sular vaxtilə mədə-bağırsaq və revmatik xəstəliklərin müalicəsində təsirli olub, sovet dövründə minlərlə insanın müalicə aldığı yerlər idi. İndi onlar əvvəlki kimi xalqa xidmət edəcək.

Suqovuşan, Hadrut, Talış, Kəlbəcər və Laçın kimi ərazilərdə kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu bölgələrdə həm dağ, həm meşə, həm də düzənlik relyeflərinin bir araya gəlməsi təbiətlə təmas istəyən turistlər üçün ideal şərait yaradır. Şuşaya çəkilən yeni dəmir yolu və nəqliyyat infrastrukturunun yenilənməsi isə turizm axınını daha da artıracaq.

Hazırda bu rayonlarda geniş bərpa-quruculuq işləri həyata keçirilir. Tarixi, mədəni və dini abidələrin bərpası ilə yanaşı, kənd təsərrüfatı sahələrinin canlandırılması da kənd turizminin inkişafı üçün əsas baza rolunu oynayır. Bölgəyə həm yerli, həm də xarici turistlərin marağını artırmaq üçün kompleks turizm infrastrukturları yaradılır.

Turizm üzrə ekspertlərdən aldığımız açıqlamalardan məlum olur ki, kənd turizmini özündə ehtiva edən kəndlər "Turistik kənd" konsepsiyasına uyğun olaraq gələcəkdə daxili və xarici turistlər üçün yeni marşrutların əsas hissəsinə çevriləcək. Layihə çərçivəsində artıq bir sıra işlər görülüb. Məsələn, Astaranın Sım kəndində turizm potensialı qiymətləndirilib və kənd regionu turizm marşrutuna daxil edilib. Son iki ildə yalnız bu kəndə hər ay təxminən 2 min turistin gəlməsi infrastrukturu inkişaf etdirməyin nə qədər vacib olduğunu göstərir. Bu cür layihələrin icrası nəticəsində kəndlərdə yeni iş yerləri açılır və əhalinin kənddən şəhərə axını nisbətən azalır.

Layihəyə daxil olan kəndlərdə həm infrastrukturun təkmilləşdirilməsi, həm də təbii və mədəni irsin qorunması istiqamətində işlər davam edir. Yeni konsepsiya başa çatdıqdan sonra bu kəndlərin hər biri Azərbaycanın turizm xəritəsində fərqli formada təqdim olunacaq.

Görünən odur ki, ölkəmizdə də kənd turizmi təkcə regionların sosial-iqtisadi inkişafı baxımından deyil, həm də ölkənin ümumi turizm strategiyasının bir hissəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Bu sahənin inkişafı ucqar kəndlərin boşalmasının qarşısını almaq, əhalinin rifahını artırmaq, iş yerləri yaratmaq baxımından xeyli imkanlara malikdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Bu ilin birinci yarısında hotellərin gəlirləri 279 milyon manat olub

**Bu ilin yanvar-iyun aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə keçirilmiş gecələmələrin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 8,3 faiz azalaraq 1 807,9 min olub.**

AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla xəbər verir ki, gecələmələrin ümumi sayının 58,8 faizi Bakıda, 5,9 faizi Qusarda, 5,5 faizi Naftalanda, 3,4 faizi Qəbələdə, 3,1 faizi Qubada, 3,0 faizi Lənkəranda, 2,1 faizi Xaçmazda, 1,9 faizi Gəncədə, 1,8 faizi Şuşada, 1,5 faizi Şamaxıda, 1,2 faizi Naxçıvan Muxtar Respublikasında, 1,1 faizi Şabranda, 1,1 faizi Masallıda və 9,6 faizi digər şəhər və rayonlardakı mehmanxanalarda (hotellərdə) və mehmanxana tipli obyektlərdə qeydə alınıb.

2026-cı ilin yanvar-iyun aylarında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz azalaraq 1 069,8 min olub ki, bu da ümumi gecələmələrin 59,2 faizini təşkil edir. Gecələmələrin ümumi sayının 14,1 faizi Türkiyə, 13,0 faizi Rusiya Federasiyası, 7,1 faizi Hindistan, 6,9 faizi İsrail, 4,6 faizi Səudiyyə Ərəbistanı, 4,6 faizi Çin, 4,1 faizi Qazaxıstan, 3,9 faizi Özbəkistan, 3,8 faizi Pakistan,



2,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,3 faizi Böyük Britaniya, 2,3 faizi ABŞ, 1,7 faizi Almaniya, 1,3 faizi Küveyt, 1,1 faizi İtaliya, 1,0 faizi Gürcüstan, 0,8 faizi İran, 0,7 faizi Koreya Respublikası, 0,7 faizi Ukrayna, 23,6 faizi isə digər ölkələrin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin payına düşüb.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin 81,9 faizi Bakıda, 5,6 faizi Qusarda, 5,6 faizi Naftalanda, 2,1 faizi Qəbələdə, 1,0 faizi Qubada, 3,8 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalarda (hotellərdə) və mehmanxana tipli obyektlərdə qeydə alınıb.

Azərbaycan Respublikası vətəndaşlarının mehmanxanalarda (hotellərdə) və mehmanxana tipli obyektlərdə keçirdiyi gecələmələrinin sayı 738,1 min olub ki, bu da ümumi gecələmələrin 40,8 faizini təşkil edir.

Cari ilin yanvar-iyun aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri 2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 3,8 faiz azalaraq 279,0 milyon manat olub ki, onun da 61,1 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 26,7 faizi ictimai iaşə xidmətlərindən, 3,2 faizi müalicə və sağlamlıq xidmətlərindən, 9,0 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilib.

Bu ilin yanvar-iyun aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə səviyyəsi ölkə üzrə 19,3 faiz olub (2025-ci ilin yanvar-iyun aylarında 21,4 faiz). Bu göstərici Naftalanda 41,7 faiz, Şabranda 34,1 faiz, Neftçalada 30,8 faiz, Sabirabadda 29,6 faiz, Bakıda 29,4 faiz, Qusarda 26,7 faiz, Bərdədə 19,2 faiz, Lənkəranda 18,7 faiz, Salyanda 18,5 faiz, Beyləqanda 18,4 faiz, Laçında 17,6 faiz, Şamaxıda 17,0 faiz, Qəbələdə 15,8 faiz, digər şəhər və rayonlarda isə 15,0 faizdən aşağı olub.

BEYNƏLXALQ HƏYAT

# ABŞ və Səudiyyə Ərəbistanı İraqda iranpərəst qüvvələrə zərbələr endirib

**ABŞ ordusu Yaxın Şərqdəki ABŞ hədəflərinə İrandan atılan ballistik raketlərin ələ keçirildiyini və Səudiyyə Ərəbistanı ilə birlikdə İraqda İranın dəstəklədiyi hədəflərə zərbələr endirdiyini bildirib. Eyni zamanda Vaşinqton iki hadisənin bir-biri ilə əlaqəsi olmadığını aydınlaşdırıb.**



ABŞ Ordusu bildirib ki, Mərkəzi Komandanlıq və Səudiyyə Ərəbistanı qüvvələri İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) tərəfindən ABŞ qüvvələrinə və Səudiyyə Ərəbistanının enerji infrastrukturuna hücum etmək üçün yerləşdirilən İranın dəstəklədiyi terrorçulara qarşı hədəfli zərbələr endiriblər. Komandanlıq bildirib ki, ayıq qalır və yüksək səviyyədə döyüş hazırlığı saxlayır. ABŞ Tehrana xəbərdarlıq edib ki, Amerika qoşunlarına və ya Səudiyyə Ərəbistanının enerji infrastrukturuna növbəti hücumlar əlavə sanksiyalarla nəticələnə bilər.

Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyi "X"dəki paylaşımda zərbələri təsdiqləyib və eskalasiya axtarmadığını, lakin qarşılaşdığı hər hansı bir təcavüzə cavab verəcəyini bəyan edib. Bu açıqlama Ər-Riyadın çərşənbə axşamı İraq ərazisindən atılan pilotsuz təyyarələri ardıcıl ikinci gün vurduğunu bildirməsindən sonra verilib.

Bağdad isə "qardaş və ya dost ölkələrə qarşı hər hansı bir hücum üçün marşrut və ya platforma kimi İraq ərazisinin istifadəsinin qarşısını almağa" söz verdiyini bildirib. İraq silahlı qüvvələri hücumlarda iştirakını təkzib edib.

İranpərəst qrupların koalisiyası olan "İraqda İslam Müqaviməti" də Səudiyyə Ərəbistanının iddialarını "uydurma" adlandırıb və hücumların əvvəllər Səudiyyə Ərəbistanının neft obyektlərinə hücum etdiyini iddia edən hövsi üsyançıları tərəfindən həyata keçirildiyini bildirib. Hövsilər Səudiyyə Ərəbistanının neft tankeri NCC Ghazal-a raket atdıqlarını və onu geri dönməyə məcbur etdiklərini iddia edirlər. Keçən həftə onlar Səudiyyə Ərəbistanının gəmiçiliyinin blokadasını elan edərək Qırmızı dənizə aparan digər bir əsas Yaxın Şərq gəmiçilik marşrutu olan Bab əl-Məndəb boğazını təhdid ediblər.

# ABŞ Senatı Kleytonu milli kəşfiyyatın direktoru vəzifəsinə təsdiqlədi

**ABŞ Senatı Prezident Donald Tramp tərəfindən namizəd göstərilən Cey Kleytonu milli kəşfiyyatın direktoru vəzifəsinə təsdiqləyib.**

"The Washington Post" qəzetinin məlumatına görə, əvvəllər Nyu Yorkun Cənub dairəsinin federal prokuroru vəzifəsində çalışmış Kleytonun lehinə 51, əleyhinə 47 nəfər səs verib. Keçmiş direktor Tulsi Qabbardın istefasından sonra Kleyton Milli Kəşfiyyatın direktoru vəzifəsini icra edən Bill Pulteni əvəz edəcək.



Milli Kəşfiyyat direktorunun aparatı Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) və Federal Təhqiqatlar Bürosu (FTB) da daxil olmaqla 18 ABŞ kəşfiyyat orqanının fəaliyyətinin əlaqələndirilməsinə cavabdehdir.

Keçmiş Milli Kəşfiyyatın direktoru Tulsi Qabbard ərinin səhhətini əsas gətirərək mayın 22-də istefa verdiyini açıqlamışdır.

# Yaponiyada güclü zəlzələdən sonra onlarca insan itkin düşüb

## Nüvə stansiyalarında fövqəladə vəziyyət qeydə alınmayıb

**Yaponiyanın cənub-qərb sahillərində 7,1 bal gücündə zəlzələ baş verdikdən sonra onlarca insanın yaralandığı və itkin düşdüyü bildirilir. Təxminən 50 min ev işıqsız qalıb.**



Çərşənbə axşamı günortadan sonra Yaponiyanın cənubundakı Kumamoto prefekturasında 7,1 bal gücündə zəlzələ baş verib. Yerli media polisə istinadən bir neçə ölüm hadisəsi barədə məlumat yayıb. 50-dən çox insan yaralanıb və xəstəxanaya yerləşdirilib.

Meteoroloji agentliyin bildirdiyinə görə, zəlzələnin episentri Kumamoto prefekturası sahillərində dənizin dibində təxminən 10 kilometr dərinlikdə yerləşib. Sunami xəbərdarlığı verilib, lakin tezliklə ləğv edilib.

Zəlzələdən sonra Kaşima şəhərindəki ticarət mərkəzində partlayış baş verib və bu, ikinci mərtəbənin konstruksiyalarının çökməsinə səbəb olub. 30 nəfərə qədər insan itkin düşmüş hesab olunur. Polis həmçinin Yatsuşiro şəhərində itkin düşmüş şəxslər barədə məlumat alır. Bu məlumatlar tüstü borusunun çökdüyü "Nippon Paper" şirkətinin fabriki ilə bağlıdır.

Təxminən 300 min insan təxliyə mərkəzlərinə göndərilib. Yüzlərlə hərbi qulluqçu xilasetmə əməliyyatlarına kömək üçün səfərbər edilib.

Yaponiyanın Baş naziri Sanae Takaiçi sakinləri sahildən uzaq durmağa çağırıb. O, rəhbərliyi ilə təcili yardım qrupunun yaradıldığını elan edib və Kumamoto qubernatorunun xahişi ilə qurbanlara kömək etmək üçün özünümüdafiə qüvvələrinin 3600 əməkdaşının səfərbər ediləcəyini bildirib. Hökumət məlumat toplamaq və mümkün ziyanı qiymətləndirmək üçün xüsusi qrup yaradıb.

Kyuşuda baş verən təkanlar ən azı 48 min evi elektriksiz qoyub, dəmiryolu hərəkəti, o cümlədən sürət qatarları xidməti dayandırılıb. Yaponiya Nüvə Tənzimləmə Təşkilatının məlumatına görə, "Sendai" (Kaqoşima) və "Genkai" (Saqa) nüvə elektrik stansiyalarında heç bir fövqəladə vəziyyət qeydə alınmayıb.

Güclü təkanlar Cənubi Koreyada, o cümlədən cənub-şərqdəki əsas liman şəhəri Busanda da hiss olunub.

Xatırladaq ki, 10 il əvvəl Kumamotoda baş verən güclü zəlzələ nəticəsində 275 nəfər həlak olmuş, 2739 nəfər yaralanmış və on minlərlə insan evsiz qalmışdır.

*Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Şimal-qərb küləyi arabir güclənəcək

**Azərbaycanda iyulun 30-na gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyinin arabir güclənəcəyi bildirilir.

Havanın temperaturu gecə 24-26, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-26, gündüz 35-39, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacaq.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Etibarlı tərəfdaş, lider dövlət, sülhün ünvanı
Ölkəmiz böyük təşkilatlara üzvlüyü və sədrliyi, dünyamiqyaslı tədbirlərin uğurlu məkanı olması ilə qlobal səviyyədə diqqət çəkir
Vladimir Putin İlham Əliyevə zəng edib
Sabitlik və etimad məkanı
İnsan hüquqları bütün bəşəriyyət üçün ortaq dəyər olmalıdır
ABŞ Konqresinin növbəti qərəzli addımı erməni lobbisinin çirkin maraqlarına xidmət edir
Ölkə iqtisadiyyatının daha bir aparıcı sektoru - yüngül sənaye
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Dünya iqlim fəlakətləri ilə üz-üzədir

**Son vaxtlar planetimiz çox ağır təbiət sınaqları ilə üzləşir. Bir tərəfdən dözülməz istilər və meşə yanğınları insan həyatını təhlükəyə atır, digər tərəfdən isə aramsız yağışlar və güclü daşqınlar böyük dağıntılara yol açır. Bu fəlakətlər artıq lokal problem olmaqdan çıxıb. İqlim dəyişikliyinin fəsadları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrə mənfi təsir göstərir. İnsanlar həm istidən, həm də sel-sulardan eyni dərəcədə zərər çəkirlər.**



Görünən odur ki, qlobal istiləşmə təbiətin müvazinətini tamamilə pozub. Təcili tədbirlər görülməsə, bu cür hadisələrin miqyası daha da genişlənəcək. Yanğınlar meşələri məhv edir, daşqınlar isə yaşayış məntəqələrini xarabalığa çevirir.

Avropa qitəsi hazırda dəhşətli meşə yanğınları ilə mübarizə aparır. Yüksək temperatur və güclü külək yanğınların qarşısını almağı həddindən artıq çətinləşdirir. Fransada bu il yanğın 44 min hektar meşə sahəsini külə çevirib. Hətta Parisin yaxınlığındakı məşhur Fontenblo meşəsinin 10 faizi tamamilə yanıb. İspaniyada da vəziyyət çox gərgindir. Saronqoza bölgəsində baş verən yanğın 16 min hektar ərazini məhv edib. Madrid yaxınlığındakı Quadalaxarada isə 13 min hektardan çox meşə yanğından zərər görüb. Mütəxəssislər bunu ölkədə ilin ən böyük yanğını adlandırırlar. Eyni zamanda İtaliyanın Siciliya adasında da yanğınlar yaşayış yerlərinə qədər çatıb. Palermo şəhəri yaxınlığında alovlar evləri bürüyüb və yolları bağlayıb. Xilasedicilər təhlükə altında olan sakinləri təcili təxliyə ediblər. Hətta bir yanğınsöndürən vəzifə başında həlak olub.

Oxşar fəlakətlər Norveç, Yunanıstan və Xorvatiyada da qeydə alınıb. Norveçdə 80 hektar meşə sahəsi yanıb. Yunanıstanda temperatur 40 dərəcəni keçib və bir çox bölgədə yeni yanğın ocaqları yaranıb. Böyük Britaniyanın Uels bölgəsində isə baş verən yanğına görə fövqəladə vəziyyət elan edilib. Həmçinin Şimali Afrika ölkələri də istilərdən ağır zərər çəkirlər. Əlcəzairdə 170 meşə yanğını baş verib və bəzi sahələrdə hərarət 49 dərəcəyə çatıb. Annaba şəhərində yanğına görə xəstəxana təxliyə olunub. Mərakeş və Tunisdə də yanğınların qarşısını almaq üçün böyük qüvvələr cəlb edilib.

Asiya ölkələri isə musson yağışları və qasırğalarla çarpışır. Belə ki, Hindistanın Assam ştatında daşqınlar səbəbindən 41 nəfər dünyasını dəyişib. Regionda 727 min insan bu fəlakətdən birbaşa təsirlənib və yüzdən çox şəxs itkin düşüb. Pakistanın müxtəlif əyalətlərində musson yağışları ani torpaq sürüşmələrinə səbəb olub. İldırım çaxması və evlərin uçması nəticəsində onlarca insan həyatını itirib. Çində güclü təsiri olan "Bavi" qasırğası yüz minlərlə insanın öz yerlərini tərk etməsinə səbəb olub. Liaonin əyalətində 260 mindən çox insan təhlükəsiz yerlərə köçürülüb. Fəlakətə görə bəzi şəhərlərdə təhsil və iş dayandırılıb. Ölkənin cənubunda yerləşən Lyoılan bəndində yarğan əmələ gəlib və yüzlərlə sakin evindən uzaqlaşıb. Bundan əlavə, Banqladeşdə də vəziyyət ürəkaçan deyil. Yeddi ayrı bölgədə bir çox yaşayış məntəqəsi su altında qalıb. Fəlakət zonasında 51 nəfər həlak olub, 1 milyondan çox insan zərər çəkib. Vyetnamda da ani sel insan itkisinə səbəb olub.

Güclü yağışlar Asiya ilə yanaşı, digər qitələri də öz çənginə alıb. Belə ki, Cənubi Amerika ölkəsi olan Çilidə şiddətli yağışlar böyük dağıntılar törədib. Məlumata görə, 13 nəfər həyatını itirib, 3 minə yaxın ev dağılıb. Ən acınacaqlısı isə odur ki, 60 mindən çox insanın xarici aləmlə əlaqəsi kəsilib. Həmçinin ABŞ-nin Texas ştatında da sel suları həyatı iflic edib. Sürücülər yollarda köməksiz vəziyyətdə qalıblar. Xilasedicilər helikopter və qayıqlarla 200-dən çox insanı xilas edə biliblər. Eyni zamanda Afrika qitəsində də sel fəlakəti insanları yurd-yuvasından edib. Qanada iyun ayından bəri davam edən yağışlar 34 nəfərin ölümünə səbəb olub. 10 mindən çox təsərrüfata ziyan dəyib və 90 minə yaxın insan evini tərk etmək məcburiyyətində qalıb. Fildişi sahilində şiddətli yağışlar 59 nəfərin həyatına son qoyub. Nigeriyada isə torpaq sürüşməsi nəticəsində uşaqlar da daxil olmaqla insanlar həyatını itirib. Göründüyü kimi, Afrika ölkələri infrastruktur zəifliyi səbəbindən bu fəlakətlərdən daha ağır zərbə alıblar.

Mərkəzi və Şərqi Avropa ölkələri də anomal hava şəraitindən əziyyət çəkirlər. Rumıniyada 40 dərəcəlik istilərin arxasınca ani fırtına və dəhşətli yağışlar başlayıb. Yüzlərlə bina və avtomobil zərər görüb, ağacların aşması nəticəsində ölüm faktları qeydə alınıb. Bolqarıstanın müxtəlif şəhərlərində şiddətli dolu həyatı dayandırıb. Kanalizasiya sistemləri su axınının qarşısında çöküb, küçələr gölə çevrilib. İnsanlar nəqliyyatın hərəkətində böyük çətinliklərlə qarşılaşıblar. Almaniyanın cənub bölgələrində fırtına böyük dağıntılara yol açıb. Bavyera və Baden-Vürtemberq əyalətlərində ağaclar aşıb, evləri su basıb. Nürnberq şəhərində xilasetmə xidmətinə 5 saat ərzində 3 minə yaxın zəng daxil olub.

Bütün bu hadisələrdən məlum olur ki, təbiətin fəlakətləri sərhəd tanımır. Yaşanan bu dağıdıcı hadisələr, əslində, bütün dünya üçün həyəcan təbilidir. Çünki baş verənlər planetimizin necə ağır bir böhran həddinə yaxınlaşdığını aydın göstərir. Məsələ, sadəcə, təbiətin dəyişməsi ilə bitmir. Bu böhranın həm səbəbləri, həm də fəsadları birbaşa verilən qərarlardan asılıdır. Dövlətlərin üzərinə böyük məsuliyyət düşür. Artıq hər bir dövlət, fərd, böyük şirkətlər və beynəlxalq təşkilatlar bu mübarizəyə qoşulmalıdırlar.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

**Bakı şəhəri Nəsimi rayonu 15 saylı orta məktəbi 2000-ci ildə bitirmiş Rəna Nəriman qızı Kazımovanın (Cəbrayılova) adına verilmiş A N-448157 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı məşhur "91-lər"dən olan

**HACAN HACIYEVIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Vahid Məhərrəmova əzizi

**ƏLİ NURİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının kollektivi Konfederasiyanın sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Heydər Əsədov Əli Məmmədova və Sahib Məmmədova əzizləri

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3229
Sifariş 949
Qiyməti 60 qəpik